# L.F.BAUM

# Oz ölkəsinin Qəribə Sehirbazı

## 1. Qasırğa

Doroti ucsuz-bucaqsız Kanzas çölünün düz ortasında yerləşən balaca evdə, fermer Henri dayı və onun arvadı Em xalayla birlikdə yaşayırdı. İnşaat üçün lazım olan taxtalar çox uzaqlardan gətirildiyinə görə evləri çox balaca idi; dörd divarı, damı, döşəməsi və bircə otağı vardı, otaqda köhnə paslı sobadan, qab-qacaq taxçasından, masa və bir neçə oturacaqdan, iki çarpayıdan başqa heç nə yox idi. Bir küncdəki böyük yataq Henri dayıyla Em xalanın, o biri küncdəki balaca yataq isə Dorotinin idi. Evin çardağı, zirzəmisi yoxdu, amma döşəmənin altında bir xəndək vardı, güclü qasırğalar zamanı ailə orada gizlənirdi. Bu yerlərdə, qarşısına çıxan bütün evləri dağıda bilən dəhşətli qasırğalar olurdu. Otağın ortasında, döşəmədə sığınacağa açılan kiçik qapı vardı, buradan nərdivanla həmin sığınacağa enmək olurdu.

Evdən çıxan və ətrafa göz gəzdirən Doroti yalnız kül rəngli çöl mənzərəsini görürdü. Ta üfüqə qədər uzanan bu boz ərazidə insanın gözünü oxşayan nə bir ağac vardı, nə də bir ev. Bu yerlərdə günəş elə qızmardı ki, onun yandırıcı şüaları altında şumlanmış torpaq bir an içində boz palçığa dönürdü. Otlar da ətrafdakı hər şey kimi tezliklə bozarırdı. Bir zamanlar Henri dayı evi rəngləmişdi, lakin günəş boyanı çat-çat etmiş, yağışlar rəngi yuyub aparmışdı. İndi ev də bütünlüklə bozarmışdı. Em xala bu yerlərə təzə gələndə, gənc və yaraşıqlı bir gəlin idi, lakin amansız günəş və qorxunc qasırğalar öz işini görmüşdü, xalanın gözlərindəki şən qığılcımlar sönmüş, al yanaqları solmuş, çöhrəsi bozarmışdı. Artıq zəifləmişdi, yanaqları çökmüşdü və heç gülümsəmirdi. Yetim qalan Doroti ilk gəldiyi günlərdə uşağın qəh-qəhəsi xalanı elə qorxutmuşdu ki, qızcığazın nəşəli səsini hər eşidəndə diksinib əlini ürəyinin üstünə basırdı, elə indinin özünəcən Doroti hər güləndə xala təəccüblə qıza baxır, bu boz həyatda gülməli nə olduğunu anlaya bilmirdi.

Henri dayı da heç vaxt gülməzdi. Səhərdən axşamadək qan-tər içində işləyər, əyləncənin nə olduğunu bilməzdi. Henri dayı da, uzun saqqalından tutmuş kobud çəkmələrinə qədər, başdan ayağa bom-bozdu . Zəhmli, sərt görünüşü vardı, özü də qaradinməzin biriydi.

Dorotini əyləndirən, ətrafında hökm sürən bu bozluğa təslim olmağa qoymayan yeganə varlıq balaca Toto idi. Toto boz deyildi. Onun gözəl ipək qara tükü, məzəli qara burnu, sevinclə dolu xırda şən qara gözləri vardı, Toto səhərdən axşama qədər oynamaqdan yorulmazdı. Doroti öz sədaqətli dostunu çox sevərdi.

Ancaq bu gün onların oynamağa halı yoxdu. Henri dayı eşiyə çıxıb pilləkəndə oturmuşdu, əndişə içərisində gözlərini hər zamankından daha da boz görünən göy üzünə zilləmişdi. Totonu qucağında tutmuş Doroti dayısının yanında durub göyə baxırdı. Em xala evdə qabları yuyurdu. Uzaq şimalda külək sakitcə vıyıldayırdı, üfüqdəki hündür otlar dalğa kimi coşurdu. Əks tərəfdən, cənubdan da belə sakit uğultu eşidilirdi. Henri dayıyla Doroti dönüb ora baxanda otların dəniz kimi dalğalandığını gördülər.

Henri dayı birdən ayağa qalxdı:

- Em, qasırğa yaxınlaşır! – arvadına səsləndi, – Gedim görüm heyvanlar necədir! – Dayı inək və atlar saxlanan tövləyə doğru qaçdı.

Em xala işini atıb qapıya gəldi. Bir baxışla fəlakətin yaxınlaşdığını anlamışdı.

- Doroti! – deyə bağırdı, – Tez sığınacağa qaç!

Bu an Toto Dorotinin qucağından yerə sıçrayıb çarpayının altında gizləndi. Doroti onu tutmağa çalışırdı. Em xala döşəmədəki qapını açıb nərdivanla aşağı endi. Doroti Totonu tutub

sığınacağa getmək istədi, amma bir addım da atmamış dəhşətli külək qopdu, balaca ev elə titrədi ki, qız yerə yıxıldı.

Bu zaman qeyri-adi nəsə baş verdi.

Ev bir neçə dəfə öz oxu ətrafında fırlandı, sonra hava şarı kimi astaca göyə qalxdı.

Düz Dorotinin evinin dayandığı yerdə iki külək – şimal və cənub küləyi üz-üzə gəlmişdi, toqquşaraq qorxunc burulğan əmələ gətirmişdilər. Hava axınları evin divarlarını daha çox sıxdığına görə ev yuxarı qalxmış, nəhəng hava dalğasının zirvəsinə çatanda, yüngül quş lələyi kimi uzaqlara uçmuşdu.

Pəncərələr qaranlıqdı, külək azğın heyvan kimi ulayırdı. Ancaq Doroti bunun o qədər də pis olmadığını düşündü, uçmaq xoşuna gəlmişdi. Düzdür, əvvəlcə ev bir qədər fırlandı, sonra sağa-sola əyilməyə başladı. Doroti beşikdəki kimi yüngülcə yırğalanırdı.

Baş verənlər Totoya xoş gəlmədi. O, bərk hürərək qızın ətrafında vurnuxurdu, Doroti isə döşəmədə oturub, nə edəcəyini fikirləşirdi.

Sonra Toto döşəmədəki açıq qapıya çox yaxınlaşdı və oradan aşağıya düşdü. Doroti elə bildi ki, itini həmişəlik itirib, sonra gördü ki, qapının qırağından heyvancığazın qara qulaqlarının ucu görünür. Havanın təzyiqi itin yerə düşməsini əngəlləmişdi. Doroti Totoya tərəf süründü, qulağından dartıb içəri çəkdi, sonra Toto bir də oraya düşməsin deyə qapını bərk-bərk bağladı.

Zaman keçirdi, nəhayət, Doroti sakitləşdi, amma özünü çox yalqız hiss edirdi, külək elə vıyıldayırdı, qızın az qalırdı qulaqları bata. Qız əvvəl elə bilirdi ev yerə düşəcək və onlar parçalanacaqlar, amma elə şey baş vermədi. Onda Doroti həyəcanını unudub qərara aldı ki, ümidini itirməsin. Qızcığaz gəmidə olduğu kimi ləngər vuran döşəməylə sürünüb yatağına qalxdı, Totonu da özüylə götürdü. Evin titrəməsinə, küləyin vıyıldamasına baxmayaraq, qız gözlərini yumdu və tezliklə yuxuya getdi.

## 2. Çeynəçilərlə söhbət

Qəfil güclü təkan Dorotini yuxudan oyandırdı, qız yumşaq yataqda yatmasaydı bərk əziləcəkdi. Doroti tez özünə gəldi və nə baş verdiyini fikirləşməyə başladı. Toto soyuq burnunu qızın sifətinə dürtüb ümidsizcə zingildəyirdi. Qızcığaz yataqdan qalxıb oturdu. Hiss elədi ki, ev daha uçmur. Artıq qaranlıq da deyildi, günəşin parlaq şüaları pəncərədən içəri süzülürdü. Doroti Totoyla birgə yaxınlaşıb qapını tayba-tay açdı.

Balaca qız ətrafına baxdı və çaşqınlıq içərisində çığırmağa başladı, gördüyü qeyri-adi mənzərə qarşısında gözləri bərələ qalmışdı.

Qasırğa Dorotinin evini, bir qasırğa üçün yavaş sayılacaq bir tərzdə, inanılmaz gözəllikləri olan bir ölkəyə gətirmişdi. Ətrafda şirin dadlı meyvələrlə dolu ağaclar, yaşıl çəmənlik vardı. Hər yanda qəribə çiçəklər bitmişdi. Ağac və kolların üstündəki bəzəkli quşlar cəh-cəh vururdular. Yaxınlıqda xəfif pıçıltıyla dup-duru çay axırdı, hər halda, ömrünü quru çöllükdə keçirmiş Dorotiyə bunlar belə görünürdü.

Qızcığaz dayanıb bu möcüzələrə heyran-heyran tamaşa etdiyinə görə ona yaxınlaşan qəribə adamlar dəstəsinə fikir vermirdi. Adamlar Doroti boyda olsalar da, bilinirdi ki, onlar yaşca böyükdürlər. Üç kişi və bir qadın əcaib geyimdə idilər. Onların başında hündür sivriuclu zınqırovlu papaqlar vardı, yeriyəndə zınqırovlar asta-asta səslənirdi. Kişilərin papaqları mavi idi, qadınınkı – ağ. Qadının əynində günəş altında xırda almazlar kimi par-par parlayan ulduzlarla bəzədilmiş geniş plaş vardı. Kişilər başdan ayağa mavi geyinmişdilər, onların çəkmələri də mavi idi. Doroti təxmin etdi ki, adamlar Henri dayı yaşındadır, qadın isə daha yaşlıdır. Kişilərin ikisinin saqqalı vardı. Qadının sifəti qırışlarla örtülmüşdü, çətinliklə yeriyirdi.

Adamlar Dorotinin evinə yaxınlaşıb, öz aralarında pıçıldaşmağa başladılar, sanki nədənsə qorxurdular. Nəhayət, balaca qarı qıza yaxınlaşdı, ona təzim edib məlahətli səslə dedi:

- Çeynəçilər ölkəsinə xoş gəlmisən, ay nəcib pəri! Şərqin Zalım Pərisini öldürüb Çeynəçiləri kölələlikdən azad etdiyinə görə biz sənə minnətdarıq!

Bu sözləri eşidən Doroti heyrət içində çaşıb qaldı. Niyə bu qarı ona nəcib pəri deyirdi? Doroti Şərqin Zalım Pərisini necə öldürə bilərdi? Doroti qasırğanın uzaq ölkəyə atdığı Kanzaslı balaca qız olduğundan və heç kəsi öldürmədiyindən əmin idi.

Qadın cavab gözləyirdi. Doroti inamsız halda dedi:

- Siz çox nəzakətlisiniz, amma burada bir yanlışlıq var. Mən heç kimi öldürməmişəm.

- Bəlkə də sən öldürməmisən, - qarı gülümsədi, - ancaq bunu sənin evin edib. Bunun elə ikisi də birdir. Bax, Pərinin ayaqları görünür. – Qarı əliylə evin küncünü göstərdi.

Doroti ora baxdı və qorxu içində qışqırdı. Doğrudan da, evin altından əyriburun gümüş başmaqlı ayaqlar görünürdü.

- Ayy! – Doroti qışqırdı. – Deməк, evim yerə enəndə pərini əzib. İndi nə etmək lazımdır?

- Heç nə eləmək lazım deyil, - qarı sakitcə cavab verdi.

- Axı evin altında qalan bu adam kimdir? – Doroti soruşdu.

- Dedim axı, Şərqin Zalım Pərisi. Uzun illərdi o, Çeynəçiləri kölə etmişdi, onları gecə-gündüz işlədirdi. İndi isə onlar azaddır və buna görə sənə təşəkkür edirlər.

- Bəs Çeynəçilər kimdir?

- Bu ölkənin şərqində yaşayan xalq. Orda Zalım Pəri hökmranlıq edirdi.

- Siz də Çeynəçilər ölkəsindənsiz? – Doroti yenə soruşdu.

- Yox, mən Şimalda yaşayıram, amma Çeynəçilərlə dostam. Onlar gördülər ki, zalım hökmdarları ölüb, mənə xəbər verdilər, mən də bura gəldim. Mən Şimal Pərisiyəm.

- Ayy, doğrudan, siz əsl pərisiniz? – Doroti qışqıraraq soruşdu.

- Əlbəttə. Mən xeyirxah pəriyəm, xalqım məni sevir. Amma heyif ki, Şərq Pərisi kimi o qədər də güclü deyiləm, yoxsa Çeynəçiləri çoxdan azad etmişdim.

- Mən elə bilirdim ki, pərilərin hamısı zalımdır, - Doroti dedi.

- Bax, belə düşünməkdə çox yanılmısan! Oz ölkəsində cəmi dörd pəri var, onlardan ikisi – Şimal və Cənub pəriləri xeyirxahdır, lakin Qərb və Şərq pəriləri, doğrudan da, qəddardır. Onlardan birini sən öldürdün, indi Oz ölkəsində cəmi bir zalım pəri qalır, Qərb Pərisi.

- Em xala deyirdi ki, bütün pəri və sehirbazlar çoxdan ölüb, - Doroti etiraz etdi.

- Em xala kimdi?

- Mənim xalam. O da mənim kimi Kanzasda yaşayır.

Şimal Pərisi fikirli halda başını əydi, gözlərini yerə dikdi. Sonra Dorotiyə baxıb söylədi:

- Kanzasın harada olduğunu bilmirəm. İlk dəfədir bu ölkə haqqında eşidirəm. De görüm, bu ölkə mədəni bir ölkədirmi?

- Hə, əlbəttə!

- Onda hər şey aydındır. Mədəni ölkələrdə nə pəri var, nə cadugər, nə də sehirbaz. Amma mədəniyyət bizə hələ gəlib çatmayıb, axı biz bütün dünyadan uzağıq. Ona görə də bizdə hələ də pərilər və sehirbazlar var.

- Onlar kimdir elə?

- Ən böyük sehirbaz Ozdur, – qarı pıçıldadı. – O bütün cadugərlərdən güclüdür. Oz Zümrüd Şəhərində yaşayır.

Doroti nəsə soruşmaq istəyirdi ki, bayaqdan sakitcə dayanmış Çeynəçilər qışqırdılar və evin küncünü göstərdilər.

- Nə olub? - Şimal Pərisi soruşdu, sonra baxıb güldü. Evin altında Zalım Pərinin gümüş başmaqlarından başqa heç nə qalmamışdı.

- Şərq Pərisi elə qocaydı ki, günəşin altında quruyub tamam yox olub. Onun başmaqları indi sənindir, ay qız.

Bu sözləri deyib Pəri əyildi, başmaqları götürdü, tozunu çırpıb Dorotiyə verdi.

- Şərq Pərisi bu başmaqlarla fəxr edirdi, - Çeynəçilərdən biri dedi, - deyirlər ki, bu başmaqlar adi deyil, sehirlidir, amma biz onların sehrini bilmirik.

- Mən evə qayıtmalıyam, çünki Henri dayıyla Em xala, yəqin, narahatdırlar, – Doroti söylədi: – Siz bilirsiz, Kanzas hansı tərəfdədir?

Çeynəçilərlə Pəri bir-birlərinə, sonra da Dorotiyə baxdılar. Onlardan biri dedi:

- Şərqdə, buradan çox da uzaq olmayan bir yerdə böyük səhra var, onu keçmək hələ heç kəsə nəsib olmayıb.

O birisi də əlavə etdi:

- Cənubda da səhra var, mən onu öz gözlərimlə görmüşəm. Cənubda Kvodlinqlər ölkəsi yerləşir.

- Mən isə Qərbdə də böyük səhranın olduğunu eşitmişəm, – bir başqa Çeynəçi dedi: – Orda Gözvuranlar yaşayır, onların hökmdarı Zalım Pəridir, o, ölkəsinə düşmüş hər kəsi əsir edir və buraxmır.

Pəri dedi:

- Mən Şimalda yaşayıram, mənim ölkəm də ucsuz-bucaqsız səhra ilə sərhəddir. Səhra bütün Oz ölkəsini üzük kimi əhatə edib. Qorxuram ki, sən burda qalmalı olasan, balaca.

Bunu eşidən Doroti hıçqıraraq ağlamağa başladı, qızcığaz bu yad və qəribə adamların yanında qalmaq istəmirdi. Qızın göz yaşları ürəyiyumşaq Çeynəçilərə elə təsir etdi ki, onlar da burun dəsmallarını çıxarıb hönkür-hönkür ağladılar. Pəri isə papağını çıxarıb onun sivri ucunu öz burnuna dayadı və "Bir! İki! Üç!" deyən kimi əlindəki papaq balaca yazı lövhəsinə çevrildi. Lövhədə iri hərflərlə yazılmışdı:

QOY DOROTİ ZÜMRÜD ŞƏHƏRİNƏ GETSİN

Qarı lövhəni burnundan götürdü, yazını oxuyub maraqlandı:

- Ay qız, sənin adın Dorotidir?

- Hə. – Doroti içini çəkərək dedi.

- Deməli, sən Zümrüd Şəhərinə getməlisən. Oz sənə kömək edər.

- Zümrüd Şəhəri, o hayandadır?

- Ölkənin düz ortasında. Sənə demişdim, şəhərdə qüdrətli Oz hökmranlıq edir.

- O yaxşı adamdır? – Doroti şübhəylə soruşdu.

- O yaxşı sehirbazdır. Amma yaxşı insandır, ya yox... Bəlkə heç insan deyil... Bilmirəm, mən onu heç vaxt görməmişəm.

- Zümrüd Şəhərini necə tapacam? – Doroti soruşdu.

- Ora piyada getməlisən. Yol uzundur, hərdən səyahətin xoş olacaq, hərdən yox. Mən səni qorumaqdan ötrü bütün sehirli qüvvəmi işə salacam.

- Bəs siz mənimlə getməyəcəksiz? – Qız ümidlə qarıdan soruşdu, Doroti artıq Pərini öz dostu saymağa başlamışdı.

- Yox, mən gedə bilmərəm, amma səni öpüb yola salacam. Şimal Pərisinin öpdüyü kimsəni heç kim incidə bilməz.

Pəri qıza yaxınlaşıb incə öpücüklə alnından öpdü. Sonralar məlum oldu ki, qızın alnında xəfif qırmızı iz qalıb.

- Zümrüd Şəhərinə gedən yol sarı kərpiclə döşənib, – qarı dedi. – Sən onu asanlıqla tapacaqsan. Sehirbaz Ozu görsən, qorxma, başına gələnləri ona danış və kömək istə. İndisə sağ ol, əziz qızcığaz.

Üç Çeynəçi Dorotiyə təzim edib ona uğurlu yol dilədilər və getdilər. Pəri üç dəfə sol dabanı üstə fırlanıb bir anda gözdən itdi. Toto lap mat qalmışdı. O, var gücüylə hürürdü, indi hürməkdən həzz alırdı, çünki Pərinin hüzurunda nəfəs almağa belə qorxurdu.

Doroti zərrə qədər təəccüblənmədi. Qız bilirdi ki, Pərilər elə belə də yox olmalıdır.

## 3. Doroti Bədheybəti necə xilas etdi

Tək qalmış Doroti bərk acdığını hiss elədi. Evdəki taxçadan bir az çörək tapıb doğradı, üstünə yağ sürtüb yedi, Totoya da verdi. Sonra qız çaya qaçıb vedrədə dupduru təmiz su gətirdi. Toto ağacların arasında qaçıb quşlara hürməyə başladı. Doroti onu sakitləşdirmək üçün

yanına yüyürdü, ağaclardan biridə budaqların armudla dolu olduğunu gördü. Ən iri və sulu meyvələrdən bir neçəsini dərdi, qarnını doyurmaq üçün bundan yaxşı nə ola bilərdi.

Sonra Doroti evə qayıtdı, Totoyla birgə sərin sudan içib Zümrüd Şəhərinə getmək üçün hazırlaşmağa başladı.

Dorotinin əynindəkindən başqa daha bir paltarı vardı, yuyulub-ütülənmiş halda yatağın yanındakı qarmaqdan asılmışdı. Paltar ağ rəngdə idi, mavi damaları vardı, çox yuyulmaqdan bozarsa da, hələ də yaraşıqlıydı. Doroti əl-üzünü yuyub təmiz paltarını geydi, başına çəhrayı papaq qoydu. Kiçik zənbilə çörək qoyub üstünü təmiz ağ dəsmalla örtdü. Sonra qız köhnə çəkmələrinə baxdı.

- Qorxuram ki, bunlar uzun səyahətə dözməsinlər. – Qız Totoya dedi. İt quyruğunu buladı, Doroptinin nə dediyini başa düşmüşdü.

Doroti masanın üstündə Şərqin Zalım Pərisinin gümüş başmaqlarını gördü, köhnə çəkmələrini çıxarıb gümüş başmaqları geydi. Başmaqlar elə bil onun ayaqlarına biçilmişdi. Lap axırda zənbili götürdü.

- Hə, Toto, yolçu yolda gərək! Gedək Zümrüd Şəhərini tapaq və sehirbaz Ozdan xahiş edək ki, bizi Kanzasa göndərsin.

Doroti evin qapısını açarla bağladı, açarı cibinə qoyub yola düşdü. Toto da hoppana-hoppana qızın dalınca qaçmağa başladı.

Tezliklə Doroti gəlib dördyol ayrıcına çatdı, Zümrüd Şəhərinə hansı yolun apardığını o saat başa düşdü – yollardan biri sarı kərpiclə döşənmişdi. Gümüş dabanlar bərk yolda taqqıldayırdı. Günəş parlayır, quşlar bərkdən oxuyurdu, uzaq və yad ölkəyə düşmüş başqa qızlar bəlkə də özünü burda bədbəxt hiss edərdi, amma Doroti elə qızlardan deyildi.

Yolun hər iki tərəfində gözəl mənzərələr görünürdü. Xoş mavi rəngli səliqəli hasarların arxasında buğda tarlaları və bərəkətli bostanlar vardı. Deyəsən, Çeynəçilər yaxşı fermer idilər, onların torpaqları bol məhsul verirdi. Hansı evin qarşısından keçirdisə içəridən insanlar çıxıb qıza salam verir, ta uzaqlaşana qədər əyilib ona hörmətlə təzim edirdilər. Bütün ölkəyə xəbər yayılmışdı ki, bu balaca qız Şərqin Zalım Pərisini öldürüb və Çeynəçilər xalqını azad edib. Çeynəçilərin evləri qəribə idi, damları hündür gümbəz kimiydi, hamısı da mavi rəngdə. Deyəsən, Çeynəçilər mavi rəngi çox sevirdilər.

Axşama yaxın Doroti yoruldu, gecəni harada keçirəcəyini düşünməyə başladı, bu məqsədlə bir evə yaxınlaşdı. Bu ev başqa evlərə nisbətən bir qədər böyük idi. Evin qarşısındakı yaşıl çəmənlikdə kişilərlə qadınlar rəqs edirdi. Beş balaca kamançı şən musiqi çalırdı, böyük masa yeməklərlə doluydu – qəribə meyvələr, qozlar, piroq və tortlar.., ürəyin nə istəsə burada vardı.

Dorotini görən Çeynəçilər qızı sevinclə salamladılar, süfrəyə dəvət edib, gecəni onlarla birlikdə keçirməyi təklif etdilər. Bu ev ən zəngin Çeynəçinin eviydi, burada onun dostları toplaşmışdı, onlar Zalım Pəridən möcüzəvi şəkildə azad olmalarını bayram edirdilər.

Dorotiyə ləziz yeməklərdən verdilər. Evin sahibi Boq qıza qulluq edirdi. Yeyib qurtarandan sonra Doroti skamyada əyləşib rəqs edən qonaqlara baxırdı. Onun gümüş başmaqlarını görən Boq:

- Sən də sehirbazsan? – soruşdu.

- Niyə belə deyirsiz? – Qız təəccübləndi.

- Çünki sən Zalım Pərini öldürmüsən, ağ paltar, gümüş başmaqlar geymisən. Ağ rəng pərilərin rəngidir.

- Mənim paltarım ağdır, amma mavi damaları var, – Doroti əynindəki donun qırışlarını düzəldərək etiraz etdi.

- Yaxşı ki, paltarın mavi damalıdır, – Boq cavab verdi. – Mavi rəng Çeynəçilərin rəngidir, ağ rəng sehirbazların. Demək, sən xeyirxah pərisən, Çeynəçilərin dostusan.

Doroti bilmirdi nə desin. Bu ölkədə hər kəs onu sehirbaz hesab edirdi. Ancaq Dorotinin özü, qasırğanın yad ölkəyə atdığı adi bir qız olduğundan əmin idi.

Doroti rəqs edənlərə baxmaqdan yorulanda Boq onu evə dəvət etdi, mavi mələfəli yumşaq yataq qoyulmuş otağı göstərdi. Doroti rahat yataqda səhərəcən mışıl-mışıl yatdı, Toto da yatağın yanındakı mavi xalçanın üstündə yumurlanıb gözlərini yumdu.

Ertəsi gün Doroti yuxudan oyanıb doyunca səhər yeməyi yedi. Bu zaman Çeynəçilərin ən balaca uşağı Totoyla oynayırdı, uşaq itin quyruğunu dartıb elə məzəli gülürdü ki, Doroti özü də təbəssümünü saxlaya bilmədi. Çeynəçilər Totoya qəribə canlı kimi baxırdılar, onlar heç vaxt it görməmişdilər.

- Zümrüd Şəhəri çox uzaqdadır? – Doroti qonaqpərvər ev sahibindən soruşdu.

- Dəqiq bilmirəm, mən orda olmamışam. Əgər sehirbaz Ozla vacib işin yoxdursa, onun gözünə görünməsən yaxşıdır. Bircə onu bilirəm ki, Zümrüd Şəhərinə yol çox uzaqdır, bir neçə gün getmək lazımdır. Yol gözəl bir ölkədən keçir, lakin hərdən yolçular təhlükə və çətinliklərlə rastlaşırlar.

Bu sözlər Dorotini bir qədər narahat etdi, amma onu yalnız böyük Oz geriyə, Kanzasa qaytara bilərdi, odur ki, qız bütün çətinliklərə dözməyə hazırdı.

Doroti yeni dostlarıyla vidalaşdı və sarı kərpic yolla səyahətinə davam etdi. O, xeyli gedəndən sonra dincəlmək istədi, yolboyu uzanan alçaq çəpərin yanında oturdu. Çəpərin arxasında böyük qarğıdalı tarlası vardı, Doroti tarlada yetişmiş qarğıdalını dimdikləyən quşları qorxutmaq üçün qoyulmuş müqəvvanı gördü.

Doroti çənəsini ovuclarına dayayıb müqəvvaya xeyli baxdı. Müqəvvanı samanla dolu kisədən düzəltmişdilər, boya ilə göz, burun və ağız şəkli çəkib onu insana bənzətmişdilər. Müqəvvanın başında sivriuclu mavi papaq, əynində rəngi bozarmış və samanla doldurulmuş mavi paltar, ayaqlarında Çeynəçilərin geydiyi mavi uzunboğaz çəkmə vardı. Bu, ustalıqla düzəldilmiş Bədheybət idi.

Birdən Bədheybət boyalı gözüylə Dorotiyə göz vurdu. Doroti əvvəl elə bildi ki, onu qara basır, axı Kanzasdakı bostan müqəvvaları göz vurmurdu. Sonra Bədheybət qıza dostca baş əydi. Bunu görən Doroti çəpərdən adlayıb müqəvvaya yaxınlaşdı. Toto bərkdən hürə-hürə saman adamın ətrafında fırlanırdı.

- Salam, – Bədheybət xırıltılı səslə dedi.

- Sən danışa bilirsən? – Doroti mat qalmışdı.

- Əlbəttə. Necəsən?

- Yaxşıyam. Bəs sən necəsən?

- Belə də... – Bədheybət gülümsədi. – Bütün günü burada qalıb qarğaları qovmaq elə də xoş deyil.

- Məgər sən buradan gedə bilməzsən?

- Yox, kürəyimə taxta çubuq sancıblar. Əgər məni buradan çıxarsan sənə minnətdar olaram.

Doroti əlləriylə saman adamı bir qədər qaldırdı və asanlıqla onu çubuqdan çıxartdı. Sən demə, saman adam heç də ağır deyilmiş.

- Minnətdaram, – ayaqları torpağa dəyən kimi Bədheybət təşəkkür etdi. – Nə gözəl oldu! Elə bil təzədən doğuldum!

Doroti gözlərinə inanmırdı. Saman adam həm danışırdı, həm də təzim edib gəzirdi.

- Sən kimsən? – Bədheybət əsnəyərək soruşdu: – Və hara gedirsən?

- Adım Dorotidir, Zümrüd Şəhərinə gedirəm, böyük və müdrik sehirbaz Ozu tapmalıyam ki, məni Kanzasa qaytarsın.

- Zümrüd Şəhəri hardadır, Oz kimdir?

- Doğrudan bunları bilmirsən? – qız çaşqınlıqla sordu.

- Yox, mən heç nə bilmirəm. Gördüyün kimi, içim samandandır, başımda da beyin yoxdur.

- Zavallı!

- Səninlə Zümrüd Şəhərinə getsəm, müdrik Oz mənə bir az beyin verərmi? – Bədheybət qəfildən soruşdu.

- Bilmirəm. İstəyirsən, mənimlə gedək. Əgər Oz sənə beyin verməsə də halın bundan pis olmaz.

- Elədir, – Bədheybət razılaşdı və əlavə etdi, – Samanla dolu olsam da, narazı deyiləm. Kimsə ayağımı bassa, ya da bədənimə sancaq batırsa, heç bir ağrı duymaram. Amma istəmirəm ki, adamlar məni axmaq saysınlar. Başımda beyin əvəzinə samandırsa, dünyanı necə anlaya bilərəm?

- Səni başa düşürəm, – Doroti dedi: – Mənimlə getsən, Ozdan xahiş edərəm ki, sənə kömək etsin.

- Nə yaxşı! - Bədheybət sevindi.

Doroti Bədheybətə çəpəri aşmağa kömək etdi, onlar sarı kərpic yolla Zümrüd Şəhərinə yollandılar.

Aralarına qatılan bu yad adam ilk baxışdan Totonun xoşuna gəlməmişdi. İt müqəvvanı elə şübhəylə iyləyirdi ki, sanki samanın içində siçan yuvası vardı. Arada-bir Toto o qədər də dostca olmayan bir ifadəylə mırıldayırdı.

- Totodan qorxma, – Doroti Bədheybətə dedi, – o səni dişləməz.

- Qorxmuram, it məni dişləsə də, saman bədənim hiss etməz. İcazə ver, zənbilini aparım, axı mən heç vaxt yorulmuram. İstəyirsən, öz sirrimi sənə açım, – bir qədər yürüdükdən sonra Bədheybət dedi, – bilirsən, mən nədən qorxuram?

- Nədən qorxursan, - Doroti sordu, - səni düzəldən Çeynəçi kəndlidənmi?

- Yox, - Bədheybət cavab verdi; - yanan bir kibrit çöpündən.

## 4. Meşə yolu

Bir azdan yol əvvəlki hamarlığını itirdi, yerimək çətinləşdi. Yolda çuxurlar vardı. Toto onların üstündən atılır, Doroti isə ehtiyatla yanlarından keçirdi. Bədheybət isə, beyni olmadığına görə, birbaşa çuxurların üstünə gedir, tez-tez də tir-tap sivri kərpiclərin üstünə yıxılırdı, amma əzilmirdi. Doroti saman dostunu qaldırarkən, ilk növbədə elə Bədheybət özü öz bambılılığına gülürdü.

Bu yerlərdə fermalar yaraşıqlı deyildi. Evlər, meyvə ağacları azdı. Yolçular getdikcə, ətraf daha vahiməli, daha qaranlıq olurdu.

Günorta yolçular çayın sahilində dincəlmək istədilər. Doroti zənbildən çörək götürüb Bədheybətə verdi, o isə imtina etdi.

- Mən aclığın nə demək olduğunu bilmirəm, buna görə də özümü çox xoşbəxt sayıram – saman dost dedi, – axı ağzımı boya ilə çəkiblər, əgər üzümdə deşik açsaydılar, saman yerə tökülərdi, başım formasını itirərdi.

Doroti onun söylədiklərinin doğru olduğunu anladı və başını aşağı salıb çörəyini iştahla yeməyə başladı.

- Mənə özün haqqında, gəldiyin ölkə haqqında bir az danışsana – Bədheybət qızdan xahiş etdi. Doroti Kanzasın boz çöllərindən, qasırğanın onu uzaq ölkəyə atmasından söz açdı. Bədheybət diqqətlə qulaq asırdı, sonra dedi:

- Başa düşə bilmirəm, niyə belə gözəl ölkəni tərk edib üzüntülü, quru Kanzasa qayıtmaq istəyirsən?

- Sənin beynin yoxdur, ona görə anlamırsan, – Doroti cavab verdi, – biz, qandan-candan olan adamlar, öz ölkəmizdə yaşamaq istəyirik. İnsanın öz evi dünyada ən yaxşı yerdir.

Bədheybət köks ötürdü:

- Hə də, necə anlayım... Sizin də başınız mənimki kimi samanla dolu olsaydı, gözəl ölkələrə gedərdiz, Kanzas tamam boşalardı. Kanzasın bəxti gətirib ki, orda əsil beyinləri olan adamlar yaşayır.

- Bəlkə sən də özün haqqında danışasan? – Doroti soruşdu.

Bədheybət məyus halda qıza baxdı.

- Bilirsən də, mən hələ az yaşamışam, danışmağa bir şey yoxdur. Məni iki gün əvvəl düzəltmişdilər. Məndən əvvəl nə olub, bilmirəm. Xoşbəxtlikdən, məni düzəldən kəndli əvvəlcə qulaqlarımı çəkmişdi, mən də ətrafda baş verənləri eşitdim. Kəndli yanındakı Çeynəçidən soruşmuşdu:

- Hə, qulaqlar necədir?

Çeynəçi də demişdi:

- Əyridir.

- Eybi yox, əsas odur ki, onlar qulaqlara oxşayır.

Kəndli haqlı idi. Sonra o, sağ gözümü çəkdi, mən də maraqla ətrafa baxdım.

- Pis deyil, – kəndlinin dostu dilləndi. – Mavi rəng gözlərə yaxşı yaraşır.

- İkinci gözü bir qədər böyük çəkəcəm, – kəndli fikir içində dedi və gözü çəkib qurtarandan sonra hiss etdim ki, daha yaxşı görürəm. Sonra sahibim burnumu, ağzımı çəkdi, amma danışmadım, çünki bilmirdim, ağız nəyə gərəkdir. Mən kəndli ilə dostunun iş görməsinə maraqla baxırdım, onlar bədənimi, ayaqlarımı düzəldəndən sonra başımı birləşdirdilər. Elə həmin kəndli kimi yaraşıqlı olduğumu düşündüm, özüm özümdən qürur duydum.

- Bu oğlan bütün qarğaları qorxudacaq, – kəndli dedi; – əməlli-başlı adama oxşayır.

- Hə, əsil adamdır, – dostu təsdiqlədi. Bildim ki, o da haqlıdır. Sahibim məni qoltuğuna basıb qarğıdalı tarlasına gətirdi və taxta çubuğa taxdı. Onlar getdilər, mən isə tək qaldım.

Məni tarlada tək qoymaları heç xoşuma gəlmədi, amma neyləyə bilərdim? Ayaqlarım yerə dəymirdi, mən çubuqda qalmalı oldum. Darıxırdım, xəyala dala bilmirdim, axı mənim xatirələrim yox idi. Tarla üzərindən uçan quşlar məni görən kimi qorxub gizlənmişdilər. Bu mənə bir qədər təskinlik verdi, özümü önəmli bir adam hesab etdim. Bir az keçmiş qoca bir qarğa mənə yaxınlaşdı, diqqətlə baxandan sonra çiynimə qonub belə dedi:

- Fermer bizi belə yöndəmsiz düzəlmiş bir şeylə aldatmaq istəyir? Ağlı başında olan hər bir qarğa baxan kimi sənin adam deyil, bir müqəvva olduğunu biləcək. İçinə saman təpilmiş adi zırlama bir müqəvva. – Bu sözləri deyib qarğa sakitcə yerə qondu, ürəyi istəyən qədər qarğıdalılardan dənləməyə başladı. Başqa quşlar da mənim vecsiz olduğumu görüb uçub gəldilər. Əvvəlcə yaman məyus oldum, pis müqəvva olduğumu düşündüm, amma bir də baxdım, qarğa mənə təsəlli verir:

- Başında saman yox, beyin olsaydı, sən də adamlardan geri qalmazdın, bəlkə də onlardan daha yaxşı olardın. Bu həyatda beyin insana da, qarğaya da gərəkli olan ən önəmli şeydir.

Qarğalar uçub getdikdən sonra mən var gücümlə fikirləşməyə başladım, nəyin bahasına olursa olsun, beyin əldə etməyə qərar verdim. Xoşbəxtlikdən, sən məni çubuqdan çıxartdın. İndi Zümrüd Şəhərinə gedirəm, bəlkə müdrik Oz mənə beyin verər.

- Umudum var, verər – Doroti söylədi; – Beyin sənə bu qədər çox lazımdırsa, onda Oz səni rədd etməz.

- Əlbəttə! Axı beyinsiz axmaq olduğunu bilmək çox pisdir!

Artıq çəpərlənmiş tarlalar geridə qalmışdı. Yolun hər iki tərəfində uzanan torpaq şumlanmamışdı. Axşam yolçular qalın bir meşəyə çatdılar, burada ağacların budaqları kərpic yolun üzərində biri-birlərinə sarılmışdı. Yerə işıq düşmürdü, getmək çətindi, lakin Doroti və Bədheybət dayanmadan yürüyürdülər.

- Əgər yol bizi meşəyə gətiribsə, deməli, gec-tez bizi meşədən çıxaracaq! – Bədheybət müdrikcəsinə dedi: – Yolun qurtardığı yerdə Zümrüd Şəhəri yerləşirsə, deməli, bu yolla axıra qədər getməliyik.

- Bunu bilməyə nə var! – Doroti dedi.

- Hə də, bunu bilmək asan olduğuna görə mən də yalnız bunu deyə bilirəm, – dedi Bədheybət; – Bunu bilməkdən ötrü beyin lazım olsaydı yəqin ki mən bunu deyə bilməzdim.

Təxminən bir saatdan sonra hava tamam qaraldı, amma yolçular yollarından qalmadılar. Doroti heç nə görmürdü, ancaq bəzi itlər qaranlıqda çox yaxşı görə bildiyinə görə

Toto ətrafını seçə bilirdi; Bədheybət də gündüz olduğu kimi yaxşı gördüyünü söylədi. Qız Bədheybətin qoluna girib çətinliklə irəliləyirdi.

- Bir ev görsən, de, qaranlıqda yol getməkdənsə, evdə gecələmək yaxşıdır, – Doroti dedi.

Bir az gedəndən sonra Bədheybət dayandı və qışqırdı:

- Sağda bir ev görürəm! Budaqlarla örtülmüş daxma! Bəlkə, ora gedək?

- Hə, – qız razılaşdı. – Yaman yorulmuşam.

Bədheybət Dorotini ağaclar arasında görünməz olan daxmaya apardı. Onlar içəri girəndə, küncdə quru yarpaqlardan hazırlanmış yataq gördülər. Doroti uzanan kimi yuxuya getdi. Toto onun yanında özünə yer tapdı. Bədheybət bilmirdi yorğunluq nədir, ona görə o biri kuncdə dayanıb səhərin açılmasını gözlədi.

## 5. Dəmir Odunçunun qurtarılması

Doroti yuxudan oyananda, günəş çıxmışdı, Toto meşədə quşları qovurdu. Bədheybət hələ də küncdə dayanmışdı.

- Gərək su tapaq, – Doroti dedi.

- Suyu neynirsən?

- Əl-üzümü yuyacam, su içəcəm, yoxsa quru çörək boğazımdan getmir.

- Qandan-candan olan adamların həyatı nə qədər çətindir! – Bədheybət fikir içində dedi; – Yatmaq lazımdır, yemək, içmək lazımdır! Əvəzindəsə insanların beyni var və onlar düşünə bilirlər.

Onlar komadan çıxıb dupduru bir bulaq tapdılar. Doroti əl-üzünü yudu, su içdi, zənbildə yalnız bir günlük yemək qalmışdı, Totoyla birlikdə çörəkdən bir tikə yedilər. Qız sevinirdi ki, Bədheybət heç nə yemir, yoxsa azuqə tez qurtarardı.

Yeyib qurtarandan sonra yola davam etmək olardı. Doroti birdən diksindi: yaxınlıqdan inilti səsi gəlirdi.

- O nə səsdir elə? – Doroti ürkək səslə Bədheybətdən soruşdu.

- Bilmirəm. İstəsən, gedib baxaram.

Yenə inilti səsi eşidildi. Doroti və Bədheybət səsə tərəf getdilər, bir-iki addım atmamış, Doroti gördü ki, ağacların arasında nəsə parıldayır. Qız ora qaçdı və qorxu içində qışqırdı:

- Ayy, bu nədir?

Hündür ağaclardan biri baltalanmışdı, ağacın yanında başdan ayağa qədər dəmirdən olan bir adam vardı. O, əlində balta tutmuşdu. Adamın əli-ayağı olsa da tərpənə bilmirdi.

Doroti və Bədheybət qəribə odunçuya baxdılar, Toto hirslə hürdü, odunçunun dəmir ayağını dişləmək istədi, az qaldı dişləri qırılsın.

- İnildəyən sənmiydin? – Doroti Dəmir Odunçudan soruşdu.

- Hə, – Odunçu cavab verdi; – Bir ildir ki, burda dayanıb köməyə çağırıram, amma heç kim eşitmir.

- Sənə necə kömək edə bilərəm? – Qız soruşdu. Onun Odunçuya yazığı gəlmişdi.

- Yağqabını götür, oynaqlarımı yaxşı-yaxşı yağla. Onlar elə pas atıb ki, əl-ayağımı tərpədə bilmirəm. Məni yaxşı yağlasalar, hər şey yenə qaydasında olar. Yağqabı daxmadakı taxçadadır.

Doroti daxmaya qaçıb yağqabını gətirdi.

- Harana sürtüm? – Doroti soruşdu.

- Əvvəlcə boynumu yağla, – Odunçu dedi.

Doroti elə də etdi. Odunçunun boynu elə paslanmışdı ki, Odunçuya rahat olsun deyə Bədheybət onun başını bir xeyli sağa-sola döndərdi.

- İndi qollarımı yağla, – Odunçu dedi.

Doroti Odunçunun qollarındakı kürə oynaqları yağladı, Bədheybət ona kömək edir, pası tamam tökülsün deyə yağlanmış qolları qaldırıb endirirdi.

Dəmir Odunçu rahatlıqla nəfəs alıb əlindəki baltanı endirdi.

- Nə böyük xoşbəxtlik! – dedi; – Bir ildir burda qalmışdım. Nəhayət baltanı endirə bildim. İndisə, ayaq oynaqlarımı yağlasaz lap əla olar.

Doroti ilə Bədheybət Odunçunun xahişini yerinə yetirdilər və o yenidən gəzməyə, hərəkət etməyə başladı. Odunçu xilaskarlarına dönə-dönə sağol dedi, həddən artıq nəzakətli bir Dəmir Oduncuydu.

- Siz olmasaydız, mən tamam pas atıb dağılacaqdım. Siz məni xilas etdiz. Bura necə gəlib çıxmısız? – Odunçu soruşdu.

- Biz böyük Ozun yanına, Zümrüd Şəhərinə gedirik, – Doroti cavab verdi; – sənin daxmanda gecələmişdik.

- Oz nəyinizə lazımdır?

- İstəyirəm məni Kanzasa qaytarsın, Bədheybətə də bir az beyin versin, – Doroti dedi.

Dəmir Odunçu bir anlıq fikrə getdi, sonra soruşdu:

- Necə bilirsiz, Oz mənə ürək verə bilər?

- Niyə də verməsin, – Doroti dedi; – bu, Bədheybətə beyin verməkdən çətin olmaz.

- Etiraz etməsəniz, mən də sizinlə gedib Ozdan ürək istəyərəm.

- Gedək, – Bədheybət razılaşdı. Doroti də yeni yol yoldaşı tapdıqlarına çox sevindiyini söylədi. Dəmir Odunçu baltasını çiyninə atdı, üç yolçu sarı kərpic yolla yoluna davam etdi, lakin əvvəlcə Dəmir Odunçu Dorotidən xahiş etmişdi ki, yağqabını zənbilinə qoysun.

- Yağışa düşsəm, yenə paslanaram, onda yağqabı köməyimə gələr, – Odunçu qıza başa saldı.

Yaxşı ki, Dəmir Odunçu onlara yoldaşlıq edirdi, çünki bir azdan meşə elə qalınlaşdı ki, yolu keçmək olmurdu. Dəmir Odunçu baltasını işə salıb yolçulara yol açırdı.

Yolda Doroti fikrə getdiyindən, Bədheybətin yenə də yıxıldığını görmədi. Müqəvva yolun kənarındakı xəndəyə düşmüşdü. Dorotinin diqqətini cəlb etmək üçün Bədheybət qışqırdı.

- Niyə xəndəyin kənarından keçmədin? – Dəmir Odunçu təəccüblə soruşdu.

- Çünki ağlım yoxdur, – Bədheybət cavab verdi; - Axı başımda beyin yoxdur, samandır, buna görə Zümrüd Şəhərinə, böyük Ozun yanına gedirəm də.

- Başa düşürəm, – Dəmir Odunçu dedi; – amma həyatda beyin əsas deyil.

- Sənin beynin var? – Bədheybət Dəmir Odunçudan soruşdu.

- Yox, başım boşdur. Nə vaxtsa mənim beynim də vardı, ürəyim də, amma indi seçməli olsaydım, ürəyə üstünlük verərdim.

- Elə niyə?

- İndi özüm haqqında danışaram, hər şeyi anlayarsız.

Meşəylə gedə-gedə Dəmir Odunçu öz əhvalatını danışdı:

- Atam odunçu idi, ağac yarıb odun doğrayar, satıb qazandığı pulla dolanardı. Böyüdüm, mən də odunçu oldum. Sonra atam, anam vəfat etdi, tək qaldım. Elə tənha idim ki... Evlənmək qərarına gəldim. Bir gözəl Çeynəçi qıza aşiq olmuşdum, qız mənimlə evlənmək istəyirdi, amma bir şərti var idi; gərək mən daha yaxşı bir ev tikməyə yetəcək qədər pul qazanaydım. Beləcə mən hər zamankından daha çox işləməyə başladım. Qız qoca xalasıyla yaşayırdı, bütün ev işlərini görürdü, xala o qədər tənbəl idi ki, qızın kiminləsə evlənib ərə getməsini istəmirdi. O, evlənməyə mane olmaq üçün Şərqin Zalım Pərisinin yanına getdi, ona iki qoyun və bir inək bağışlayıb xahiş etdi ki, bizi evlənməyə qoymasın. Pəri baltamı ovsunladı. Bir gün mən odun yaranda, balta əlimdən çıxdı, sol ayağımı kəsdi.
Çox kədərləndim. Bilirdim ki, birayaqlı odunçu olmur. Tanış dəmirçi mənə dəmir ayaq düzəltdi, mən dəmir ayağıma tezliklə öyrəşdim. Bunu eşidən Zalım Pəri çox qəzəblənmişdi. Mən yenə də meşədə odun yaranda, balta yenə əlimdən çıxıb, bu dəfə sağ ayağımı kəsdi. Heç qorxmadım, dəmirçinin yanına gedib yenə də dəmir ayaq düzəltdirdim. Bundan sonra balta mənim qollarımı kəsdi, dəmirçi yenə mənə kömək etdi. Balta başımı kəsəndə, elə bildim ki, hər şey bitdi, amma mahir dəmirçi mənə dəmir baş düzəltməyi başardı. Elə bilirdim Zalım Pəriyə qalib gəlmişəm, amma o, daha xain çıxdı. Pəri baltanı elə ovsunladı ki, balta mənim bədənimi iki yerə böldü. Dəmirçi dostum yenə də mənə kömək elədi. Mənim bədənim, başım, əl-ayaqlarım dəmirdən idi,

mən yenə gəzə bilirdim, odun yarırdım. Amma heyif ki, artıq ürəyim yox idi, buna görə qıza olan sevgim də yoxa çıxmışdı. Mənə elə gəlir ki, sevgilim hələ də məni gözləyir. Dəmir bədənim günəşin altında par-par yanırdı. Mən baltadan qorxmurdum, axı kəsilməli bir şeyim qalmamışdı. Amma bir təhlükə daha vardı, dəmir əzalar pas ata bilərdi. Mən yağqabı aldım, hərdən bir əl-ayaqlarımı, boynumu yağlayırdım. Bir gün bunu etməyi unutdum və bərk yağışa düşdüm. Oynaqlarım pas atdı, mən tərpənməz halda meşədə ilişib qaldım, nəhayət baxın, siz məni xilas etdiniz. Tale mənə böyük zərbə vurmuşdu, mən meşədə qalanda bu haqda çox fikirləşirdim, başa düşdüm ki, bu həyatda ən dəhşətli şey ürəksiz qalmaqdır. Sevəndə, dünyanın ən xoşbəxt adamı idim, lakin elə ki ürəksiz qaldım, baxıb gördüm ki, artıq sevə bilmirəm. Ona görə istəyirəm böyük Oz mənə ürək versin, mən də qayıdıb Çeynəçi sevgilimlə evlənim.

Doroti və Bədheybət diqqətlə Dəmir Odunçunun əhvalatına qulaq asırdılar, onun halına acıyaraq nə üçün ürək istədiyini başa düşdülər.

- Hər halda, – Bədheybət dedi, – mən beyin seçərdim. Beyinsiz axmaq bir adamın qəlbi olsa da onunla nə edəcəyini bilməz.

- Yox, ürək yaxşıdır, – Dəmir Odunçu fikrindən dönmürdü; – beyin insanı xoşbəxt etmir, dünyada xoşbəxtlikdən yaxşı isə heç nə yoxdur.

Doroti bir söz demədi, çünki hansı dostunun haqlı olduğunu bilmirdi. Qızcığazın fikirləri qarışmışdı, ən əsası Em xalanın yanına, Kanzasa qayıtmaq olduğuna ürəyində qərar vermişdi, ondan sonra Dəmir Odunçunun qəlbinin və Bədheybətin beyninin olmamasının onunçün bir önəmi qalmayacaqdı.

Onu daha çox narahat edən çörəyinin bitmək üzərə olmasıydı, özü və Toto cəmi bir dəfə nahar etsəydilər səbət tamam boşalacaqdı. Bədheybət və Dəmir Odunçu acmırdı, amma Doroti samandan, dəmirdən deyildi və yeməksiz qala bilmirdi.

## 6. Qorxaq Aslan

Bütün bu vaxt ərzində yolçular qalın meşənin içərisindən keçən yolla addımladılar. Yol əvvəlki kimi sarı kərpiclə döşənmişdi, lakin kərpiclər qurumuş budaqların və tökülmüş yarpaqların altında demək olar ki, görünməz olmuşdu. Çox asanlıqla yolu itirə bilərdilər.

Meşənin bu hissəsində quşlar demək olar ki gözə dəymirdi. Quşlar günəşin bol olduğu balaca meşə talalarını sevirlər. Arada-bir meşənin dərinliklərindən vahiməli nəriltilər eşidilirdi. Bu qorxunc səslərdən Dorotinin ürəyi titrəməyə başlamışdı, çünki o, meşənin qaranlıqlarında hansı qorxunc yırtıcıların gizləndiyindən xəbərsiz idi. Ancaq Toto, deyəsən, nələrin baş verdiyini anlamışdı, yol boyunca Dorotinin ayaqlarına qısılır, hürməyə cəsarət etmirdi.

- Meşə tez qurtaracaq? – Qız Dəmir Odunçudan soruşdu.

- Bilmirəm, mən heç vaxt bu yolla getməmişəm, Zümrüd Şəhərində də olmamışam. Düzdür, atam orada olub, amma mən o zamanlar çox kiçikdim, atam deyirdi ki, Zümrüd Şəhərinə yol çox uzaq və çətindir, amma Zümrüd Şəhərinin yaxınlığında gözəl yerlər var. Əlimin altında yağqabı olarsa, təhlükələrdən qorxmaram. Bədheybət də qorxunun nə olduğunu bilməz, sənin alnında isə Xeyirxah Pəri öpücüyünün izi var.

- Bəs Totonu kim müdafiə edəcək? – Doroti narahat oldu.

- Başına bir iş gəlsə, hamımız Totoya kömək edəcəyik, – Dəmir Odunçu Dorotini sakitləşdirdi.

Bunu deməyə macal tapmamış, meşədən yenə də qorxunc bir nərilti eşidildi və yolun ortasında nəhəng bir aslan peyda oldu. Aslan qorxulu pəncəsinin bir zərbəsiylə Bədheybəti kolların dibinə atdı, sonra kəskin dırnaqlarıyla Dəmir Odunçunun üzərinə atıldı. Odunçu yerə yıxılsa da, sağ qalmışdı, pəncələrinin heç təsiri olmaması aslanı yaman təəccübləndirdi.

Düşməni görən Toto onun üstünə cumdu, aslan ağzını genuş açdı ki, Totonu dişləsin, bu an Doroti hər şeyi unudaraq, sədaqətli dostunu müdafiə etmək üçün nəhəng yırtıcının burnuna yumruqla vurdu və qışqırdı:

- Totoya dəymə! Utanmırsan, belə böyüksən, amma balaca itin üstünə cumursan!

- Mən onu dişləmədim ki, – günahkar Aslan pəncəsiylə burnunu sürtdü.

- Sən onu dişləmək istəyirdin, – Doroti təkid etdi; – Sən qorxaqsan!
- Döğrudur, – Aslan başını yelləyərək boynuna aldı, – mən bunu bilirəm. Amma çarəsini tapa bilmirəm, neynim?
- Bilmirəm, – Doroti cavab verdi; – İndi de görüm, samanla dolu bədbəxt Bədheybəti niyə vurdun?
- O samanla doludur? – Aslan təəccübləndi. Doroti Bədheybəti qaldırdı, bədəninə lazımi formanı verməkdən ötrü əliylə çırpışdırdı.
- Əlbəttə, – Doroti narazı halda mızıldadı.
- Həə..., indi bildim niyə o, belə uzağa uçdu! – Aslan dedi; – Mən də deyirəm görəsən niyə belə oldu. İkincisi də samanla doldurulub?
- Yox, o, dəmirdəndir, – Doroti Dəmir Odunçuya ayağa qalxmasına kömək etdi.
- Hə, az qala caynaqlarım sınacaqdı! – Aslan başa düşdü; – Caynaqlarım dəmirə sürtülüb elə səs çıxartdı ki, ətim ürpəşdi. Sənin bu qədər sevdiyin o balaca canlı kimdir?
- İtim Totodur.
- O da samanla doludur, yoxsa dəmirdəndir? – Aslan soruşdu.
- Yox, o ətdən-qandandı.
- Nə məzəli heyvandır, özü də bapbalaca! Mənim kimi qorxaq bu körpəyə pəncəsini necə qaldıra bilərdi... – Aslan kədərli halda mızıldadı, başını aşağı salladı.
- Niyə bu qədər qorxaqsan? – Doroti orta boylu at böyüklükdə olan Aslandan soruşdu.
- Bu böyük sirdir, – Aslan cavab verdi; – Mən belə doğulmuşam. Bütün meşə heyvanları elə bilirlər ki, mən mərd və əzaziləm, axı aslan heyvanların şahıdır. Duymuşam ki, ucadan nərə çəkəndə, hamı qaçıb gizlənir. Mən meşədə insan görəndə, çox qorxuram, amma elə bağırıram ki, onlar qaçıb getsinlər. Fil, pələng, ya da ayı mənimlə əlbəyaxa olsaydı, özüm qaçıb canımı qurtarmalı olardım, bax, mən belə qorxağam! Amma nərəmi eşidən hər kəs yolumdan qaçır, mən də buna imkan yaradıram.
- Axı bu düzgün deyil. Heyvanların şahı qorxaq ola bilməz! – Bədheybət dedi.
- Razıyam, – Aslan cavab verdi və yanağına yuvarlanmış göz yaşını sildi; – Bu məni çox incidir. Bu həyat deyil, əsil işgəncədir! Xırda təhlükə yaranan kimi ürəyim az qalır köksümdən çıxsın!
- Bəlkə səndə ürək xəstəliyi var? – Dəmir Odunçu soruşdu.
- Bəlkə də, – Qorxaq Aslan cavab verdi.
- Əgər belədirsə, – Odunçu sözünə davam etdi, – sən sevinməlisən, demək, sənin ürəyin var. Mənimsə ürəyim yoxdur, deməli, ürək xəstəliyim ola bilməz.
- Bəlkə ürəyim olmasaydı, qorxaq olmazdım, – Qorxaq Aslan fikir içində dedi.
- Bəs beynin var? – Bədheybət soruşdu.
- Yəqin var, mən onu görməmişəm, – Qorxaq Aclan dedi.
Bədheybət bildirdi:
- Zümrüd Şəhərinə, müdrik Ozun yanına gedirəm ki, ondan bir az beyin istəyim, yoxsa başım samanla doludur.
- Mən də Ozdan ürək istəyəcəm, – Dəmir Odunçu dedi.
- Mən də istəyirəm ki, Oz Totoyla məni evə, Kanzasa göndərsin, – Doroti söylədi.
- Necə bilirsiz, Oz mənə bir az cəsarət verər? – Aslan ümidlə soruşdu.
- Verər. Bu onun üçün mənə beyin verməkdən çətin deyil, – Bədheybət cavab verdi.
- Mənə isə ürək verməkdən, – Odunçu dedi.
- Ya da məni Kanzasa göndərməkdən, – Doroti də yekunlaşdırdı.
- Onda, əgər etiraz etmirsizsə, mən də sizinlə gedərəm, – Aslan qərara aldı, – yoxsa qorxaq həyat yaşamaq zəhləmi töküb.
- Bizimlə getsən, sevinərik, – Doroti söylədi; – Yolda yırtıcı heyvanları qovarsan. Məncə, onlar səndən də qorxaqdır.
- Yəqin, – Aslan razılaşdı, – heyif ki, bu məni cəsarətli etmir. Qorxaq olduğumu özüm bildiyim üçün həyatda bədbəxtəm.

Kiçik dəstə yenə yola düzəldi. Aslan təkəbbürlə Dorotinin yanıyca addımlayırdı. Əvvəlcə Toto yeni yoldaşı bəyənmədi, o, nəhəng aslan pəncəsinin zərbəsini hələ unutmamışdı, lakin tezliklə Totonun həyəcanı yatdı bir az keçəndən sonra isə itlə aslan ayrılmaz dost oldular.

Həmin gün dostların başına bir əhvalat gəlmədi, yalnız Dəmir Odunçu bir böcəyi ayaqlayıb əzdi. Böcək sarı kərpic yoldan keçmək istəyirdi. Bu hadisə Odunçunu elə məyus etdi ki, o ağlamağa başladı, çünki Odunçu canlılara ziyan vurmaqdan çəkinirdi. Göz yaşları Odunçunun sifətinə axdı, çənəsi paslandı. Doroti Odunçudan nəsə soruşanda, Odunçu ağzını aça bilmədi. Bunu görən Odunçu bərk qorxdu, əl-qoluyla qıza işarə etdi, ancaq Doroti heç nə anlamadı. Aslan da çaş-baş qalmışdı, Bədheybət Dorotinin zənbilindən yağqabını çıxarıb Odunçunun çənəsini yağladı, bir müddət keçəndən sonra Odunçu artıq ağzını açıb danışa bilirdi.

- Mənə yaxşı dərs oldu! – Odunçu dedi; – Həmişə ayağımın altına baxmalıyam. Ehtiyatsız olub bir də kimisə əzsəm, yenə ağlayaram, yenə də çənəm pas atar, danışa bilmərəm.

Bundan sonra Odunçu bütün yolu ayaqlarının altına baxırdı, qarışqa görəndə, ehtiyatla onun üstündən keçirdi. Dəmir Odunçu ürəyinin olmadığını bilirdi, ona görə də daha diqqətli davranırdı.

- İnsanların ürəyi var, – Odunçu dedi, – onlar ürəklərinin səsini dinləyib nə lazımsa onu edirlər. Mənimsə ürəyim yoxdur, ona görə daim diqqətli olmalıyam. Yalnız böyük müdrik Oz mənə ürək verəndən sonra bir qədər rahat ola bilərəm.

## 7. Yoldakı çətinliklər

Ətrafda daha heç bir ev olmadığına görə yolçular açıq havada, böyük qol-budaqlı bir ağacın altında gecələmək qərarına gəldilər. Ağacın şaxəli budaqları dam kimi dostların başı üstündə yüksəlirdi. Dəmir Odunçu odun yardı, Doroti böyük tonqal qaladı, isindi və ürəyini sıxan narahatlığı unutdu. Qız Totoyla birgə sonuncu çörək tikəsini yemişdi, indi səhər yeməyinə nə yeyəcəklərini bilmirdi.

- İstəyirsən, – Aslan təklif etdi, – meşəyə qaçıb səninçün bir maral ovlaya bilərəm. Siz insanlar çiy ət yeyə bilmirsiz, ancaq onu tonqalda bişirmək olar, əla yeməkdi!

- Olmaz! Xahiş edirəm, bunu etmə! – Dəmir Odunçu yalvardı; – Maralı öldürsən, hönkür-hönkür elə ağlaram ki, çənəm qalın pas qatıyla örtülər.

Lakin Aslan meşəyə qaçdı və yeməyə nəsə tapdı. Nə tapdığını heç kim bilmirdi, Aslan özü də bunu gizli saxlayırdı. Bədheybət bir qoz ağacı tapıb Dorotinin səbətini doldurdu. Qız Bədheybətin qayğıkeşliyindən razı qalmışdı, amma dostu qozları elə məzəli yığırdı ki, Doroti gülməyini saxlaya bilmirdi. Qozlar balaca, Bədheybətin saman dolu barmaqları elə kobud idi ki, qozların çoxu yerə tökülürdü. Qoz yığımı imkan vermişdi ki, Bədheybət tonqaldan uzaqlaşsın, çünki o, təsadüfi qığılcımdan yanıb kül ola bilərdi.

Tonqal sönəndən sonra Bədheybət Dorotinin üstünü quru yarpaqlarla örtdü. Qız səhərə qədər mışıl-mışıl yatdı. Səhər Doroti çayda üzünü yudu, sonra dostlar Zümrüd Şəhərinə yollandılar.

Həmin gün macəralarla doluydu. Bir saat keçməmiş, yolçular yolu kəsərək meşəyə doğru uzanan dərin bir xəndəyə yaxınlaşdılar. Xəndək həm enli idi, həm də dərin. Dostlar xəndəyin dibinə baxanda orda çoxlu itiuclu daşların olduğunu gördülər. Xəndəyin kənarları elə dik idi ki, aşağı enib o biri tərəfinə keçmək mümkün olmazdı. Dostlardan kimsə ağzından qaçırtdı, səyahət burada bitməlidir dedi.

- İndi biz neyləyək? – Doroti həyəcanla soruşdu.

- Bilmirəm, – Dəmir Odunçu kədərlə cavab verdi, Aslan isə pırpız başını yellədi. Bədheybət dedi:

- Biz xəndəyin üstündən qanad açıb uça bilmərik. Xəndəyin dibinə də enə bilmərik. Əgər o biri tərəfə tullana bilmiriksə, deməli, burda qalmalıyıq.

- Mən tullana bilərəm, – Aslan gözləriylə məsafəni ölçüb dedi.

- Onda hər şey qaydasındadır, – Bədheybət sevindi; – Sən bir-bir bizi o biri tərəfə keçirərsən.

- Elə isə onda birinci kimi keçirim? – Aslan soruşdu.

- Məni! – Bədheybət cavab verdi; – Tullana bilməsən, Doroti daşların üstünə yıxılıb ölə bilər, Dəmir Odunçu isə əzilər, ancaq mənə heç nə olmaz, çünki mənimçün əzilmək təhlükəsi yoxdur.

- Mən özüm də, doğrusu, yıxılmaqdan bir az qorxuram, – Qorxaq Aslan dedi; – amma neyləməli, min belimə görüm, gəl tullanaq.

Bədheybət Qorxaq Aslanın belinə mindi, Aslan xəndəyin kənarına yaxınlaşıb bir az çömbəldi. Bədheybət dedi:

- Bəlkə qaçaraq tullanasan?

- Biz, aslanlar, belə etmirik. – Qorxaq Aslan cavab verdi və nəhəng yay kimi açılıb xəndəyin üstündən o biri tərəfə uçdu. Hamı bu uğuru səs-küylə qarşıladı. Bədheybət Aslanın belindən düşdü. Aslan təzədən geriyə, Dorotinin yanına tullandı. Qız Totonu qucağına götürdü, bir əliylə aslanın yalından yapışdı. Quş kimi uçduğunu hələ anlamamış Doroti artıq xəndəyin o biri tərəfində, Bədheybətin yanındaydı. Sonra növbə Dəmir Odunçuya çatdı. Aslan üçüncü dəfə tullanaraq Odunçunu dostlarının yanına gətirdi. Ancaq Aslan yamanca yorulmuşdu, toyuq qovalayan yekə itlər kimi dilini çıxarıb ağır-ağır nəfəs alır, töşküyürdü.

Xəndəyin bu tərəfində də meşə qalın və keçilməz idi. Bir qədər istirahət etdikdən sonra yolçular sarı kərpicli çığırla yollarına davam etdilər. Hamı susmuşdu, tezliklə qalın meşənin qurtaracağına və günəşin yenidən görünəcəyinə ümid edirdilər. Meşə dərinliyindən qəribə səslər eşidilirdi, Aslan pıçıltıyla, buralarda Kalidasların olduğunu söylədi.

- Kalidaslar kimdir? – Doroti soruşdu.

- Onlar qorxulu heyvanlardır. Bədənləri ayı bədəni, başları pələng başıdır, – Aslan izah etdi; – Dişləri elə uzun və itidir ki, mən Totonu asanlıqla parçalayacağım kimi onlar da məni asanlıqla parçalaya bilərlər. Mən Kalidaslardan yaman qorxuram.

- Nə üçün qorxduğunu başa düşürəm, – Doroti dedi, – demək ki, onlar çox əcaib varlıqlardır!

Aslan nəsə demək istədi, amma dostlar artıq başqa bir xəndəyə yaxınlaşmışdılar. Xəndək elə enli idi ki, Aslan bu dəfə tullana bilməyəcəyini başa düşdü.

Yolçular bir qədər məsləhətləşdilər. Uzun mübahisə və fikirdən sonra Bədheybət təklif etdi:

- Xəndəyin kənarında hündür ağac bitir. Odunçu onu yarıb xəndəyin üstünə körpü kimi salsa, biz o biri tərəfə keçə bilərik!

- Əla fikirdir! – Aslan dedi; – Mənə elə gəlir ki, sənin başındakı saman deyil, əsil beyindir.

Odunçu işə başladı. Baltası çox iti idi, tez bir zamanda ağacı kəsdi. Aslan güclü pəncələriylə ağacı itələyib xəndəyin üstünə saldı. Yolçular bu əcaib körpünün üstündən keçməyə hazırlaşırdılar ki, birdən nərilti eşitdilər. Onlara tərəf iki qəribə canlının qaçmaqda olduğunu gördülər. Canlılar həm ayıya oxşayırdı, həm də pələngə.

- Bu Kalidaslardır! – Qorxaq Aslan qışqırdı və əsim-əsim əsməyə başladı.

- Tez olun, o biri tərəfə qaçın! – Bədheybət əmr etdi.

Dostlar bir-birinin ardınca tələsik xəndəyin o biri tərəfinə qaçdılar. Qorxaq Aslan Kalidaslara tərəf dönüb elə nərə çəkdi ki, Doroti qışqırdı, Bədheybət yıxıldı, Kalidaslar isə təəccüb içində donub qaldılar. Bir azdan onlar başa düşdülər ki, Aslandan iridirlər və sayca çoxdular. Kalidaslar irəli cumdular. Aslan körpünün üstüylə qaçıb xəndəyin o biri tərəfinə keçdi, gördü ki, Kalidaslar onun arxasınca qaçır. Qorxaq Aslan Dorotiyə dedi:

- Məhv olduq! Onlar bizi tikə-tikə edəcək! Mənim arxamda gizlən. Mən son nəfəsimə qədər onlarla döyüşəcəm.

- Dayanın! – Bədheybətin ağlına bir fikir gəldi. O, Dəmir Odunçuya əmr etdi ki, ağacın ucunu baltalasın. Dəmir Odunçu belə də etdi. Kalidaslar artıq körpünün ortasına qədər gələ bilmişdilər, birdən körpü dəhşətli şaqqıltıyla xəndəyin dibinə düşdü. Kalidaslar sivri daşlara çırpılıb öldülər.

- Off! – Aslan rahat nəfəs aldı; – Yaşamaq nə yaxşı şeydir! Bu heyvanlar məni elə qorxutdular ki, hələ də ürəyim əsir.

- Eh, mən də ürəyimin əsməsini elə istəyirəm ki... – Dəmir Odunçu ah çəkdi.

Bu hadisədən sonra yolçular meşədən daha tez çıxmağa can atdılar. Onlar elə sürətlə addımlayırdılar ki, Doroti yoruldu və Aslanın belinə mindi. Xoşbəxtlikdən meşə tezliklə seyrəldi və yolçular sürətlə axan geniş bir çaya çatdılar. O biri sahildə gözəl mənzərə, əlvan gül-çiçəklə dolu yaşıl çəmənlər, meyvələrlə dolu ağaclar görünürdü. Yolçular o biri sahilə keçmək istədilər.

- Çayı necə keçək? – Doroti soruşdu.

- Bundan asan iş yoxdur, – Bədheybət dedi; – Dəmir Odunçu bir sal düzəldər, üstünə minib o biri tərəfə keçərik.

Dəmir Odunçu baltasını işə saldı. Bədheybət isə boş dayanmadı, sahildə bir gavalı ağacı tapıb meyvələrdən Dorotiyə gətirdi. Doroti sevindi, bütün günü qoz yemək zəhləsini tökmüşdü, ona görə də həvəslə, yetişmiş şirin gavalıları yeməyə başladı.

Sal düzəltmək üçün xeyli vaxt lazım olur, Dəmir Odunçu baltasını əlindən qoymadan axşama qədər işləsə də, sal hələ hazır deyildi. Yolçular ağacların altında rahat yer tapıb gecələdilər. Doroti yuxuda Zümrüd Şəhərini, sehirbaz Ozu gördü. Gördü ki, Oz onu Kanzasa qaytarır.

## 8. Təhlükəli lalə çəmənliyi

Səhər açılanda yolçular yeni güc toplamışdılar, yeni ümidlərlə oyanmışdılar. Doroti çay sahilində bitən şəftəli və əncirlərdən toplayıb prenseslərə yaraşan bir səhər yeməyi yedi. Onlara bir çox çətin anlar yaşadan qalın meşə arxada qalmışdı, qarşıda isə Zümrüd Şəhərinə qədər uzanan gözəl, günəşli bir ərazi uzanmaqdadydı. Düzdür, həmin yerlərə çatmaq üçün əvvəlcə çayı keçmək lazım idi. Ancaq sal demək olar, artıq hazır idi, Dəmir Odunçu bir neçə tir daha kəsib onları taxta çivlərlə bir-birinə birləşdirəndən sonra üzməyə başladılar. Doroti və Toto salın ortasında yer tutdular. Qorxaq Aslan sala pəncəsini qoyan kimi sal əyildi, çünki Aslan iri və ağır heyvan idi. Dəmir Odunçu ilə Bədheybət tez salın o biri tərəfinə atıldılar ki, sal aşmasın. Yolçular əllərindəki uzun çubuqlarla salı itələməyə başladılar. Əvvəlcə sal rahat üzürdü, amma çayın ortasına çatanda, güclü axın salı sarı kərpic yoldan uzaqlaşdırdı. Getdikcə çay dərinləşirdi, çubuqlar çayın dibinə çatmırdı.

- Çox pis oldu! – Dəmir Odunçu dilləndi; – Belə getsə, çay bizi Qərbin Zalım Pərisinin torpaqlarına aparacaq. Pəri bizi ovsunlayıb özünə kölə edəcək.

- O zaman mən beyin ala bilməyəcəm – Bədheybət kədərləndi.

- Mən isə cəsarət almaqdan məhrum olacam – Qorxaq Aslan dedi.

- Mən də ürəksiz qalacam – Dəmir Odunçu ah çəkdi.

- Mən də heç vaxt, heç vaxt Kanzasa qayıda bilməyəcəm, – dedi Doroti.

- Biz Zümrüd Şəhərinə hökmən getməliyik! – Bədheybət davam edərək bildirdi, əlindəki çubuğu çayın palçıqlı dibinə elə qüvvəylə sancdı ki, çubuq ilişdi, Bədheybət onu çıxarmağa macal tapmamış sal üzüb getdi, Bədheybət çubuqda asılı qaldı.

- Əlvida, dostlar! – O, salın arxasınca qışqırdı, dostları onu çayın ortasında görüb çox heyifsiləndilər, Dəmir Odunçu az qaldı ağlasın, sonra xatırladı ki, pas ata bilər, göz yaşlarını Dorotinin önlüyü ilə sildi.

Bədheybətin vəziyyəti pis idi. “İndi vəziyyətim əvvəlkindən lap pisdir, – Bədheybət düşünürdü, – əvvəllər mən qarğıdalı tarlasında qalmışdım və özümü elə göstərə bilərdim ki, guya işləyirəm, qarğaları qovuram. Amma indi, çayın ortasında məndən nə xeyir var? Mən, deyəsən, elə beyinsiz qalacam”.

Sal çay ilə üzüb elə hey uzaqlaşırdı. Qorxaq Aslan dedi:

- Nəsə eləmək lazımdır, Qoy mən suya tullanıb sahilə üzüm, siz də quyruğumdan bərk-bərk yapışın.

Bu sözləri deyib Aslan suya tullandı, Dəmir Odunçu onun quyruğundan tutdu. Aslan sahilə tərəf üzdü, salı arxasınca çəkdi. Çox əziyyətdən sonra səyyahlar sahilə çatdılar, amma onlar sarı kərpic yoldan çox uzaq düşmüşdülər.

- İndi nə edək? – Dəmir Odunçu soruşdu.
- Gərək yolu tapaq, – Doroti dedi.
- Əgər sahilboyu getsək, yolu taparıq, – Aslan təklif etdi.

Dostlar yaxşı dincələndən sonra Doroti zənbilini götürdü və hamı yola tərəf getməyə başladı. Ətrafda gül-çiçək açmışdı, meyvə ağacları vardı, günəş işıq saçırdı. Bədheybətin başına gələnlər olmasaydı hamı özünü xoşbəxt sanardı.

Yolçular sürətlə gedirdilər. Doroti əyildi ki, xoşuna gəlmiş bir gülü dərsin. Bu an Dəmir Odunçu qışqırdı:

- Bir ora baxın!

Hamı baxıb gördü ki, çubuğa sancılmış Bədheybət çayın ortasında qalıb. O, elə bədbəxt və yalqız görünürdü ki...

"Onu necə xilas edək?" – Doroti fikirləşdi. Aslan və Dəmir Odunçu nə edəcəklərini bilmirdilər. Dostlar çay kənarında əyləşib bir-birilərnə baxırdılar. Yaxınlıqdan bir leylək uçurdu. Leylək dostlara yaxınlaşıb yerə qondu.

- Siz kimsiz, hara gedirsiz? – soruşdu Leylək.
- Mən Dorotiyəm, bunlar mənim dostlarımdır. Biz Zümrüd Şəhərinə gedirik.
- Zümrüd Şəhəri başqa səmtdədir, – Leylək təəccüblə dedi.
- Bilirəm, – Doroti söylədi; – Dostumuz Bədheybəti itirmişik, onu xilas etmək istəyirik.
- Bəs o hanı?
- Çayın ortasında, çubuğa ilişib qalıb.
- Bu qədər böyük və ağır olmasaydı onu dimdiyimdə tutub gətirərdim – Leylək bildirdi.

Doroti sevinclə:

- Bədheybət çox yüngüldür! – dedi, – axı o samandandır. Onu gətirsəniz sizə minnətdar olarıq.

- Yaxşı, amma bilin ki, dostunuz ağır olsa, onu çaya atmağa məcbur olacam.

Quş göyə qalxıb çayın ortasına uçdu, dimdiyiylə Bədheybəti tutub havaya qaldırdı və asanca onu sahilə, dostlarının yanına gətirdi. Bədheybət elə sevinirdi ki, sevincindən hamını bir-bir öpməyə başladı. Yolçular yollarına davam edəndə də Bədheybət elə hey rəqs edir, "Tra-la-la, tru-la-la" oxuyurdu. O, dostlarına etiraf etdi:

- Elə bilirdim ki, ömrümün sonuna qədər çayda qalacam. Yaxşı ki, Leylək məni xilas etdi. Beynim olandan sonra Leyləyi tapıb ona təşəkkür edəcəm.

- Yaxşı, yaxşı, – Leylək dedi; – Bunlar hamısı boş şeydir. Bəlaya düşənlərə yardım etməyi sevirəm. İndisə mən balalarımın yanına qayıtmalıyam. İnanıram ki, Zümrüd Şəhərinə gedib sehirbaz Ozu tapacaqsız.
- Təşəkkürlər, – Doroti bunu demişdi ki, Leylək havaya yüksəlib gözdən itdi.

Yolçuların yolu çəmənlikdən keçirdi. Burada o qədər əlvan gül-çiçək vardı ki, çəmənlik naxışlı xalçaya oxşayırdı. Çəməndə hər növdə və rəngdə gül vardı, amma onların arasında qıpqırmızı lalələr daha çoxdu.

Lalələrin ətrini ciyərlərinə çəkən Doroti:

- Necə gözəl çiçəklərdir! – söylədi.
- Yəqin, – Bədheybət dedi, – beynim olanda, mən də gözəlliyin nə olduğunu dərk edəcəyəm.
- Ah, ürəyim olsaydı mən də onları sevərdim, – dedi Dəmir Odunçu.
- Mən həmişə çiçəkləri xoşlamışam, amma heç vaxt belə iri və parlaq rəngli çiçək görməmişəm, – Aslan da əlavə etdi.

Tədricən o biri güllər azaldı, lalələr hər yeri tutdu. Məlumdur ki, lalələrin ətri canlılara yuxu verir, lalə talasında qalan canlı elə bərk yuxuya gedər ki, heç ayılmaz. Doroti bunu

bilmirdi, heyranlıqla lalələrə baxırdı. Göz qapaqları ağırlaşırdı, yatmaq istəyirdi. Ancaq Dəmir Odunçu buna yol vermək istəmirdi, üzünü dostlarına tutub dedi:

- Uşaqlar, biz tələsməliyik, hava qaralana qədər sarı kərpic yolu tapmalıyıq.

Yolçular getdilər, getdilər, amma yolu tapa bilmədilər. Dorotinin ayaqları büküldü, gözləri yumuldu, qızcığaz lalələrin arasında bərk yuxuya getdi.

- İndi biz neyləyək? – Bədheybət soruşdu.

- Onu burda qoysaq, ölə bilər, – Aslan dedi; – Bu güllərin ətri bizi də öldürəcək. Baxın, Toto da yatıb, mənim də gözlərim yumulur.

Toto Dorotinin ayaqları altında yumurlanıb yatmışdı. Bədheybətlə Dəmir Odunçuya isə lalələrin ətri təsir etmirdi.

Bədheybət Aslana:

- Tez burdan qaç, – dedi; – Dorotini biz gətirərik, amma səni qaldıra bilmərik, ağırsan.

Aslan sürətlə qaçıb lalə talasından uzaqlaşdı. Bədheybətlə Dəmir Odunçu Dorotini qaldırdılar, Totonu da onun qucağına qoyub apardılar. Onlar xeyli getdilər, lalə talası isə qurtarmaq bilmirdi. Nəhayət, çayın döndüyü yerə çatanda, gördülər ki, Aslan da lalələrin arasında uyuyub. Lalə talasının sonuna qədər getməyə Aslanda güc qalmamışdı, o bir azca da qaça bilsəydi, yaxınlıqdakı yaşıl çəmənliyə çatacaqdı.

- Heyif, – Bədheybət dedi, – qorxaq olsa da Aslan yaxşı yoldaş idi, amma nə etmək olar, yolumuza davam etməliyik.

Sərin meh qızı yuxudan oyatsın deyə onlar Dorotini lalə talasından uzağa, çayın sahilinə apardılar, özləri isə oturub gözləməyə başladılar.

## 9. Çöl siçanlarının Şahzadəsi

- Sarı kərpic yol hardasa yaxınlıqda olmalıdır, – Bədheybət qızın yanında duraraq dedi, – təqribən su axınının bizi sürüklədiyi məsafə qədər yürüdük.

Dəmir Odunçu cavab vermək istədi, amma bu an qəribə səs eşitdi. Yağlanmış kürə oynaqlar üzərindəki başını döndərəndə, Odunçu əcayib bir canlının çəmənliyin üzəriylə qaçaraq onlara doğru gəldiyini gördü. Bu, nəyisə qovalayan böyük, sarı bir çöl pişiyi idi. Pişik qulaqlarını arxaya əymiş, iti dişli qorxunc ağzını geniş açmışdı, gözləri qan çanağına dönmüşdü. Pişik yaxınlaşdıqda Dəmir Odunçu onun balaca, boz rəngli bir tarla siçanını tutmaq istədiyini gördü. Dəmir Odunçunun ürəyi olmasa da, yırtıcı pişiyin balaca köməksiz bir siçanı öldürməsinə imkan verə bilməzdi. Odunçu baltasını qaldırdı, pişik onun yanından keçəndə bir zərbəylə başını bədənindən ayırdı, pişik iki parça olub ayaqlarının altına düşdü.

Tarla siçanı düşmənindən qurtulduğuna görə o saat dayandı, Odunçuya yaxınlaşıb nazik səslə ciyildədi:

- Oh, təşəkkür edirəm! Həyatımı xilas etdiyinə görə sənə sonsuza qədər minnətdaram!

- Yalvarıram, belə danışma – dedi cavabında Dəmir Odunçu; – Mənim ürəyim yoxdur, ona görə də ehtiyacı olanlara yardım etməyə çalışıram, hətta adi bir siçan belə olsa.

- Adi siçan! – deyə hiddətlə bağırdı heyvancığaz; – Mən bir Şahzadəyəm, bütün çöl siçanlarının Şahzadəsi!

- Ah, həqiqətən, – Dəmir Odunçu dedi, Şahzadəyə təzim edərək salamladı.

- Məni xilas etməklə həm şücaət göstərdin, həm də böyük bir işi başardın.

Bu an hər tərəfdən siçanlar tökülüşüb gəldi, onlar Şahzadəni görüncə səsləndilər:

- Ah, əlahəzrət, elə bildik ki öldürülmüsünüz! – Siçanlar ciyildədi; – Necə oldu ki, Çöl pişiyindən qurtula bildiniz? Şahzadəni salamlamaq üçün o qədər əyilmişdilər ki az qala təpəsi üstdə duracaqdılar.

- Bax bu məzəli dəmir adam Çöl pişiyini öldürüb həyatımı qurtardı, – Şahzadə Dəmir Odunçunu göstərdi; – Bundan sonra ona xidmət göstərməli və ən kiçik istəyini belə yerinə yetirməlisiniz.

- Biz hazırıq! – bütün siçanlar zil səslə bağırışdılar. Bu arada Toto oyanıb ətrafındakı siçanları görüncə onların üstünə cumub hürməyə başladı, siçanlar qorxub sağa-sola qaçışdılar. Toto Kanzasda olanda da siçanları qovmağı sevərdi, lakin başa düşmürdü ki, indi bunu burada etmək olmaz. Dəmir Odunçu Totonu quçağına götürüb siçanlara dedi:

- Qorxmayın! Geri qayıdın! Toto sizə zərər verməz!

Siçanların Şahzadəsi ehtiyatla başını qum təpəciyindən çıxardıb qorxmuş səslə soruşdu:

- Bizi dişləməyəcəyindən əminsiz?

- Qoymaram bunu etsin, – Dəmir Odunçu dedi, – buna görə də heç qorxmayın.

Siçanlar bir-bir gizləndikləri yerdən çıxmağa başladılar. Toto Odunçunun qucağından düşmək istəyirdi. O, Odunçunu dişləyə bilərdi, amma başa düşürdü ki, dişləri dəmirə batmayacaq. Siçanlardan ən irisi bir söz soruşdu:

- Şahzadəmizi xilas etdiyinizə görə bizdən nə istəyirsiz?

- Mən bildiyimə görə biz heç nə istəmirik – Dəmir Odunçu cavab verdi. Ancaq düşünməyə çalışan və başı samanla dolu olduğuna görə bunu başarmayan Bədheybət tez özünü ortaya soxdu:

- Hə, istəyirik; siz dostumuz Qorxaq Aslanı xilas edə bilərsiz, o, lalə talasında yuxuya gedib.

- Aslanı? – Siçanların Şahzadəsi çığırdı; – Axı o bizim hamımızı yeyər!

- Oh, elə deyil, - Bədheybət başa saldı; - bu Aslan qorxağın biridir.

- Doğrudan? – Siçan soruşdu.

- Hər halda, özü belə deyir, – Bədheybət cavab verdi; – O heç vaxt öz dostlarını incitməz. Onu xilas etsəniz, and içirəm ki, sizinlə nəzakətlə davranacaqdır.

- Yaxşı, elə isə biz razıyıq, – Şahzadə bildirdi; – ancaq biz Aslana necə kömək edə bilərik?

- Sizə Şahzadə deyən, əmrinizi yerinə yetirə biləcək siçanlar varmı? – Bədheybət soruşdu.

- Ah, əlbəttə; minlərcə var!

- Elə isə hamısını buraya çağırın, qoy gələrkən hərəsi özüylə bir parça ip gətirsin.

Şahzadə yanındakı siçanlara əmr etdi ki, onun təbəəsində olan bütün siçanları buraya yığsınlar. Siçanlar əmrləri eşidər-eşitməz tez dörd tərəfə dağılışdılar.

- İndi isə, – Bədheybət Dəmir Odunçuya üzünü tutdu; – sən çay kənarındakı ağaclıqlara gedib Aslanı daşımaq üçün bir araba düzəltməlisən.

Dəmir Odunçu o saat ağaclıqlara gedib işə başladı; tez bir zamanda kəsdiyi ağac budaqlarından bir araba düzəltdi. Böyük bir ağac gövdəsindən kəsdiyi parçalarla da dörd təkər düzəltdi, bunları taxta çıvlərlə arabaya birləşdirdi. O qədər əldən iti olmuşdu ki siçanlar gəlməyə başlayanda araba çoxdan hazır idi.

Minlərlə sıçan hər tərəfdən qaçıb gəlirdilər; Böyük siçanlar, balaca siçanlar, orta boylu siçanlar; hər birinin ağzında bir parça ip vardı. Bu zaman Doroti uzun yuxudan ayılıb gözlərini açdı. Ətrafında minlərlə siçanın qaynaşması onu olduqca çaşdırmışdı. Ancaq Bədheybət Dorotiyə hər şeyi başa saldı, sonra üzünü balaca Siçanlar Şahzadəsinə tutub dedi:

- Sizi Doroti ilə tanış etmək istəyirəm.

Doroti Şahzadəni nəzakətlə salamladı, Şahzadə onun salamına təzim edərək cavab verdi, bir anda dostlaşdılar.

Bədheybət və Dəmir Odunçu siçanları gətirdikləri iplərlə arabaya qoşdular, araba əlbəttə ki onu çəkən siçanların hər birindən min qat daha böyük idi; ancaq bütün siçanlar arabaya qoşulanda siçanlar onu rahatca çəkə bilirdilər. Hətta çox qəribədir, Bədheybətlə Dəmir Odunçu da arabaya oturdular, siçanlar arabanı Qorxaq Aslanın yatdığı yerə dartıb apara bildilər.

Aslan çox ağır idi, onu böyük çətinliklə qaldırıb arabaya qoydular. Siçanlar Şahzadəsi əmr etdi, hamı tez bu yerdən uzaqlaşsın, yoxsa lalələrin bihuşedici ətri siçanları yatızdıracaqdı.

Siçanların sayı çox olsa da, onlar əvvəlcə arabanı yerindən tərpədə bilmədilər. Bədheybət və Dəmir Odunçu siçanlara kömək etdi, arabanı arxadan itələdilər, nəhayət, Aslanı yaşıl çəmənliyə gətirdilər ki, o, lalələrin zəhərli havası ilə deyil, təmiz hava ilə nəfəs alsın.

Doroti xilaskarları qarşılamağa çıxdı və yol yoldaşını qurtardıqlarına görə siçanlara təşəkkür etdi. Aslanı sevməyə başlamışdı, onun xilas edilməsinə çox sevinirdi.

Sonra arabadan ipləri açılan siçanlar öz yuvalarına doğru dağılışdılar. Siçanlar Şahzadəsi ən axıra qalmışdı:

- Sənə kömək lazım olsa, – dedi, – tarlaya gəlin və çağırın, səsinizi eşidəcək və köməyinizə gələcəyik. Salamat qalın!

- Əlvida! – hamısı bir ağızdan söylədi. Siçanlar Şahzadəsi qaçaraq gözdən itdi. Şahzadəni qovmasın deyə Doroti Totonu qucağında bərk-bərk tutmuşdu.

Dostlar Aslanın dövrəsində əyləşib onun yuxudan ayılmasını gözlədilər. Dorotinin axşam yeməyi üçün Bədheybət yaxınlıqdakı ağaclardan bir az meyvə topladı.

## 10. Şəhər Qapılarının Keşikçisi

Aslan lalə talasında uzun müddət qaldığına görə güllərin ölümcül qoxusundan zəhərlənmişdi, oyanmaq bilmirdi. Nəhayət, gözlərini açıb arabadan yerə tullananda həyatda olduğu üçün çox sevincliydi.

- Mən var gücümlə qaçırdım, amma çiçəklərin qoxusu çox şiddətli idi – dedi, oturub əsnəyərək; – məni oradan necə çıxardınız?

Ona çöl siçanlarının həyatını qurtarmaq üçün necə çalışdıqlarını danışdılar; Qorxaq Aslan güldü və belə söylədi:

- Mən özümü həmişə böyük və güclü heyvan sanırdım, amma xırda lalələr az qaldı ki, məni öldürsün, balaca siçanlar isə xilas etdilər! Dünyada necə qəribəliklər var! Bəs indi biz nə edəcəyik, dostlar?

- Biz təcili olaraq sarı kərpic yolu tapmalıyıq, – Doroti dedi; – sonra isə Zümrüd Şəhərə doğru yolumuza davam etməliyik.

Tezliklə Aslan tamam özünə gəlib bir şeylər yedikdən sonra, dostlar getməyə başladılar, Böyük Ozun yaşadığı Zümrüd Şəhərinə gedən sarı kərpic yola çatana qədər yumşaq, yaşıl çəmənliklə irəlilədilər. İndi yol hamar idi, yaxşı döşənmişdi, ətrafda gözəl mənzərələr görünürdü.

Qalın meşə və təhlükələr arxada  qalmışdı, yenə alçaq çəpərlər göründü, amma indi onların hamısı yaşıl rəngdə idi. Gözə dəyən ilk fermer evi də yaşıldı. Yolda rastlarına çıxan adamlar qəribə yolçulara təəccüblə baxır, sanki yaxınlaşıb nəsə soruşmaq istəyirdilər, lakin nəhəng Aslan hamını qorxudurdu, heç kim yaxınlaşıb söhbət etməyə ürək etmirdi. Sakinlərin hamısı yaşıl geyimdə idi, onların papaqları da yaşıldı.

- Yəqin, biz Oz ölkəsindəyik, – Doroti təxmin etdi, – tezliklə Zümrüd Şəhərinə çatacağıq.

- Yəqin, – Bədheybət dedi; – Çeynəçilər ölkəsində ən sevilən rəng mavi idi, burda isə yaşıldır. Buranın sakinləri Çeynəçilər kimi mehriban deyil. Qorxuram ki, gecələməyə bir yer tapmayaq.

- Meyvə yeməkdən təngə gəlmişəm, nəsə başqa bir yemək istəyərdim, – Doroti  dedi; – Totonun da lap ac olduğuna əminəm. Gəlin, qarşıdakı bir evin yanında dayanaq və insanlarla danışaq.

Böyük bir kənd evi gördülər. Doroti yaxınlaşıb qapını döydü. Bir qadın qapını, onları görə biləcəyi qədər, aralayıb soruşdu:

- Nə istəyirsən, qızım, bu Aslan sənin yanında nə gəzir?

- Biz istəyirik ki, sizdə gecələməyə icazə verəsiniz, – Doroti xahiş etdi;  – Aslan mənim dostumdur, heç kimi incitməz.

- O, əhliləşib? – Qadın qapını bir az geniş açaraq sordu.

- Hə, hə, – dedi qız; – bu aslan Qorxaq Aslandır, o özü sizdən qorxur.

- Yaxşı, – qadın bir az fikirləşəndən sonra, Aslana bir daha nəzər salıb razılaşdı; – Əgər belədirsə, içəri gəlin, sizə yemək və yatacaq verim.

Dostlar içəri keçdilər. Evdə qadından başqa üç uşaq və qadının əri vardı. Kişinin ayağı yaralı olduğuna görə küncdəki yataqda uzanmışdı. Ev sahibəsi süfrə açana qədər kişi yolçulardan soruşdu:

- Hara gedirsiz?
- Zümrüd Şəhərinə, böyük sehirbaz Ozun yanına, – Doroti cavab verdi.
- Ciddi deyirsiz? Elə bilirsiz, Oz sizi qəbul edəcək?
- Niyə qəbul etməsin ki?
- Çünki o, heç vaxt heç kimi qəbul etmir. Mən dəfələrlə Zümrüd Şəhərində olmuşam, ora xoşuma gəlir, amma heç vaxt Ozu görməmişəm, onu görən bir adam da tanımıram.
- Oz heç vaxt insanların qarşısına çıxmazmı? – Bədheybət soruşdu.
- Heç vaxt. Bütün günü sarayında böyük taxt otağında oturur, qulluqçuları belə onunla üz-üzə gəlməzlər.
- Oz kimə oxşayır? – Doroti maraqlandı.
- Çətin sualdır, – fermer dedi; – Oz böyük sehirbazdır, deyirlər ki, o, istədiyi qiyafəyə girir, gah quş olur, gah fil, gah da pişik. Oz Pəriyə çevrilir, damdabaca olur, asanlıqla dəyişir, amma heç kim bilmir ki, əsil Oz necədir.
- Çox qəribədir... – Doroti fikrə getdi; – Biz sehirbazı hökmən görməliyik, yoxsa səyahətimiz boşa çıxar.
- Oz nəyinizə lazımdır? – fermer soruşdu.
- Mən bir az beyin istəyirəm, – Bədheybət dedi.
- Oz üçün bu, su içmək kimi asandır, – fermer Bədheybətə ümid verdi; – Deyilənə görə, onun o qədər beyni var ki, bilmir kimə versin.
- Mənsə ondan ürək istəyəcəm, – Dəmir Odunçu söhbətə qoşuldu.
- Bu da Oz üçün çətin deyil, – kişi bildirdi, – Ozun hər şəkil və ölçüyə uyğun ürəklərdən oluşan böyük bir kolleksiyası var.
- Mən Ozdan cəsarət istəməyə gedirəm, – Qorxaq Aslan öz arzusunu bildirdi.
- Deyirlər ki, Ozun qəbul salonunda ocaq üstə böyük bir qazan var, içi cəsarətlə doludur. Yerə tökülməsin deyə üstünə qızıl bir boşqab qoyublar. Canla-başla sənə bir az cəsarət verər.
- Mən istəyirəm ki, Oz məni Kanzasa qaytarsın, – Doroti dedi.
- Kanzas harda yerləşir? – fermer təəccübləndi.
- Bilmirəm, mənim evim ordadır, – Doroti ağlamsınaraq cavab verdi.
- Əminəm ki, böyük Oz hər işin öhdəsindən gələr, Kanzası da tapar. Amma gərək əvvəlcə onun qəbuluna düşəsiz, bi isə asan deyil. Böyük Sehirbaz çağırılmamış qonaqları sevmir, onun sözü qanundur. Bəs sən nə istəyirsən? - fermer Totodan soruşdu, Toto sadəcə quyruğunu buladı, çünki, nə qədər qəribə olsa da, danışmağı bacarmırdı.

Ev sahibəsi hamını süfrəyə çağırdı. Doroti bir qab yulaf sıyığı, ağ çörəklə qayğanaq yedi və dadını çoxdan unutduğu bu yeməklərdən həzz aldı. Aslan sıyığın dadına baxdı, xoşuna gəlmədi, çünki yulaf aslanın deyil, atların yeməyidir. Bədheybət və Dəmir Odunçu adətləri üzrə heç nə yemədilər, Toto isə hər yeməkdən bir az dadıb razı qaldı.

Sonra qadın Dorotiyə yatağını göstərdi, Toto da onun yanına uzandı. Aslan qapı astanasında özünə yer tutdu ki, heç kim Dorotinin yuxusuna mane olmasın. Bədheybətlə Dəmir Odunçu yatmasalar da bir küncə çəkilib səhərəcən ayaqüstə qaldılar.

Ertəsi gün, səhər günəş doğar-doğmaz yola düzəldilər və bir az gedəndən sonra onlar üfüqdə yaşıl rəngdə gözəl bir işıq çələngi gördülər.

- Bu Zümrüd Şəhəri olmalıdır – dedi Doroti.

Yolçular yaxınlaşdıqca, işıq güclənirdi. Deyəsən, səyahətin sonuna gəlib çatmışdılar. Günortaya yaxın dostlar şəhəri əhatə edən divarlara yetişdilər. Divar hündür, qalın və al-yaşıl idi.

Sarı kərpic yol zümrüdlərlə bəzədilmiş şəhər qapılarının yanında qurtarırdı, zümrüdlər elə parlayırdı ki, hətta Bədheybətin bir Çeynəçi tərəfindən boyayla çəkilmiş gözləri belə bu gözəllik qarşısında qamaşırdı.

Qapının ağzında zınqırov asılmışdı, Doroti zəng çaldı, xoş bir cınqırtı səsi ətrafa yayıldı, sonra nəhəng qapılar yavaş-yavaş açıldı, yolçular şəhərə daxil oldular, onlar gümbəz tavanlı, divarları parlaq zümrüdlərlə naxışlanmış, yüksək tağlı bir otağa gəldilər.

Dostların qarşısındı Çeynəçilər boyda bir adam vardı. O, başdan-ayağa yaşıl geyinmişdi, bədəni belə yaşıla çalırdı. Böyründən bir iri yaşıl qutu asılmışdı.

Dorotini və onun dostlarını görən adam:

- Zümrüd Şəhərinə niyə gəlmisiz? – deyə, soruşdu.
- Biz böyük Ozu görmək istəyirik, – Doroti dedi.

Bunu eşitmək o adam üçün elə gözlənilməz oldu ki, əyləşib xeyli fikrə getdi. Sonra dedi:

- Sonuncu dəfə belə istəyi çox-çox əvvəllər eşitmişdim. Oz əzazil və böyük sehirbazdır, əgər onu axmaq, ya da mənasız bir xahişlə narahat edirsinizsə, baxın ha, işiniz pis olar, Oz sizi bir göz qırpımında yox edər.
- Bizim xahişlərimiz nə axmaqdır, nə də mənasız, – Bədheybət etiraz etdi; – Hamısı bizim üçün vacib arzulardır. Biz bilirik ki, Oz xeyirxah sehirbazdır.
- Elədir, – dedi yaşıl adam; – Oz Zümrüd Şəhərini ədalətlə idarə edir, amma dürüst olmayanlara və burnunu hər yerə soxanlara qarşı amansızdır. Az adam tapılar ki, Ozla görüşməyə cürət etsin. Mən Qapı Keşikçisiyəm və madəm Böyük Ozu görməyi tələb edirsiniz, sizi saraya aparmalıyam. Amma əvvəlcə bu gözlükləri taxmalısınız.
- Niyə? – Doroti soruşdu.
- Çünki taxmasanız, Zümrüd Şəhərinin gözəlliyi və parıltısı gözlərinizi kor edər. Şəhər sakinləri öz eynəklərini heç gecələr də çıxartmır. Ta şəhər qurulandan bəri eynəklər açarla bağlanır, açarlar məndə qalır. Bu, Ozun əmridir.

Keşikçi öz qutusunu açdı, Doroti qutuda hər boyda və şəkildə çoxlu eynəklər olduğunu gördü, hamısının şüşəsi yaşıl rəngdə idi. Zümrüd Şəhərinin Keşikçisi eynəklərdən birini Dorotinin gözlərinə taxdı. Gözlüyün arxa tərəfdə birləşən qızılı rəngdə iki bantı vardı, bantları qızın başının arxasında qapayıb boynundakı zəncirə bağlı olan açarla kilidlədi. Doroti artıq istəsəydi də gözlüyü çıxara bilməzdi, ancaq Zümrüd Şəhərin parıltısıyla kor olmaq istəmədiyinə görə bir şey söyləmədi.

Sonra Keşikçi Bədheybətə, Dəmir Odunçuya, Qorxaq Aslana, hətta Totoya da gözlük taxıb yaxşı-yaxşı kilidlədi. Keşikçi özü də gözlüyünü taxıb, indi onları saraya aparmağa hazır olduğunu söylədi. O, divardan asılmış böyük qızıl açarı götürüb başqa bir qapını açdı, hamısı birlikdə Zümrüd Şəhərinə daxil oldular.

## 11. Ozun qeyri-adi Zümrüd Şəhəri

Gözlüklərin qorumasına baxmayaraq, bu misilsiz şəhərin gözəlliyi Doroti və dostlarının gözlərini qamaşdırmışdı. Şəhərin küçələri yaşıl mərmərdən tikilmiş və parıltılı zümrüdlərlə bəzədilmiş evlərlə doluydu. Yolçuların yürüdüyü səki də yaşıl mərmərdən idi, daşların birləşmə yerləri günəş şüalarının əks olunduğu zümrüdlərlə süslənmişdi. Hər tərəf gün işığı altında parlayırdı. Pəncərə şüşələri də yaşıldı; şəhərin üstündəki göy üzü və günəş şüaları belə yaşıl rəngdəydi.

Yaşıl geyimli adamlar - çoxlu kişi, qadın və uşaq küçələrdə gəzişirdilərr, onların sifətlərinin rəngi də yaşıla çalırdı. Bu adamlar təəccüblə Doroti və onun qəribə yoldaşlarına baxırdılar.

Böyük Aslanı görən uşaqlar qaçıb analarının arxasında gizlənirdi, qəriblərə heç kim sual verməyə ürək etmirdi. Dükanlarda yaşıl mallar – yaşıl konfetlər, qovrulmuş yaşıl qarğıdalı, hər ölçüdə yaşıl çəkmə və papaqlar, yaşıl paltar və pencəklər satılırdı. Bir piştaxtada satıcı yaşıl limonad satırdı, onu dövrəyə almış uşaqların əllərində yaşıl pul vardı.

Zümrüd Şəhərinin küçələrində nə at vardı, nə də başqa heyvan. İnsanlar yükü təkərli balaca arabalarda daşıyırdılar. Şəhər sakinlərinin hamısı şən və xoşbəxt görünürdü.

Şəhərin Qapı Keşikçisi yolçuları küçələrdən keçirib şəhərin mərkəzindəki böyük binaya apardı. Bu Oz Ölkəsinin böyük müdrik sehirbazının sarayı idi. Qapıda yaşıl geyimli, uzun yaşıl saqqallı əsgər dayanmışdı.

- Bunlar qərib adamlardır, – Keşikçi Əsgərə dedi; – Onlar böyük Ozu görmək istəyirlər.

- Qoy içəri keçsinlər, – Əsgər icazə verdi; – mən Oza çatdıraram ki, onu görmək istəyən var.

Beləcə saray qapısından keçib yaşıl xalı və zümrüdlərlə bəzənmiş yaşıl mebelli böyük bir otağa gəldilər. Yerdə yaşıl xalça vardı. Qonaqlar Əsgərin əmriylə girişdəki balaca yaşıl palaza ayaqlarını silib içəri keçdilər, böyük zümrüdlərlə bəzədilmiş kürsülərdə əyləşdilər. Əsgər nəzakətlə:

- Rahat əyləşin, xahiş edirəm, – dedi, – mən Taxt Odasının qapısına gedib sizin burada olduğunuzu Oza xəbər verəcəm.

Əsgərin qayıtmasını uzun müddət gözlədilər. Nəhayət, o qayıdıb gələndə Doroti soruşdu:

- Nə oldu, Ozu gördnüzmü?

- Ah, xeyr, görmədim. Mən onu heç vaxt görmürəm, – Əsgər cavab verdi; – Mən pərdənin arxasından sizin gəldiyinizi xəbər verdim. Oz pərdə arxasından mənə qulaq asırdı, sizinlə görüşəcəyini söylədi, ancaq bir şərtlə: qarşısına tək-tək çıxmalısınız və hər gün yalnız birinizi qəbul edəcək. Buna görə də bir neçə gün sarayda qalmalı olacaqsınız. İndi otaqları hazırlayırlar, siz uzun və çətin yoldan sonra dincələ bilərsiz.

- Minnətdarıq, Oz çox diqqətlidir. – Doroti təşəkkür etdi.

Əsgər yaşıl bir düdük çıxarıb çaldı, hardansa yaşıl ipək geyimli bir qız peyda oldu. Qızın gözəl yaşıl gözləri, uzun yaşıl saçları vardı. O, Dorotinin önündə təzim edib dedi:

- Gedək, sənə otağını göstərim.

Doroti dostlarıyla vidalaşıb Totonu qucağına götürdü və yaşıl xidmətçinin dalınca getdi. Onlar yeddi dəhliz keçdilər, üç pilləkəndən enib-qalxdılar və nəhayət, sarayın yaxşı otaqlarından birinə çatdılar. Bu otaq dünyanın ən rahat otağı idi, burda yaşıl ipək və məxmər yorğan-döşək salınmış rahat yataq vardı. Otağın ortasında fəvvarənin havaya püskürtdüyü yaşıl ətir şırnağı altındakı yaşıl mərmər hovuza tökülürdü. Pəncərələrdə yaşıl dibçəklərdə bitkilər, rəfdə yaşıl kitablar vardı. Onlardan birini götürən Doroti onun qəribə, komik rəsimlərlə dolu olduğunu gördü.

Paltar şkafında ipək, atlas və məxmər yaşıl geyimlər asılmışdı, hamısı da elə bil Dorotinin əyninə biçilmişdi.

- Özünü evində olduğun kimi hiss et, – Xidmətçi Qız dedi; – Bir şey lazım olsa, yaşıl zəngi çal. Oz səni sabah səhər qəbul edəcək.

Bu sözlərlə Xidmətçi Qız Dorotinin dostlarının yanına qayıtdı, onları da sarayın ən gözəl otaqlarında yerləşdirdi. Yolçular öz otaqlarından razı qalmışdılar. Əlbəttə, Bədheybətə bu gözəllik təsir etmədi, o səfehcəsinə gözlərini bir nöqtəyə zilləyərək səhərə qədər gözlədi. Onun üçün fərqi yoxdu, yatağa uzansın, ya da ayaqüstə qalsın, Bədheybət gözlərini yuma bilmirdi, odur ki, bütün gecə küncdə tor hörən hörümçəyə baxırdı, sanki bura saray deyil, adi kasıb koma idi. Dəmir Odunçu ətdən və sümükdən olduğu günlərin alışqanlığıyla yatağa uzansa da, yata bilmirdi, bütün gecəni əl-ayağını tərpədib, başını ora-bura əyirdi ki, oynaqlarının necə işlədiyini yoxlasın. Aslan böyük məmnuniyyətlə meşədəki quru yarpaqların arasına soxulub yatardı, amma çarəsi yox idi, yatağına tullanıb yumaq kimi yumurlanaraq xoruldadı.

Ertəsi gün səhər yeməyində sonra yaşıl qız Dorotini hazırlamağa gəldi, ona çox yaraşıqlı ipək paltar geyindirdi. Doroti yaşıl, ipək bir önlük taxıb, Totonun boynuna yaşıl lent bağladıqdan sonra Böyük Ozun Taxt Otağına doğru getməyə başladılar.

Əvvəlcə onlar bahalı kostyumlar geyinmiş çoxlu xanımların və bəylərin olduğu böyük bir salona girdilər. Bu insanların biri-birləriylə danışmaqdan başqa görəcəkləri bir işləri

yox idi, amma Ozu görmələrinə izin verilməyəcəyini bilə-bilə hər səhər Taxt Otağının qarşısına toplanardılar. Doroti içəri girəndə ona maraqla baxmağa başladılar, xanımlardan biri pıçıldadı:

- Sən həqiqətən Qorxunc Ozun üzünə baxacaqsan?
- Əlbəttə, – deyə cavab verdi qız, – əgər məni qəbul etsə.
- Ah, hökmən qəbul edəcək, – dünənki Əsgər dedi; – Düzdür, Oz minnətçiləri xoşlamır, dünən o, bərk hirslənmişdi, əmr etdi ki, səni qovum. Sonra soruşdu ki, sənin əynində nə var. Gümüş başmaqları eşidən kimi Oz maraqlandı. Mən dedim ki, sənin alnında öpücük izi var, onda Oz yumşaldı və dedi ki, səni qəbul edəcək.

Bu zaman zəng çalındı, yaşıl qız Dorotiyə dedi:

- İşarə gəldi. Sən Taxt Otağına tək başına girməlisən.

Xidmətçi Qız kiçik qapını açdı, Doroti qorxmadan içəri keçdi. Bura möhtəşəm bir yerdi. Otaq yumru, tavan günbəz kimiydi. Döşəmə, divar və tavana iri zümrüdlərlə naxışlar vurulmuşdu. Yuxarıdan günəş kimi işıq saçan lampa sallanırdı, onun işığında zümrüdlər par-par yanırdı.

Ancaq Dorotini mat qoyan otağın ortasındakı yaşıl mərmərdən düzəlmiş taxt idi. Taxt da buradakı hər şey kimi qiymətli daşlarla işlənmişdi. Taxtın üstündə nəhəng ölçülü Baş vardı, əl-ayaq, bədən yoxdu, baş tamam keçəldi, amma Başın burnu, ağzı, gözləri yerində idi.

Doroti dəhşət içində, sehirlənmiş kimi Başa baxdığı sırada birdən Başın gözləri yavaşca fırlanıb Dorotiyə zilləndi. Sonra ağız açıldı və qız bir səs eşitdi:

- Mən böyük və qorxunc Ozam. Bəs sən kimsən və məni nə üçün görmək istyirdin?

Nəhəng Başdan çıxan səs Dorotinin gözlədiyinin əksinə olaraq, o qədər də qorxunc deyildi, buna görə də Doroti cəsarətini toplayıb cavab verdi:

- Mən Dorotiyəm, balaca, sözəbaxan bir qızam. Səndən kömək istəyirəm.

Baş bir müddət Dorotiyə baxdı, sonra dedi:

- Bu gümüş başmaqlar sənə hardandır?
- Şərqin Zalım Pərisindən. Evim onun üstünə düşüb əzdi, – deyə cavab verdi qız.
- Bəs alnındakı al rəngli iz hardandır? – səs davam etdi.
- Şimalın Xeyirxah Pərisi mənimlə vidalaşanda öpüb, – dedi qızcığaz.

Gözlər qıza xeyli baxdı, Baş əmin oldu ki, Doroti yalan demir. Sonra Oz soruşdu:

- Məndən nə istəyirsən?
- Məni Kanzasa, Em xalamın və Henri dayımın yanına göndər, – Doroti xahiş etdi; – Ölkəniz gözəl olsa da, xoşuma gəlmir, yəqin, Em xalam bərk narahatdır.

Gözlər üç dəfə göz vurub tavana baxdı, sonra dəhşətli sürətlə fırlandı. Bir müddət sonra gözlər yenə Dorotiyə baxırdı:

- Bunu niyə etməliyəm? – Oz soruşdu.
- Çünki sən güclüsən, mən gücsüz. Sən böyük sehirbazsan, mən isə köməksiz qalmış balaca qız.
- Amma Şərqin Zalım Pərisini öldürməyə gücün çatıb, – Oz dedi.
- Bu təsadüfən olub, – Doroti izah etdi, – mən istəyərək etmədim.
- Demək, belə, – Oz söylədi, – sənə cavabım budur. Evə, Kanzasa dönmək istəyirsənsə, mənimçün nəsə etməlisən. Bu ölkənin qanunu belədir. Mən bütün sehirli qüvvəmlə çalışacam, amma əvvəlcə sən çalışmalısan. Mənə kömək etsən, mən də sənə kömək edərəm.
- Nə etməliyəm? – Doroti soruşdu.
- Qərbin Zalım Pərisini öldür, – deyə cavab verdi Oz.
- Yox, mən bunu bacarmaram!
- Şərqin Zalım Pərisini öldürə bilmisən, onun gümüş başmaqları səndədir. İndi ölkədə cəmi bir zalım pəri qalıb. Onu öldürdüyünü deyən kimi səni Kanzasa göndərəcəm, amma hələ ki Zalım Pəri sağdır, mənə heç bir xahişlə müraciət etmə.

Doroti elə məyus oldu ki, ağlamağa başladı. Baş gözlərini fırlada-farlada qıza baxırdı, sanki Oz əmin idi ki, Doroti istəsə, onun əmrini yerinə yetirə biləcək.

- Mən heç vaxt heç kimi bilə-bilə öldürməmişəm, – Doroti hıçqıraraq dedi; – Qərbin Zalım Pərisini öldürmək istəsəm də, bilmirəm, bunu necə etmək olar! Sən böyük zəhmli Oz Pərini öldürə bilmirsən, bəs mən, balaca qız onu necə öldürüm?!

- Bilmirəm, – Baş cavab verdi, – qərarım belədir. Qərbin Zalım Pərisi nə qədərki sağdır, sən qulaqlarını görəndə, Kanzasa qayıdarsan. Yadda saxla ki, o, çox zalımdır, onu hökmən öldürmək lazımdır. İndi get və əmrimi yerinə yetirməyənə qədər gözümə görünmə.

Doroti kədərli halda Taxt Otağını tərk etdi və Ozun ona nə söylədiyini maraqla gözləyən Bədheybətin, Dəmir Odunçunun və Aslanın yanına qayıtdı.

- İşlərim çox pisdir! – Doroti dedi. – Qərbin Zalım Pərisini öldürməsəm, Oz məni Kanzasa qaytarmayacaq. İndi mən nə edim?

Dostları da kədərləndilər, heç kim bilmirdi nə etmək lazımdır. Doroti otağına qayıdıb yatağa uzandı, yuxuya gedənə qədər ağladı.

Ertəsi gün Yaşıl Saqqallı Əsgər Bədheybətin dalınca gəldi:

- Gedək, Oz səni gözləyir.

Bədheybət əsgərin dalınca getdi və Taxt Otağına girəndə burada zümrüd taxtın üzərində oturan gözəl bir qadın gördü. Yaşıl ipək paltar geymiş gözəlin başında ləl-cəvahirat düzülmüş tac vardı. Çiyinlərindən çıxan heyranedici qanadları sanki ufacıq bir meh əsməsinin yırta biləcəyi qədər incə görünürdü.

Bədheybət saman dolu bədəniylə bacardığı qədər nəzakətli təzim etdi. Gözəl təbəssümlə ona baxıb dedi:

- Mən böyük və qorxunc Ozam. Sən kimsən və məni nə üçün görmək istəmisən?

Dorotinin dediyi eybəçər Baş əvəzinə gözəl Pərini görən Bədheybət xeyli təəccübləndi, amma özünü itirməyib dedi:

- Mən samanla dolu Bədheybətəm. Buna görə də beynim yoxdur, sizdən başımın içinə saman yerinə bir az beyin qoymanızı və təbəələriniz kimi bir insan olmağıma kömək etməyiniz üçün yallvarmağa gəldim.

- Mən niyə sənin arzunu yerinə yetirməliyəm? – dedi qadın.

- Çünki sən müdrik və güclüsən, səndən başqa heç kim mənə kömək edə bilməz.

- Mən heç vaxt elə-belə kömək etmirəm, – Oz dedi; – Bax, deyirəm, əgər Qərbin Zalım Pərisini öldürsən, sənə elə kəskin beyin verəcəm ki, Oz ölkəsinin ən ağıllı sakini olacaqsan.

- Axı Pərini öldürməyi Dorotiyə tapşırmısan, – Bədheybət etiraz etdi.

- Hə, elədir. Mənimçün fərqi yoxdur, kim öldürür öldürsün. O sağ qalana qədər sənin arzunu yerinə yetirməyəcəm. İndi get və məni bir də narahat etmə. Gərək işlə sübut edəsən ki, beyinə layiqsən.

Bədheybət kədərli halda dostlarının yanına qayıtdı və Ozun söylədiklərini onlara danışdı. Ozun Baş deyil, Gözəl Qadın olduğunu eşidən Doroti çox təəccübləndi.

- Eynilə Dəmir Odunçu kimidir, ürək deyilən şey yoxdur bunda, – dedi Bədheybət.

Ertəsi gün Əsgər Dəmir Odunçunun yanına gəlib ona:

- Oz səni çağırdı. Ardımca gəl, – dedi.

Dəmir Odunçu onu izləyərək Taxt Otağına yollandı. Bilmirdi ki, onun qarşısına kim çıxacaq – Baş, yoxsa Gözəl? Hər halda o, Gözəli görmək istəyirdi. "Baş danışsa da, ürəyi yoxdur, – Dəmir Odunçu fikirləşirdi, – ona görə mənə rəhm etməz. Gözəl isə mənə ürək verər, axı qadınlar xeyirxah olurlar".

Dəmir Odunçu Taxt Otağına gələndə, nə danışan Başı gördü, nə də Gözəli. İndi Oz qəribə heyvan cildinə girmişdi.

Mərmər taxt fil boyda heyvanın ağırlığı altında az qalırdı ki, dağılsın. Heyvanın başı kərgədan başı idi, beş gözü, beş cüt nazik uzun ayaqları vardı. Bütün bədəni qalın füklə örtülmüşdü.

Belə iyrənc canlını təsəvvür etmək çətindi. Yaxşı ki, Dəmir Odunçunun ürəyi yox idi, yoxsa dəhşətdən parça-parça olardı. Dəmirdən olduğuna görə, Odunçu qorxmadı, amma bir az məyus oldu.

- Mən böyük və qorxunc Ozam! – Heyvan nərildədi; – Kimsən və məndən nə istəyirsən?

- Mən Dəmir Odunçuyam. Ürəyim olmadığına görə sevə bilmirəm. Xahiş edirəm, mənə ürək ver, mən də insanlar kimi olum.

- Niyə sənin xahişinə əməl etməliyəm? – deyə soruşdu heyvan.

- Çünki bunu istəyirəm və səndən başqa heç kim mənə kömək edə biməz, – deyə cavab verdi Dəmir Odunçu.

Bunu eşidən Oz yavaşca mırıldadı və boğuq bir səslə belə dedi:

- Madəm ürək istəyirsən, onu qazanmalısan.

- Necə? – soruşdu Dəmir Odunçu.

- Dorotiyə kömək et Qərbin Zalım Pərisini öldürsün, – cavab bu oldu; – Pəri öləndən sonra yanıma gələrsən, sənə Oz ölkəsinin ən böyük, sevgiylə dolu ürəyini verəcəm.

Dəmir Odunçu suyu süzülə-süzülə qayıtdı, başına gələnlər, gördüyü qorxunc heyvan haqqında dostlarına danışdı. Hamı Ozun nə qədər əcayib cildlərə girdiyinə mat qalmışdı. Qorxaq Aslan dedi:

- Sabah Oz vəhşi heyvan qismində görünsə, elə nərə çəkərəm ki, qorxusundan nə istəsəm yerinə yetirər. Əgər Gözəl olsa, özümü elə göstərərəm ki, guya üstünə tullanmaq istəyirəm, o zaman arzumu yerinə yetirər. Yox, əgər Danışan Baş olsa, daha yaxşı. Başı top kimi o qədər oynadaram ki, axırda hər birimizin arzusunu yerinə yetirmək zorunda qalar. Buna görə də, kefinizi pozmayın, dostlar, hər şey yaxşı olacaq.

Ertəsi gün yaşıl əsgər Qorxaq Aslanı böyük Taxt Otağına apardı və Ozun hüzuruna çıxartdı. Aslan gördü ki, taxtın üstündə Yanar Kürə var. O, kürəyə yaxınlaşmaq istədi, lakin kürə o qədər qızmar idi ki, Aslan yerindəcə qaldı.

Nəhayət, Yanar Kürə dilə gəldi:

- Mən böyük və qorxunc Ozam. Sən kimsən və məndən nə istəyirsən? Və Aslan cavab verdi:

- Mən hər şeydən qorxan Qorxaq Aslanam. Sizin yanınıza mənə cəsarət verməyiniz üçün yalvarmağa gəldim. Beləcə, insanların mən verdiyi ada uyğun olaraq gerçəkdən heyvanların şahı ola bilərəm.

- Niyə sənə cəsarət verməliyəm? – deyə sordu Oz.

- Çünki sən sehirbazların ən qüdrətlisisən, səndən başqa kimsə mənə kömək edə bilməz, – deyə cavab verdi Aslan.

Yanar Kürə bir müddət daha da alovlandı, sonra səs eşidildi:

- Mənə Qərbin Zalım Pərisinin öldüyünə dair bir sübut gətirdiyin gün sənə bolluca cəsarət verəcəyəm. Ancaq, nə qədər ki, pəri sağdır sən elə qorxaq ağciyər olub qalacaqsan.

Aslan yaman hirsləndi, amma heç nə deyə bilmədi. O susmuş halda Yanar Kürəyə baxırdı, Kürə elə alovlanırdı ki, istinin təsirindən Aslan quyruğunu qısıb qaçdı. Dostlarının yanına gələndə çox sevindi, sehirbazla olan qorxunc görüşünü onlara danışdı.

- İndi biz nə edək? – Doroti ümidsiz halda soruşdu.

- Bir çarəmiz var, – Aslan cavab verdi; – Gözvuranlar ölkəsinə gedib Qərbin Zalım pərisini tapmalıyıq və onu məhv etməliyik.

- Bəs bunu edə bilməsək? – Doroti soruşdu.

- Onda mən cəsarət almayacam, – Aslan dedi.

- Mənim də ürəyim olmayacaq, – Dəmir Odunçu əlavə etdi.

- Mən də beyinsiz qalacam, – Bədheybət səsini çıxartdı.

- Mən də heç bir zaman Emm xalanı və Henri dayını görməyəcəyəm, – Doroti ağlamağa başladı.

- Ehtiyatlı ol! – yaşıl qız çığırdı, – Göz yaşların ipək paltarını korlayar.

Doroti gözlərini silərək:

- Nə etmək olar; Emm xalanı bir daha görə bilmək üçün belə olsa heç kimsəni öldürmək istəmirəm, ancaq Ozun əmrini yerinə yetirməyə məcburam, – dedi.

Aslan dedi:

- Səninlə birlikdə olacağam, ancaq onu da deyim ki, Zalım Pərini öldürə bilməyəcək qədər qorxağam.

- Mən də sizinlə gedəcəyəm, – bildirdi Bədheybət, – ancaq sizə yardım edə bilməyəcək qədər gicəm.

- Mənim ürəyim yoxdur, deməli, Zalım Pəriyə bir zərər vura bilmərəm, – Dəmir Odunçu söylədi, – amma mən də sizinlə getmək istəyirəm.

Dostlar qərara gəldilər ki, sabah yola düşsünlər. Dəmir Odunçu baltasını yaşıl bir yegə ilə itilədi, bütün oynaqlarını yaxşıca yağladı. Bədheybət özünü təzə samanla doldurdu, Doroti onun gözlərini daha yaxşı görməsi üçün yenidən boyadı. Onlarla çox yaxşı davranan yaşıl qız Dorotinin zənbilini dadlı yeməklərlə doldurdu və Totonun boynundan yaşıl zınqırov asdı.

Dostlar yatıb dincəlməkdən ötrü öz otaqlarına dağılışdılar. Səhər yaşıl xoruzun banlaması və sarayın arxa bağçasındakı yaşıl yumurtalarının üstündə qırt düşən toyuğun qaqqıltısı onları yuxudan oyadanda günəş yenicə doğmuşdu.

## 12. Zalım Pərinin axtarışı

Yaşıl Bakkenbardlı Əsgər dostları Zümrüd Şəhərinin küçələrindən keçirərək Qapı Keşikçisinin otağına qədər ötürdü. Keşikçi onları qarşıladı, eynəklərini çıxarıb böyük bir qutuya qoydu və nəzakətlə şəhər qapılarını onlar üçün açdı.

- Qərbin Zalım Pərisini tapmaq üçün hansı yolla getməliyik? – Doroti Keşikçidən soruşdu.

- Oraya yol yoxdur, – Keşikçi cavab verdi; – Heç kim könüllü olaraq ora getmək istəməz.

- Bəs onda Pərini necə tapacağıq? – qız maraqlandı.

- Narahat olma, Gözvuranlar ölkəsinə çatan kimi Pəri özü sizi tapıb özünə qul edəcək.

- Bilmək olmaz, – Bədheybət qışqırdı, – bizim niyyətimiz onu sıradan çıxartmaqdır.

- O-o, bu başqa məsələ, – Keşikçi söylədi, – Pərini bu günə qədər heç kim öldürə bilməyib, buna görə də təbii olaraq sizi də qul edəcəyi ağlıma gəldi. Ancaq ehtiyatlı olun, bu zalım pəri yaman qəddar və hiyləgərdir, sizin onu yox etmənizə izin verməyə bilər. İndi günbatana doğru getməyə başlayın, gec-tez Pəriyə rast gələcəksiz.

Dostlar Keşikçiyə təşəkkür edib əl edərək onunla sağollaşdılar və günbatana doğru getməyə başladılar. Onların yolu çobanyastığı və qaymaqçiçəyi açmış yumşaq çəmənlikdən keçirdi. Dorotinin əynində hələ də sarayda geydiyi yaşıl ipək paltar vardı, amma qız təəccüblə baxıb gördü ki, paltar indi ağ rəngdədir. Totonun boynundakı yaşıl bantla zınqırov da Dorotinin paltarı kimi ağarmışdı.

Tezliklə Zümrüd Şəhərinin divarları uzaqda qaldı. Yol çətinləşmişdi, buralarda nə evlər, nə fermalar, nə də şumlanmış tarlalar vardı.

Yolçuları qızmar günəş yandırırdı, ətrafdakı dağ-daşın arasında bir sığınacaq yoxdu. Axşam düşəndə, Doroti, Aslan və Toto halsız halda günün altında yanaraq qurumuş otların üstünə uzandılar, Bədheybət və Dəmir Odunçu isə onların keşiyini çəkirdi.

Qərbin Zalım Pərisinin bircə gözü vardı, amma bu göz teleskop kimi güclüydü və hər şeyi görürdü. Həmin axşam Pəri sarı qəsrinin eyvanında əyləşib öz torpaqlarına baxırdı. Birdən Dorotini və onun dostlarını gördü, bərk qəzəbləndi. Pəri boynundan asılmış gümüş düdüklə fit çaldı. O andaca qəsrin yanında bir sürü boz qurd peyda oldu. Onların güclü pəncələri, iti dişləri və qəddar sifətləri vardı.

- Haydı, qaçın şərqə, orda çağırılmamış qonaqlar var, parçalayın onları! – qoca Pəri əmr etdi.

- Onları özünə qul etməyəcəksən? – qurd sürünün başçısı soruşdu.

- Yox. Onlardan biri samanla doludur, o birisi dəmirdəndir, üçüncüsü bir qızdır, dördüncüsü Aslandır. Onlardan bir xeyir gəlməz. Parçalayın, vəssalam.

- Yaxşı, - başçı dedi və qurdlar əmri yerinə yetirməyə götürüldülər.

Xoşbəxtlikdən, Bədheybət və Dəmir Odunçu yatmamışdılar, onlar yaxınlaşan düşmənləri gördülər.

- Mən indi onlara göstərərəm, – Dəmir Odunçu dedi, – sən mənim arxamda gizlən, onları mən qarşılayacam.

İtilədiyi baltasını götürüb qurdların başçısı ona hücum edəndə bir zərbəylə başını bədənindən ayırdı, qurdların başçısı o saat gəbərdi. Başqa bir qurd yenə Odunçunun üstünə atıldı, o da başsız qaldı. Sürüdə qırx qurd vardı, Odunçu qırx dəfə baltasını qaldırıb endirdi, döyüş qurtaranda bir dənə də sağ qurd qalmamışdı.

Odunçu baltasını yerə qoyub Bədheybətin yanında əyləşdi. Bədheybət dedi:

- Pis deyil, dostum! Yaman döyüşürdün!

Onlar səhərin açılmasını gözlədilər. Doroti yuxudan oyananda üst-üstə qalaqlanmış qıllı qurd ölülərini görüb qorxmuşdu, ancaq Dəmir Odunçu gecə baş verənləri qıza danışdı və Doroti onları xilas etdiyinə görə Odunçuya təşəkkür etdi. Sonra Doroti səhər yeməyinə oturdu və dostlar təkrar yola düşdülər.

Həmin səhər Zalım Pəri qəsrdən çıxıb çox uzaqları görən gözüylə ətrafa baxdı. Bütün qurdların öldürülmüş olduğunu gördü. Qurdlar məhv olmuşdu, yolçular isə onun ölkəsində hələ də yollarına davam edirdilər. Pəri yenə qəzəbləndi, gümüş düdüklə fit çaldı.

Bir anda göy üzünü qaraldacaq qədər çox sayda olan vəhşi qarğa sürüsü ona doğru uçub gəlməyə başladı. Zalım Pəri Qarğaların Kralına dedi:

- Bu saat bu yadellilərə tərəf uçun; gözlərini çıxarın, özlərini isə parçalayın.

Vəhşi qarğalar böyük bir sürü halında Doroti və yol yoldaşlarına doğru uçmağa başladılar. Kiçik qız onları görüb qorxuya düşdü, ancaq Bədheybət onları sakitləşdirdi:

- İndi savaş sırası məndədir; hamınız yanımda yerə uzanın və sizə heç bir şey olmayacaq.

Ayaq üstə dayanıb qollarını açan Bədheybətdən başqa hamısı yerə uzandılar. Qarğalar onu görəndə, müqəvva görən bütün quşlar kimi qorxuya düşdülər və yaxınlaşmağa cəsarət etmədilər. Ancaq Kral Qarğa qarıldadı:

- Bu samanla doldurulmuş adi müqəvvadır, indi mən onun gözlərini dimdikləyəcəm.

Bu sözlərlə Kral Qarğa Bədheybətin üstünə uçdu. Bədheybət qarğanı tutub başını ölüncəyə qədər burdu. O biri qarğa Bədheybətin gözünü çıxarmaq istədi, amma müqəvva onun da başını üzüb tulladı. Qarğa dəstəsində cəmi qırx qarğa vardı, Bədheybət onların hamısının boynunu üzdü. Sonra yol yoldaşlarına ayağa qalxmalarını söylədi, dostlar yenə yollarına davam etdilər.

Zalım Pəri görəndə ki, onun fədakar qarğaları ölüb, lap özündən çıxdı, gümüş düdüyünü çıxarıb üç dəfə çaldı. Bunun ardınca havada dəhşətli vızıltı səsi eşidildi, minlərcə qara arı uçaraq ona tərəf gəlməyə başlamışdı.

Pəri onlara əmr etdi:

- Uçun o yadların yanına və ölüncəyə qədər onları sancın!

Arılar o saat dönüb vızıltiyla Doroti və dostlarına tərəf uçmağa başladılar. Dəmir Odunçu onları görüb dostlarına xəbər verdi və Bədheybət tez nə edəcəklərinə qərar verdi:

- Tez içimdəki samanı boşalt, Dorotini, Totonu, Aslanı samanın altında gizlət. Saman onları arılardan qoruyar, – dedi Dəmir Odunçuya. Odunçu elə də etdi. Doroti, qucağındakı Toto və düz yanlarındakı Aslan samanla tamam örtülmüşdülər.

Arılar uçub gələndə Dəmir Odunçudan başqa sancmağa bir kimsəni tapmadılar. Odunçunun üstünə şığıyıb sancmağa başladılar, iynələri Dəmir Odunçunun zirehində qırıldı. Arılar iynələri olmasa yaşaya bilmədiklərinə görə hamısı ölüb Dəmir Odunçunun ayaqlarının altına düşdülər və yerdə kiçik kömür təpəciyinə bənzəyən kümələr əmələ gəldi.

Saman altında gizlənmiş Doroti, Toto və Aslan ayağa qalxdılar, qız samanı Bədheybətin içinə dolduran Dəmir Odunçuya yardım etdi. Dostlar yenidən yola düşdülər.

Zalım Pəri qara arıların yerdə kiçik kömür topası kimi qaldığını görüncə elə qəzəbləndi ki, ayağını yerə vurdu, saçlarını yoldu və dişlərini qıcadı. Axırda Pəri tabeliyində

olan on beş Gözvuranı çağırdı, onlara sivri nizələr verib əmr etdi ki, şərqə gedib yad adamları öldürsünlər.

Gözvuranlar o qədər də qoçaq deyildilər, amma çarəsiz qalıb əmri yetirməli oldular; Dorotiyə yaxınlaşana qədər irəlilədilər, ancaq Aslan şiddətli bir nərə ilə onların qarşısına sıçrayanda elə qorxdular ki, var gücləriylə qaçmağa başladılar.

Qəsrə qayıdanda Zalım Pəri onları qayışla o ki var döydü, sonra tarlaya işləməyə göndərdi, özü isə oturub nə edəcəyini düşünməyə başladı. Bu yadelliləri məhv etməkdən ötrü qurduğu hər planın nə üçün uğursuzluqla sona çatdığını başa düşə bilmirdi. Ancaq Pəri çox güclü və hiyləgər idi, fikirləşib bir çarə tapdı.

Pərinin taxçasında zümrüd və yaqutla bəzədilmiş bir Qızıl Papaq vardı, papaq sehirli idi. Papağın sahibinin hər əmri yerinə yetirən Uçan Meymunları üş dəfə çağıra bilərdi. Ancaq heç kimsə bu qəribə canlılara üç dəfədən artıq əmr edə bilməzdi. Qərbin Zalım Pərisi artıq iki dəfə Meymunların köməyindən istifadə etmişdi. Birinci dəfə Uçan Meymunlar Gözvuranları tabe edib qula çevirmişdilər. İkinci dəfə Uçan Meymunlar böyük Ozun qoşununu geri çəkilməyə məcbur etmişdilər. Qızıl Papağı yalnız bircə dəfə işlətmək haqqı qalmışdı və başqa güclərini tükəndirmədən bu haqqını xərcləmək istəmirdi. Ancaq qorxunc qurdları, vəhşi qarğaları və sancan arıları öldüyünə və nökərlərinin Qorxaq Aslan tərəfindən qovulduğuna görə Doroti və dostlarını yox etmək üçün təkcə bir yolu qalmışdı.

Zalım Pəri papağı taxçadan çıxarıb başına qoydu. Sonra sol ayağı üstə dayanaraq bunları dedi:

- Ep-pe, pep-pe, kak-ke!

Sonra sağ ayağı üstə dayanıb dedi:

- Hil-lo, hol-lo, hel-lo!

Bundan sonra Pəri hər iki ayağı üstə dayanıb ciyildədi:

- Ziz-zi, zuz-zi, zak!

Ovsun baş tutdu. Göy üzü qaraldı, uğultu, hay-küy, qəhqəhə səsləri eşidildi. Qara bulud yerə çökəndə, məlum oldu ki, Zalım Pəri saysız-hesabsız Uçan Meymunların əhatəsindədir. Meymunların Başçısı Zalım Pəriyə yaxınlaşdı:

- Sən bizi üçüncü və sonuncu dəfə çağırırsan. Nə istəyirsən?

- Mənim ölkəmdə çağırılmamış qonaqlar var, Aslandan başqa onların hamısını öldürün. – Pəri əmr etdi; – Aslanı qəsrimə gətirin, onu at kimi yəhərləyib işlədəcəm.

- Əmrinizə tabe oluruq, – meymunların başçısı dedi; sonra böyük bir gurultuyla Doroti və dostlarının olduğu yerə getməkdən ötrü havalandılar.

Uçan Meymunlar öz işlərini yaxşı bilirdilər. Onlardan bir dəstəsi Dəmir Odunçunu tutub göyə qaldırdılar, qayaların üstündən uçuruma atdılar. Odunçu daşlara dəyib elə əzilmişdi ki, danışmaq bir yana qalsın, heç zırıldaya da bilmirdi.

O biri Meymunlar Bədheybətin üstünə cumub, içindəki samanı dağıdıb tökdülər. Papağını, çəkmələrini və paltarlarını toplayıb hündür bir ağacın təpəsinə fırlatdılar.

Başqa bir meymun dəstəsi möhkəm iplərlə Aslanı tutub onu elə sarıdılar ki, artıq nə dişləyə nə də cırmaqlaya bilərdi. Sonra, qaçmasın deyə, onu qaldırıb Pərinin qəsrindəki ətrafı dəmir qəfəsli kiçik bir bağçaya apardılar.

Ancaq Dorotiyə heç toxunmadılar. O Totonu qucağına bərk-bərk sıxıb dəhşət içində dostlarının başına gətirilənləri seyr edirdi. Qız başa düşmüşdü ki, onu da öldürəcəklər. Meymunların Başçısı qollarını açaraq və çirkin üzündə dəhşətli bir təbəssümlə qıza yaxınlaşdı; ancaq qızın alnındakı Xeyirxah Pəridən qalan öpücük izini görüncə yerindəcə donub qaldı və əmr etdi ki, qıza dəyməsinlər.

- Ona toxunmağa cürət edə bilmərik, – dedi o biri meymunlara, – bu qızı Xeyir qüvvələr qoruyur, Xeyir isə Şərdən güclüdür. Biz yalnız qızı Zalım Pərinin qəsrinə apara bilərik.

Meymunlar nəzakətlə Dorotinin qollarından tutub qəsrə tərəf uçmağa başladılar. Qızı giriş qapısının önündə yerə qoyanda Meymunların başçısı Zalım Pəriyə belə dedi:

- Sizə əlimizdən gəldiyi qədər itaət etdik. Dəmir Odunçuyla Bədheybəti öldürdük, Aslanı isə qəsrə gətirdik. Lakin biz bu qıza və onun qucağındakı itə zərər vura bilmərik. Sənin üzərimizdəki hakimiyyətin artıq sona çatdı, bir də bizi heç vaxt görməyəcəksən.

Sonra Uçan Meymunlar gülərək, gurultu qopararaq qanadlandılar və qısa vaxt ərzində gözdən itdilər.

Zalım Pəri Dorotinin alnındakı qırmızı izi görüb çox narahat oldu. Deməк, nə Pəri, nə də Uçan Meymunlar bu qıza toxuna bilməzdi. Dorotinin ayaqlarındakı gümüş başmaqları görəndə isə Pəri qorxudan tir-tir əsdi, çünki o, bu başmaqların sehirli gücüylə tanış idi. Əvvəlcə Pəri hər şeyi atıb uzaqlara qaçmaq istədi, sonra Dorotinin məsum gözlərinə baxıb anladı ki, gümüş ayaqqabıların ona verdiyi gücdən xəbəri yoxdur. Zalım Pəri kinli-kinli güldü və fikirləşdi: "Eybi yox, mən bu qızı özümə kəniz edərəm, sehirli başmaqları isə özümə götürərəm". Dorotiyə üz tutub qəddar və sərt səslə:

- Gedək mənimlə. Yadında saxla ki, dediyimi etməlisən, yoxsa Dəmir Odunçu və Bədheybət kimi səni də yox edərəm.

Doroti Pərinin arxasınca getdi, onlar çoxlu otaq və geniş salonlardan keçib saray mətbəxinə gəldilər. Pəri Dorotiyə bütün qabları yumağı, mətbəxi süpürməyi əmr etdi və tapşırdı ki, ocağı sönməyə qoymasın.

Doroti etiraz etmədi, işləməyə başladı, əlindən gəldiyi qədər iş haqqında düşünməyə çalışırdı; Zalım Pərinin onu öldürməməsinə sevinmişdi.

Dorotini işlə yükləyən Pəri Aslanın yanına getdi. O, Aslanı at kimi yəhərləyib karetinə qoşmaq istəyirdi. Aslanın saxlandığı dəmir qəfəsi açanda, Aslan nərə çəkib qarının üstünə atıldı. Pəri qorxudan qəfəsin qapısını tez bağladı.

- Mənim karetimi daşımasan, sənə yemək verməyəcəm, acından öləcəksən, – Pəri Aslana hədə-qorxu gəldi.

Bir neçə gün Aslana yemək vermədilər. Pəri hər gün onun yanına gəlib soruşurdu:

- Hə, karetimi daşıyacaqsan?

Aslan qəzəblə cavab verirdi:

- Yox. Mənə yaxınlaşsan, səni dişləyərəm.

Aslanın belə dəyanətli olmasının səbəbi vardı. Gecələr Doroti ona yemək gətirirdi. Yeyəndən sonra Aslan uzanır, Doroti də başını onun dolaşıq tüklü iri kəlləsinə söykəyirdi. Dostlar bir-birinə təsəlli verərək, söhbət edir, buradan qaçmaq haqqında düşünürdülər. Lakin qəsrdən qaçmaq mümkün deyildi. Gözvuranlar gecə-gündüz qəsrə keşik çəkirdilər, çünki onlar Zalım Pərinin sədaqətli qullarıydılar, onlar Pəridən çox qorxurdular.

Hər gün Doroti mətbəxdə çalışırdı, Zalım Pəri onu əlindəki köhnə çətiriylə hədələyirdi, amma qıza toxunmaqdan qorxurdu, Doroti isə bunu bilmirdi, özünə və Totoya görə narahat olurdu. Bir dəfə qarı Totou çətirlə vurmuşdu, Toto da onun ayağından dişləmişdi, amma yaradan qan axmadı, Pəri o qədər kinli və ziyankar idi ki, bədənindəki qan çoxdan qurumuşdu.

Dorotinin qara günləri gəlmişdi. O, başa düşürdü ki, daha Kanzasa qayıda bilməyəcək. Hərdən qız saatlarla əyləşib acı-acı ağlayırdı, Toto isə ətrafında vurnuxur, Dorotinin gözlərinə baxırdı, özü də qəmgin-qəmgin zingildəyirdi. Toto üçün heç bir fərqi yox idi, istər Kanzas olsun, istər Oz ölkəsi, təki Dorotinin yanında qalsın. İt görürdü ki, sahibəsi əzab çəkir, özü də əzab çəkirdi.

Zalım Pəri Dorotinin gümüş başmaqlarını ələ keçirmək istəyirdi. Arılar, qurdlar, qarğalar çoxdan ölmüşdü. Qızıl Papaq sehirli gücünü itirmişdi, odur ki, gümüş başmaqlar Pəriyə lazımdı. Pəri həmişə Dorotini güdür, başmaqları oğurlamaq istəyirdi. Doroti bu başmaqlara elə öyrəşmişdi ki, onları yalnız çiməndə və yatanda çıxarırdı. Qarı qaranlıqdan qorxurdu, ona görə Dorotinin qaranlıq otağına girib başmaqları götürməyə ürək etmirdi. Pəri sudan da qorxurdu, Doroti çiməndə, ona yaxınlaşmırdı. Pəri heç üzünü də yumurdu, elə edirdi ki, bir damcı su ona dəyməsin.

Qərbin Pərisi çox hiyləgər və xain idi, o, başmaqları oğurlamaq üçün bir plan qurdu. Pəri mətbəxə bir məftil bağladı, ovsun vasitəsilə məftili görünməz etdi. Doroti mətbəxə gələndə,

ayağı ilişdi və qız yıxıldı, başmağın biri ayağından çıxdı. Doroti özünə gəlməmiş, Pəri bir göz qırpımında başmağı götürdü və arıq, sümükləri çıxmış ayağına keçirtdi.

Zalım Pəri hiyləsinin baş tutduğuna çox sevinirdi, ayaqqabının bir tayı onda olduğuna görə demək güclərin yarısı da onun idi və Doroti artıq bu gücdən necə istifadə edəcəyini bilsə belə əlindən bir şey gəlməzdi.

Gözəl ayaqqabılarından birini itirən qız hirsləndi və pəriyə belə dedi:

- Başmağımı qaytarın!
- Bircə bu qalmışdı! – acıqlı-acıqlı cavab verdi pəri, – indi o sənin deyil, mənim başmağımdır!
- Sən çox pissən, - bağırdı Doroti. – Başmağımı almağa heç bir haqqın yoxdur!
- Başmağı geri qaytaran deyiləm, – Pəri gülərək dedi, – bir gün o biri başmağı da səndən alacam, görərsən!

Bu hədəni eşidən Doroti elə hirsləndi ki, yanındakı bir vedrə suyu Pərinin başından əndərib onu curumbur etdi. Pəri dəhşət içində qışqırıb Dorotinin gözləri önündə kiçilməyə və əriməyə başladı. Doroti heyrətlə baxırdı.

- Gördün, nə etdin! – Qarı qışqırdı. – İndi mən tamam əriyəcəm!
- Bağışlayın, mən bunu istəmirdim... – Doroti Pərinin qənd kimi yavaş-yavaş əriməsinə mat qalmışdı.
- Bilmirdin ki, mənim ölümüm sudadır? – Pəri inildədi.
- Əlbəttə yox, – Doroti cavab verdi, – hardan bilə bilərdim?
- Onda bil ki, bir azdan tamam yox olacam, torpaqlarım sənə qalacaq. Mən həmişə hiyləgər və zalım olmuşam, amma heç vaxt ağlıma gəlməzdi ki, balaca bir qız məni məhv edib pisliklərimi sona çatdıracaq. Bax, gör nə etdin...

Bu sözlərlə Zalım Pəri qəhvə rəngində qara bir gölməçəyə dönüb mətbəxin təmiz taxta döşəməsiylə axmağa başladı. Gerçəkdən əriyib getdiyini görən Doroti bir vedrə suyu bu çirkabın üstündən axıtdı. Sonra qapının çölünə doğru süpürdü. Yaşlı qadının artıq-urtuğunu bir əski parçasıyla təmizlədikdən sonra gümüş ayaqqabını ayağına keçirtdi. Axır ki azadlığa qovuşmuşdu. Aslana Şərqin Zalım Pərisinin öldüyünü və artıq bu yad ölkədə əsir olmadıqlarını söyləmək üçün həyətə qaçdı

## 13. Qurtuluş

Qorxaq Aslan Zalım Pərinin bir vedrə suyla əriməsinə çox sevinmişdi, Doroti də qəfəsi açıb Aslanı azad etdi. Sonra ilk növbədə qəsrə gedib bütün Gözvuranları bir yerə topladılar, artıq kölə olmadıqlarını onlara söylədilər.

Onlarla qəddarcasına davranan Zalım Pərinin dəmir yumruğu altında illərdən bəri çalışmaqda olan Gözvuranlar bu xəbərə çox sevindilər. Bu günü ziyafət və rəqs bayramı elan etdilər.

- Dostlarımız Bədheybət və Dəmir Odunçu bizimlə olsaydılar, lap xoşbəxt olardım, - Aslan ah çəkdi.
- Səncə onları qurtara bilmərikmi? – soruşdu Doroti.
- Biz buna çalışmalıyıq, - deyə cavab verdi Aslan.

Dostlar sarı Gözvuranları çağırıb kömək istədilər. Gözvuranlar onları azad etmiş Dorotiyə həmişə kömək etməyə hazır olduqlarını bildirdilər. Doroti ən ağıllı, qoçaq Gözvuranları seçib dostlarını axtarmağa yollandı. Onlar iki gün, iki gecə yol getdilər, dağların arasında əzilmiş və tamam dağılmış Dəmir Odunçunu tapdılar. Odunçunun baltasının sapı qırılmış, baltanın ülgücü pas atmışdı.

Gözvuranlar ehtiyatla Dəmir Odunçunu qaldırıb sarı qəsrə apardılar. Dostunun tamam dağıldığını görən Doroti acı-acı ağladı, Aslan da yaman məyus olmuşdu.

Qəsrə gəlib çatanda Doroti Gözvuranlardan soruşdu:

- Aranızda dəmirçi varmı?

- Hə, əlbəttə; özü də çox yaxşı dəmirçilərimiz var – deyə cavab verdilər.

- Onda həmin dəmirçiləri qəsrə göndərin, - qız tapşırdı.

Tezliklə bir neçə dəmirçi alətləriylə birlikdə Dorotinin yanına gəldi. Doroti onlara tapşırdı ki, Dəmir Odunçunun bədənini əvvəlki şəklə salsınlar, bütün sınmış yerlərini lehimləsinlər, əzilmiş yerlərini düzəltsinlər.

Ustalar Dəmir Odunçunun bədəninə hər tərəfdən baxıb dedilər ki, onu təmir etmək olar. Onlar Dəmir Odunçunu qəsrdəki otaqların birinə aparıb, üç gün, üç gecə yorulmadan işlədilər, çəkiclə vurdular, lehimlədilər, sürtdülər, yapışdırdılar. Nəhayət, Dəmir Odunçu əvvəlki görkəmini aldı, onun bədənində bir neçə yamaq olsa da, Odunçu zahiri görkəmə o qədər də əhəmiyyət verən biri olmadığına görə bu yamaqları o qədər də vecinə almamışdı.

Dəmir Odunçu öz ayaqları ilə Dorotinin yanına gəlib onu xilas etdiyinə görə qıza təşəkkür etdi, elə qəhərləndi ki, göz yaşlarını tuta bilmədi, Doroti oynaqları paslanmasın deyə hər göz yaşı damlasını önlüyünün ətəyi ilə silmək məcburiyyətində qaldı. Aslan isə quyruğu ilə öz gözlərini o qədər silmişdi ki, quyruğunu günəşdə qurutmaq üçün həyətə çıxdı.

Doroti başlarına gələnləri ona danışanda Dəmir Odunçu:

- Keşkə Bədheybət də bizimlə olsaydı... – deyə köks ötürdü.

- Biz onu tapmalıyıq, - Doroti dedi və yenə Gözvuranları çağırdı. Hamı Bədheybəti axtarmağa yollandı. Uzun müddətdən sonra bir ağacın başında Uçan Meymunların atdığı nimdaş paltarları gördülər. Ağac elə hündür, gövdəsi elə hamar idi ki, onun başına çıxmaq mümkün deyildi. Dəmir Odunçu dedi:

- İndi bu ağacı kəsərəm, paltarları asanlıqla götürərik.

Dəmirçilər Dəmir Odunçunu təmir edəndə, qızıl ustası olan bir Gözvuran baltanın sapını qızıldan düzəltmişdi. Başqa ustalar baltanın tiyəsini cilalamışdılar və indi balta gümüş kimi parıldayırdı.

Dəmir Odunçu sözünü tamamlayıb işə başladı və təzə iti baltasıyla ağacı kəsib yerə aşırdı, Bədheybətin paltarları da otların üstünə düşdü.

Doroti və Gözvuranlar paltarları toplayıb qəsrə apardılar, içərisini təzə təmiz samanla doldurdular. Bax, bu da Bədheybət! Əvvəllərdə olduğu kimi sağlam görünürdü, onu xilas etdiklərinə görə hər kəsə çoxlu-çoxlu təşəkkür etdi.

Nəhayət, dostlar yenidən bir yerdə idilər, hər şeyin bol və rahat olduğu Sarı Qəsrdə bir neçə gün dincəlməyi qərara aldılar. Ancaq Doroti Em xalasını xatırladı:

- Gərək Zümrüd Şəhərinə qayıdıb sehirbaz Ozdan tələb edək ki, vədinə əməl etsin, - Doroti dostlarına dedi.

- Hə, - Dəmir Odunçu dedi, - axırı mən öz ürəyimi almalıyam.

- Mən isə öz beynimi, – Bədheybət əlavə etdi.

- Mən də cəsarətimi almalıyam, - Aslan fikir içində söylədi.

- Mən də Kanzasa geri qayıtmalıyam, – Doroti qışqırıb əl çaldı. - Gəlin, dostlar, sabah Zümrüd Şəhərinə yollanaq.

Ertəsi gün onlar Gözvuranlarla vidalaşmağa başladılar. Gözvuranlar heyifsilənirdilər ki, Doroti onların ölkəsindən gedir. Ən çox da Dəmir Odunçunu bəyənmişdilər, ona yalvarırdılar qalıb Sarı Ölkənin hökmdarı olsun, lakin dostların qərarının qəti olduğunu görüb Gözvuranlar onlara hədiyyələr verdilər. Toto və Aslana qızıl xalta, Dorotiyə almazlarla bəzədilmiş qızıl bilərzik, Bədheybətə büdrəyib yıxılmasın deyə dıstəyi qızıldan olan əsa, Dəmir Odunçuya isə gümüşlə işlənmiş qızıl yağqabı verdilər. Dostların hər biri Gözvuranlara ayrı-ayrılıqda gözəl sözlər söyləyib təşəkkürlərini bildirdilər və qolları ağrıyıncaya qədər onların əllərini sıxıb vidalaşdılar.

Doroti Zalım Pərinin dolabından yemək götürmək istəyərkən dolabda Qızıl Papaq olduğunu gördü. Doroti Qızıl Papağın sehirli gücündən xəbərsizdi, sadəcə Papaq onun xoşuna gəlmişdi. Öz şlyapasını səbətə qoyub bu gözəl papağı başına qoydu.

Sonra yola hazırlaşıb Zümrüd Şəhərə doğru getməyə başladılar; Gözvuranlar da onları alqışlarla yola saldılar.

## 14. Uçan Meymunlar

Yəqin xatırlayırsız, Qərbin Zalım Pərisinin sarı qəsrindən Zümrüd Şəhərinə nəinki yol, heç ensiz cığır da yox idi. Pəri ölkəsinə gəlmiş dostları görəndə, onların dalınca uçan Meymunları göndərmişdi, Meymunlar da Dorotiylə Aslanı hava ilə gətirmişdi. Qaymaqçiçəyi və çobanyastığı çiçəkləri ilə örtülü olan tarlada yolu tapmaq çox çətin idi. Dostlar günçıxana doğru getməli olduqlarını bilirdilər. Ancaq axşam düşəndən, günəş qeyb olandan sonra hansı tərəfin günçıxan, hansı tərəfin günbatan olduğunu anlaya bilmədilər və yolu azdılar. Yenə də Ayın parlaq işığıyla yerüzü aydınlığa bürünəndə yürüməyə davam etdilər və gözəl qoxulu qızıl çiçəklərin üzərinə uzanıb yuxuya getdilər, təkcə Dəmir Odunçu və Bədheybət hər zaman olduğu kimi ayaq üstə qalıb gözlədilər.

Səhər oyananda göy üzü tutqun idi, günəş görünmürdü, amma dostlar hansı tərəfə gedəcəklərini bilirlərmiş kimi yollarına davam etdilər.

Doroti dedi:

- Tez-tez getsək, yəqin, harasa bir yerə çatarıq.

Günlər keçirdi, əlvan güllü-çiçəkli tarlalar isə qurtarmırdı. Bədheybət deyinməyə başladı:

- Deyəsən, azmışıq. Zümrüd Şəhərini tapmasam, beyinsiz qalacam!

- Mənim də ürəyim olmaz, - Dəmir Odunçu əlavə etdi, - Daha səbrim qalmadı, Ozun yanına getmək istəyirəm və razılaşın ki yol çox uzandı.

Qorxaq Aslan dedi:

- Bilirsiniz, - Aslan mızıldadı,- bir yerə gedib çatmadan sonsuza qədər yürüməyə çəsarətim yoxdur.

Doroti də cəsarətini itirmişdi. Çəmənlərin üstünə çöküb kədərlə dostlarına baxırdı. Toto elə yorulmuşdu ki, burnunun ucunda uçan kəpənəyi belə tutmağa halı yox idi. Toto dilini çıxarıb, ləhləyir, kədərlə Dorotiyə baxırdı, sanki soruşurdu, indi nə edək?

- Bəlkə, çöl siçanlarını köməyə çağıraq? - Doroti soruşdu. – Siçanlar, yəqin, Zümrüd Şəhərini tanıyırlar.

- Əlbəttə göstərərlər, - Bədheybət dedi, - Niyə bu daha öncə ağlımıza gəlməyib?

Doroti Siçan Şahzadəsinin verdiyi düdüyü boynundan asmışdı. Qız düdüyü çaldı. Bir azdan xırda pəncələrin xışıltısı eşidildi, boz siçanlar Dorotini dövrəyə aldılar. Şahzadə Siçan da onların arasında idi, ciyildəyərək:

- Dostlarım, sizin üçün nə edə bilərəm? – sordu.

- Azmışıq, Zümrüd Şəhərinə gedən yolu bizə göstərə bilərsinizmi? - Doroti cabab verdi.

- Canla-başla göstərərik, - Şahzadə cavab verdi; - ancaq şəhər çox uzaqda qalıb, siz yanlış tərəfə getmisiniz. Siçanlar Şahzadəsi Dorotinin başındakı Qızıl Papağı görüb, - niyə Papağın gücündən istifadə edib Uçan Meymunları çağırmamısan? – dedi; - onlar bir saatdan daha az vaxt ərzində sizi Zümrüd Şəhərə çatdırarlar.

- Bu papağın sehirli olduğunu bilmirdim, - dedi Doroti çaşqınlıq içərisində. Papaqdan necə istifadə edirlər?

- Ovsun papağın astarında yazılıb. Dayanın, hələ Meymunları çağırmayın, biz qaçıb gizlənməliyik. Onlar həmişə biz siçanları incidirlər.

- Bəs bizə toxunmazlar? - Doroti narahat oldu.

- Yox, yox! Meymunlar Papaq sahibinin əmrlərini yerinə yetirirlər. Salamat qalın! - Bu sözlərlə Şahzadə öz siçanları ilə birgə gözdən itdi.

Doroti Qızıl Papağın içinə baxıb astarında bir yazı gördü. Qız diqqətlə ovsun sözlərini oxuyub, Papağı başına qoydu.

- Ep-pe, pep-pe, kak-ke! - dedi Doroti sol ayağı üstə duraraq.

- Nə dedin? – deyə sordu qızın nə etdiyindən xəbərsiz olan Bədheybət.

- Hil-lo, hol-lo, hel-lo! - sağ ayağı üstə dayanaraq davam etdi Doroti.

- Hello! - əsil Kanzaslı amerikan kimi Dəmir Odunçu sakitcə cavab verdi.

- Ziz-zi, zuz-zi, zak! – Qız iki ayağı üstündə dayandı.

O an səs-küy, qəhqəhə səsləri eşidildi, nəhəng meymun sürüsü yolçulara yaxınlaşdı. Meymunların Başçısı Dorotiyə təzim edib soruşdu:

- Əmriniz nədir?

- Biz Zümrüd Şəhərinə getmək istəyirik, amma yolu azmışıq, - Doroti cavab verdi.

- Sizi daşıyacağıq, - dedi və iki meymun o saat Dototinin qollarından tutub onu göyə qaldırdılar. Başqa meymunlar Bədheybəti, Dəmir Odunçunu və Aslanı yerdən qaldırdı, Totonu isə balaca bir meymun aparırdı, it meymunu dişləmək istəsə də meymun ona fikir vermirdi.

Dəmir Odunçu və Bədheybət əvvəlcə çox qorxdular, axı neçə gün əvvəl həmin bu Meymunlar onları məhv etmişdi. Ancaq bu dəfə meymunların onlara pislik etməyəcəyini başa düşüb aşağıdakı bağçaları və ormanları seyr edib uçuşun ləzzətini çıxarmağa başladılar.

Dorotini qolları üstündə əyləşdirib rahatca aparan iki ən böyük meymundan biri onların başçısıydı. Dorotini çarpaz qolları üstə oturtmuşdular və qıza bir zərər gəlməməsinə çox diqqət edirdilər. Doroti:

- Niyə siz Qızıl Papağın sahibinə tabe olursuz? – deyə soruşdu meymunlardan.

- Bu uzun əhvalatdır, - Meymunların Başçısı cavab verdi, - ancaq yolumuz da uzun olduğuna görə istəsən sənə danışaram.

- Çox sevinərəm, - deyə cavab verdi qızcığaz.

- Nə vaxtsa, biz azad bir xalq idik. Meşədə yaşayırdıq, ağaclarda atılıb-düşürdük, meyvələrdən, qozlardan yeyirdik, heç kimə də tabe olmurduq. Bəlkə biz çox dəcəllik edirdik... Meymunlar qanadı olmayan heyvanların quyruğundan dartır, quşları qovur, insanlara qoz atırdı. Biz şən və qayğısız yaşayırdıq. Bu lap qədimlərdə olub, o zaman sehirbaz Oz hələ göy üzündən yerə enməmişdi, hələ ölkənin hökmdarı deyildi.

O zaman uzaq şimalda gözəl bir şahzadə qız yaşayırmış, bu şahzadə güclü sehirbaz imiş. Şahzadə öz sehrindən insanların yaxşılıqları üçün istifadə edirmiş və yaxşı olan heç bir kimsəyə pislik etməzmiş. Yaqutdan tikilmiş möhtəşəm bir sarayda yaşayan bu şahzadənin adı Gayelette idi. Onu hamı sevirdi, ancaq onun ətrafındakı oğlanlar onun qədər gözəl və ağıllı bir qızın sevməyəcəyi qədər axmaq və çirkin idilər. Bir dəfə Gayelette gözəl, güclü və ağıllı bir gənclə tanış olur, qərara alır ki, oğlan bir az böyüyəndən sonra onunla evlənsin. Gayelette oğlanı sarayına aparıb oğlanı daha gözəl, daha güclü və ağıllı etməkdən ötrü bütün sehrini ona sərf etməyə başlayır. Oğlanın adı Quelala idi, o, ölkənin ən yaraşıqlı, ağıllı kişisinə çevrilmişdi, o qədər yaraşıqlıydı ki Gayelette onunla evlənməkdən ötrü tələsməyə başlamışdı.

O zamanlar Gayelettenin sarayının yanındakı meşədə yaşayan babam Uçan Meymunların şahı idi. Özü də, babam yaman zarafatcıl idi. Bir dəfə, toydan bir gün qabaq babam öz rəiyyətləri ilə çayboyu uçanda Quelalanın gəzintiyə çıxdığını görüb. Quelelanın əynində çəhrayı ipək və bənövşəyi məxmərdən geyim varmış. Babam onunla zarafat etmək istəyib. Babamın əmriylə Meymunlar Quelalanı tutub havaya qaldıraraq çaya atıblar.

- Üz görək, necə üzürsən, - babam Quelelaya deyib, - hələ paltarlarını su nə hala salmış bir baxaq.

Quelala ağıllı və taleyin ondan üz döndərmədiyi bir insan idi. Suyun səthinə çıxanda güldü və sahilə üzdü. Ancaq ona tərəf qaçan Gayelette ipək və məxmər paltarının xarab olduğunu gördü.

Şahzadə çox hirslənmişdi və bunu kimin etdiyini təbii ki bilirdi. Sevgilisini çaya atdığına görə babama hirsləndi, əmr etdi ki, bütün Uçan Meymunlar saraya gəlsinlər. Əvvəlcə Gayelette meymunların qanadlarını bağlayıb suya atmaq istədi, babam şahzadəni rəhmə gətirməkdən ötrü yalvarmağa başladı, axı meymunlar suda boğulardı. Quelela da onlar haqqında xoş sözlər söylədi, meymunları cəzalandırmamasını xahiş etdi. Belə olduğunda Gayelette şərt kəsdi: Uçan Meymunlar Qızıl Papaq sahibinin üç əmrini yerinə yetirəcəkdilər. Qızıl Papağı Gayelette toy hədiyyəsi olaraq sevgilisi Quelalaya bağışladı, Papaq çox qiymətli idi. Babam o dəqiqə razılaşdı. O vaxtdan biz Qızıl Papaq sahibinin əmrlərini yerinə yetiririk.

- Bəs sonra nə oldu? – Doroti soruşdu.

- Əvvəlcə Papaq Quelalada idi, o bizə əmr etdi ki, meşəyə gedək və birdə sarayda görünməyək. Sonra Qərbin Zalım Pərisi Papağı ələ keçirtdi, məcbur etdi ki, biz Gözvuranları Pərinin qulu edək, sehirbaz Ozun ordusunu qovaq. İndi sən bizim sahibəmizsən, biz üç əmrini yerinə yetirməliyik.

Doroti aşağı baxanda gördü ki, Zümrüd Şəhərinin divarları parlayır. Qız sevinirdi ki, şəhərə belə tez çatıb. Uçmaq rahat olsa da, Doroti çoxdan yerə enmək istəyirdi. Uçan Meymunlar şəhər qapılarının yanında yerə endi. Meymunların başçısı Dorotiyə təzim etdi və Meymunlar uçub getdi.

- Yaxşı uçduq, - Doroti dedi.

- Hə, elə tez gəlib çatdıq ki, həm də başımız dərddən qurtuldu – Aslan təsdiqlədi. – O sehirli papağı da özünlə götürdüyünə görə bəxtimiz gətirib.

## 15. Qorxunc Ozun iç üzü açıldı.

Dörd yolçu şəhər qapılarına yaxınlaşıb zınqırovu çaldılar. Bir neçə dəfə zəng çalandan sonra qapı açıldı və yolçular əvvəlki Keşikçini gördülər.

- Necə? Qayıtmısız? – O, təəccüblə soruşdu.

- Məgər bizi görmürsüz? – Bədheybət dedi.

- Bəs siz Qərbin Zalım Pərisinin yanına getmədiz?

- Orda olmuşuq, - Bədheybət cavab verdi.

- Pəri sizi sağ qaytarıb?

- Onun izi də qalmayıb, çünki əriyib, - Bədheybət dedi.

- Nə yaxşı... Onu kim əritdi?

- Onu Doroti əritdi! – Aslan qürurla dedi.

- Çox əla! – Keşikçi Dorotiyə təzim etdi.

Sonra daha öncə etdiyi kimi, onları kiçik otağına gətirib böyük qutudakı gözlükləri onlara verdi. Bundan sonra qapıdan keçib Zümrüd Şəhərinə girəndə Qapı Keşikçisindən Qərbin Zalım Pərisini əritdiklərini eşidən camaat onları Ozun sarayına qədər ötürdülər.

Yaşıl Saqqallı Əsgər də əvvəlki yerində idi, o, dostları saraya buraxdı, Yaşıl Xidmətçi hər kəsi öz otağına apardı ki, Ozun qəbuluna qədər istirahət etsin.

Əsgər sehirbaz Oza Doroti və dostlarının qayıtmış olduqları xəbərini çatdırdı, onların Qərbin Zalım Pərisini öldürdüklərini söylədi. Ozdan bir səs çıxmadı. Hamı elə bilirdi ki, Oz səyyahları qəbul edəcək, amma belə olmadı. Oz susurdu. Ertəsi gün də Oz susdu. Bir neçə gün keçdi, amma Oz səyyahlarla maraqlanmadı. Dostlar çox hirsləndilər, axı təhlükələrə baxmayaraq, Ozun bütün əmrləri yerinə yetirilmişdi, indi o öz vədlərinə əməl etməliydi.

Bədheybət dözmədi, Yaşıl Xidmətçiyə dedi ki, əgər Oz bizi bu dəqiqə qəbul etməsə, Uçan Meymunları köməyə çağıracaq. Böyük müdrik Oz bunu eşidəndə, yəqin çox qorxdu, çünki xəbər göndərdi ki, sabah qəbul zalında saat ona dörd dəqiqə işləmiş dostları qəbul edəcək. Oz Gözvuranlar ölkəsində Uçan Meymunlarla bir dəfə rastlaşmışdı, daha onlarla üzbəüz gəlmək istəmirdi.

Dörd dost yuxusuz gecə keçirtdi, hər kəs intizarla fikirləşirdi ki, Oz onların arzusunu yerinə yetirəcək, ya yox. Doroti bir qədər mürgülədi və yuxuda Kanzası gördü.

Səhər düz saat doqquzda Yaşıl Saqqallı Əsgər  dostları qəbul otağına apardı. Ona dörd dəqiqə işləyirdi, hər kəs elə bilirdi ki, Ozu əvvəlki qiyafədə görəcək, lakin zalda heç kim yox idi. Dostlar bir-birinə qısılaraq, qapının yanında dayanmışdılar. Otaqdakı vahiməli səssizlik dostların canına üşütmə salmışdı.

Birdən hardansa günbəzin altından bir səs eşidildi:

- Mən böyük əzazil Ozam. Niyə gəlmisiz?

Dostlar hər tərəfə baxdılar, heç kimi görmədilər. Doroti soruşdu:

- Siz hardasız?

- Hər yerdə. – Səs cavab verdi. – Adi adamlar məni görmür. Mən taxtımda oturmuşam, sizinlə danışmağa hazıram.

Həqiqətən, indi səs taxtın altından gəlirdi. Dostlar taxta yaxınlaşıb, sıraya düzüldülər. Doroti başladı:

- Biz gəlmişik ki, vədlərinizi yadınıza salaq.

- Hansı vədlərimi?

- Söz vermişdiniz ki, əgər Qərbin Zalım Pərisini yox etsəm, məni Kanzasa göndərəcəksiz.

- Mənə də beyin söz vermişdiz, - Bədheybət dedi.

- Mənə ürək verəcəkdiz, - Dəmir Odunçu əlavə etdi.

- Mənə isə cəsarət, - Qorxaq Aslan dedi.

- Deyirsiz, Qərbin Zalım Pərisi ölüb? – Oz soruşdu, Dorotiyə elə gəldi ki, sehirbazın səsi titrədi.

- Bəli, - Doroti dedi. – Mən onun üstünə su tökdüm, Pəri əridi.

- Əcəb işdir! - Səs təəccübləndi, - yaxşı, sabah gəlin, mən fikirləşməliyəm.

Dəmir Odunçu hirslə etiraz etdi:

- Fikirləşməyə sizin kifayət qədər vaxtınız olub!

- Daha gözləmirik, - Bədheybət mızıldadı.

- Vədə əməl etmək lazımdır! – Doroti qışqırdı.

Aslan qərara gəldi ki, sehirbazı qorxutsun, o elə dəhşətli nərə çəkdi ki, əks-səda divarları titrətdi. Toto qorxudan tullanıb küncdəki pərdəyə ilişdi, pərdə şaqqıltı ilə yerə düşdü. Burda dostları yeni sürpriz gözləyirdi. Pərdənin arxasında balaca, yaşlı kişi vardı, onun üzü qırışmış, saçı tökülmüşdü. Dəmir Odunçu baltasını qaldırıb adamın yanına qaçdı:

- Sən kimsən?

- Mən böyük əzazil sehirbaz Ozam, - adam titrək səslə dedi. – Məni vurmayın, nə istəsəniz, edərəm!

Dostlar təəccüb içində bir-birinə baxdı.

- Mən elə bilirdim ki, Oz - danışan başdlr, - Doroti dedi.

- Mən elə bilirdim ki, o, Gözəldir, - Bədheybət təəssüflə bildirdi.

- Mən elə bilirdim o, qorxunc Heyvandır, - Odunçu deyindi.

- Mən elə bilirdim ki, o, Yanar Kürədir! – Aslan bağırdı.

- Səhv edirsiz,- adam dedi, - mən sizi aldatmışam.

- Aldatmısan? Deməli, sən müdrik sehirbaz deyilsən? – Doroti soruşdu.

- Bir az sakit danış, yoxsa eşidərlər, məhv olaram. Mən özümü böyük müdrik sehirbaza oxşadırdım.

- Əslində belə deyil?

- Belə deyil. Mən adi insanam.

- Siz adi insan deyilsiz, qeyri-adi yalançısız, - Bədheybət incik halda dedi.

- Doğrudur, - adam cavab verdi və əllərini bir-birinə sürtdü, sanki eşitdiklərindən razıydı. – Mən qeyri-adi yalançıyam.

- Bu dəhşətdir! Demək, mənim heç vaxt ürəyim olmayacaq? - Dəmir Odunçu dedi.

- Mən də mərd olmayacam? – Aslan soruşdu.

- Mən də beyinsiz qalacam, - Bədheybət ağlayaraq əlavə etdi.

- Əziz dostlar, - Oz dedi, - xahiş edirəm, bu xırda şeylər haqqında düşünməyin. Yaxşısı budur, məni fikirləşin: əgər həqiqəti desəniz, mənim aqibətim necə olar?

- Yəni heç kim bilmir ki, siz yalançısız? - Doroti soruşdu.

- Yox, sizdən başqa heç kim bilmir. Mən o qədər aldatmışam ki, elə bilirdim daha heç kim məni ifşa etməz, əbəs yerə sizi qəbul etdim. Mən heç vaxt rəiyyətimi bura qoymuram, onlar elə bilir ki, məndən əzazili, dəhşətlisi yoxdur.

- Başa düşmürəm, - Doroti soruşdu, - Bəs Danışan Başa necə çevrilmişdiz?

- Bu mənim hiylələrimdən biridir. Gəlin dalımca.

Oz balaca qapıdan keçdi, dostlar da onun ardınca. Oz küncdə qoyulmuş böyük başı göstərdi. Baş qalın kağızdan düzəldilmişdi, sifəti boyalarla rənglənmişdi.

- Mən başı iplə yuxarıdan asıram, özüm pərdə arxasında gizlənib, ipləri dartıram ki, gözlər hərəkət etsin, ağız açılıb-yumulsun.

- Bəs səs?

- Əh, mən vantriloqam, - dedi balaca adam, səsimi istədiyim yerdən gəlirmiş kimi çıxarda bilərəm; buna görə də sən səsin başdan gəldiyini sandın. Mən sizi aldatmaq üçün başqa əşyalardan da istifadə etmişəm, - Oz Bədheybətə Gözəlin maskasını, Dəmir Odunçuya isə Heyvanın dərisini göstərdi. Yanar Kürəni də sehirbaz tavandan asmışdı. Kürə yağ hopdurulmuş pambıqdan hazırlanmışdı, buna görə parlaq alovla yanırdı.

- Belə yalançı olduğunuza görə gərək utanasız, - Bədheybət sərt şəkildə dedi.

- Mən utanıram, əlbəttə çox utanıram, amma başqa çarəm yoxdu. Gəlin, bu kürsülərdə əyləşin, öz əhvalatımı sizə danışım.

Hamı əyləşdi, yalançı sehirbaz sözə başladı:

- Mən Omahada doğulmuşam...

- Omaha Kanzasın yanındadır ki! – Doroti qışqırdı.

- Doğrudur, amma burdan uzaqdadır, - Oz cavab verdi və kədər içində sözünə davam etdi. – Mənim bir müəllimim vardı, o mənə qarnımdan səs çıxararaq danışmağı öyrətmişdi, mən hər quşun, heyvanın səsini çıxara bilirəm. – Oz elə ustalıqla miyoldadı ki, Toto qulaqlarını şəkləyib, pişiyi pusmağa hazırlaşdı. Oz davam etdi: - Bir azdan bu işdən bezdim, sirkdə işlədim, havada uçmağa başladım.

- Bunu necə edirdiz? – Doroti soruşdu.

- Mən hava şarında uçurdum, camaatın diqqətini cəlb edirdim ki, sirk tamaşalarına bilet alsınlar. Bir dəfə havada uçanda, iplər qırıldı, şar lap buludlara qalxdı, güclü hava axını şarı çox-çox uzaqlara apardı. Gecə-gündüz uçdum, nəhayət, gördüm ki, şar gözəl bir ölkəyə gəlib çatıb. Şar yavaş-yavaş endi. Ölkədə yaşayanlar fikirləşdilər ki, əgər mən göydən enmişəmsə, deməli, böyük sehirbazam. Onlar məndən qorxurdular, mənə itaət edirdilər, mən də həqiqəti açıb demirdim.

Əmr etdim ki, gözəl bir şəhər tiksinlər. Hamı həvəslə işə başladı. Ölkə gözəl və yaşıl olduğuna görə şəhərə Zümrüd adını verdim və məcbur etdim ki, bütün sakinlər yaşıl eynək taxsınlar ki, hər şeyi yaşıl rəngdə görsünlər.

- Məgər burda hər şey yaşıl deyil? – Doroti təəccübləndi.

- Xeyr, burda hər şey adi şəhərlərdə olduğu kimidir. Mən bura gələndə, gənc idim, indisə tamam qocalmışam. Sakinlər eynəkləri elə uzun müddət taxırlar ki, elə bilirlər, doğrüdan da şəhər zümrüddəndir. Amma deyim ki, şəhərimiz həqiqətən çox gözəldir, burda ləl-cəvahirat kifayət qədərdir. Mən rəiyyətimlə həmişə yaxşı davranmışam, onlar məni sevirlər, amma saray tilikəndən sonra mən heç kimi qəbul etmirəm.

Mən həmişə əsil Sehirbaz Pərilərdən qorxmuşam, çünki onlar məndən fərqli olaraq, ovsun edə bilirdilər. Cəmi dörd Pəri vardı, onların hərəsi bir tərəfdə yaşayırdı – Şimalda, Cənubda, Qərbdə və Şərqdə. Xeyirxah Pərilər Cənub və Şimalda məskən salmışdılar, zalım və xain Pərilər isə Qərbdə və Şərqdə yaşayırdılar. Zalım Pərilər elə bilirdilər ki, mən çox güclüyəm, əgər onlar həqiqəti bilsəydilər, məni çoxdan öldürərdilər. Uzun illər mən qorxu içində yaşadım, ona görə Şərqin Zalım Pərisini Dorotinin evi öldürəndə, çox sevindim. Doroti mənim sarayıma gələndə, mən ona çoxlu vədlər verdim ki, o, Qərbin Zalım Pərisini də öldürsün. İndi xəcalət çəkərək deyirəm ki, vədlərimin bircəciyini də yerinə yetirə bilməyəcəm.

- Məncə, siz çox pis adamsız, - Doroti məyus halda dedi.

- Xeyir, əzizim, mən yaxşı adamam, amma pis sehirbazam.

- Deməli, mənə beyin verməyəcəksiz? – Bədheybət soruşdu.

- Beyni neynirsən? Sən hər gün nəsə təzə bir şey öyrənirsən. Körpənin də beyni olur, məgər o, ağıllıdır? Əsas məsələ - həyat təcrübəsidir, əsil müdrikliyi o verir, nə qəqər yaşasaq, bir o qədər ağıllı oluruq.

- Yəqin, bu belədir, - Bədheybət ah çəkdi, - lakin beyin tapmasam, bədbəxt olaram.

Yalançı sehirbaz diqqətlə ona baxdı.

- Əlbəttə, mən o qədər də yaxşı sehirbaz deyiləm, - Oz ah çəkdi, - səhər bura gəlsən, başını beyinlə dolduraram, amma beyindən istifadə etməyi öyrədə bilməyəcəm, bunu özün etməlisən.

- Minnətdaram, çox minnətdaram! – Bədheybət sevinclə qışqırdı, - beynim olsa, ondan istifadə etməyi öyrənərəm!

- Bəs mənə cəsarət verməyəcəksiz? – Aslan narahat halda soruşdu.

- Sən onsuz da cəsarətli və qoçaqsan, buna inan, - Oz dedi. – Sənə bir az özünəinam lazımdır. Bütün canlılar təhlükə anında qorxu keçirir. Cəsarət daxilindəki qorxuya qalib gəlmək deməkdir, bu bacarıq isə səndə var.

- Elə olmağına elədir, - Aslan dedi, - amma mən qorxunu yox edən cəsarəti əldə etməsəm, bədbəxt olaram.

- Yaxşı, sabah sənə də cəsarət verərəm, - Oz cavab verdi.

- Bəs mənim ürəyim? – Dəmir Odunçu inamsız halda soruşdu.

- Bilmirəm, heç bilmirəm, - Oz dedi. – Sən əbəs yerə ürək istəyirsən, bilsən insan ürəkdən nə qədər əziyyət çəkir! İnan mənə, bəxtin gətirib ki, ürəyin yoxdur.

- Bunu bulmək olmaz, - Dəmir Odunçu etiraz etdi. - Mən hər çür acılara dözməyə hazıram, təki ürəyim olsun.

- Yaxşı, - Oz razılaşdı, - sənə ürək verərəm, sabah hamınız bura gəlin. Mən sehirbaz rolunu elə uzun müddətdir oynayıram ki, bir az da oynaya bilərəm.

- Bəs mən? – Doroti dilləndi. – Evə, Kanzasa necə qayıdım?

- Bu məsələdə gərək bir qəqər baş sındıram, - Oz dedi. – Mənə fikirləşmək üçün 2-3 gün ver, səni səhradan necə keçirməyin yolunu tapım. İndisə hamınız mənim qonağımsız, bütün arzularınız həmin an yerinə yetiriləcək. Əvəzində bir xahişim var – mənim sirrimi heç kimə açmayın.

Dostlar öyrəndiklərini kimsəyə söyləməməyə söz verdilər, sonra hərə öz otağına getdi. Doroti əmin idi ki, Oz Böyük Yalançı sehirbaz olsa da, Kanzasa qayıtmaq yolunu tapacaq. Bunu edə bilsəydi Doroti onun bütün günahlarını bağışlayacaqdı.

## 16. Böyük yalançının sehiri

Səhər Bədheybət dostlarına dedi:

- Məni təbrik edin, Ozun yanına beyin almağa gedirəm. Nəhayət ki, insanlar kimi olacam!

- Sən belə də xoşuma gəlirdin, - Doroti dedi.

- Mənim kimi bir Bədheybəti sevdiyin üçün sən çox xeyirxah qızsan, - dedi cavabında, - ancaq beynimin yaratdığı gözəl fikirləri eşidəndə məni daha artıq sevəcəksən.

Bədheybət dostları ilə sağollaşıb səbirsiz addımlarla qəbul zalına getdi. Qapını döydü, Oz o tərəfdən qışqırdı:

- Gəl!

Bədheybət içəri girəndə qocanın fikir içində pəncərənin ağzında əyləşdiyini gördü.

- Beyinə görə gəlmişəm, - Bədheybət inamsız halda Ozun yadına saldı.

- Həə, əyləş görüm. Məni bağışla, amma gərək başını çıxaram ki, içinə beyin dolduram.

- Yaxşı, razıyam, - Bədheybət dedi. - Beyinli olmaqdan ötrü bir qədər başsız yaşaya bilərəm.

Oz Bədheybətin başını çıxarıb, samanı tökdü, sonra arxa otağa keçdi, ordan kəpək və çoxlu iynə-sancaq gətirdi. Hamısını qarışdırıb, Bədheybətin başına doldurdu, bir qədər saman əlavə etdi ki, beyin öz yerini tutsun. Sonra Oz başı Bədheybətin bədəninə birləşdirdi.

- Sən ağıllı, həm də itiağıllı olacaqsan, çünki başın iti əşyalarla doludur. – Oz dedi.

Bədheybət sevinc içində dostlarının yanına qayıtdı, axı onun əsas arzusu həyata yetmişdi, Bədheybət özü və yeni beyni ilə qürur duyurdu.

Doroti maraqla ona baxırdı, beynin çoxluğundan Bədheybətin başı şişmişdi.

- Özünü necə hiss edirsən? – Qız soruşdu.
- İndi müdrik vaxtımdı, - Bədheybət cavab verdi, - təzə beynə bir qədər öyrəşəndən sonra Oz ölkəsində məndən ağıllısı olmayacaq.
- Bəs bu nə iynə-sancaqdır başından çıxır? – Dəmir Odunçu soruşdu.
- Bunlar mənim ağlımın iti olduğuna sübutdur, - Bədheybət dedi.
- İndi mən Ozun yanına ürək dalınca gedəcəm, - Dəmir Odunçu ümidlə dedi.
Dəmir Odunçu qəbul zalına getdi və Oza dedi:
- Ürəyimin dalınca gəlmişəm.
- Lap yaxşı, - Oz cavab verdi. – Ürəyi sinənə qoymaq üçün gərək bədənində deşik açam. Bu əməliyyat sənə ziyan vurmaz.
- Qorxmayın, heç nə hiss etmərəm.
Oz alətlərini götürüb Dəmir Odunçunun bədəninin sol tətəfində bir deşik açdı, sonra yeşikdən içi kəpəklə doldurulmuş qırmızı ipək ürək çıxartdı.
- Bax, nə gözəldir! – Oz ürəyi Dəmir Odunçuya göstərdi.
- Həqiqətən gözəldir! - Dəmir Odunçu təsdiqlədi, ürək çox xoşuna gəlmişdi, - Ancaq bu ürək xeyirxah incə bir ürəkdirmi?
- Ən xeyirxah ürəkdir. – Oz ürəyi deşikdən Dəmir Odunçunun bədəninə saldı, sonra deşiyi bağladı. – İndi sənin də ürəyin var, düzdür, bədənində yamaq yarandı, amma başqa cür sənə ürək qoya bilməzdim.
-Yamaq qorxulu deyil! – ruhlanmış Dəmir Odunçu dedi, - Siz çox xeyirxah adamsız, mən sizin yaxşılığınızı heç vaxt unutmaram.
Dəmir Odunçu dostlarının yanına qayıtdı, hamı onun təmiz ürək üçün təbrik etdi. İndi Taxt Otağının qapısını döymək sırası Qorxaq Aslana çatmışdı. Aslan qəbul otağına getdi:
- Gəl, - dedi Oz.
- Cəsarətdən ötrü gəldim, - dedi Aslan otağa girərkən.
- Lap yaxşı, - deyə cavab verdi balaca adam; - indi cəsarətini gətirərəm
Oz şüşəbəndli taxçaya yaxınlaşdı və üst rəfdən yaşıl, dördbucaq bir şüşə götürdü, içindəkini çox gözəl oyulmuş yaşıl qızıldan olan bir qaba boşaltdı. Qorxaq Aslan önünə qoyulan qabın içindəkini qoxlayıb üzünü büzüşdürəndə sehirbaz dedi:
- İç!
- Bu nədir? - Aslan şübhəylə soruşdu.
- Aha, - Oz qımıldandı, - bunun içindəki cəsarətdir, daha doğrusu, mayeni içəndən sonra o, cəsarətə çevriləcək, axı cəsarət bizim daxili cəhətimizdir, nə qədər ki içməmisən onu cəsarət adlandırmaq da çətindir. Buna görə də məsləhət görürəm ki, tez içəsən.
Aslan artıq tərəddüd etmədi, qabdakı bütün mayeni içdi.
- İndi özünü necə hiss edirsən? – Oz soruşdu.
- Cəsarətlə doluyam, - Aslan cavab verdi və başına gələnləri danışmaq üçün sevincək dostlarının yanına qaçdı.
Tək qalmış Oz hiyləgərcəsinə gülümsədi, o sevinirdi ki, Bədheybətə, Dəmir Odunçuya, Aslana kömək edə bilib, onların istədiyini verib.
“Yalançı olmaqdan necə əl çəkə bilərəm axı, - Oz fikirləşdi, - bir halda ki insanlar məndən mümkün olmayan şeyləri yerinə yetirməyimi istəyirlər! Əlimdən hər şeyin gəldiyinə inandıqlarına görə Bədheybəti, Dəmir Odunçunu və Aslanı xoşbəxt etmək çətin olmadı. Ancaq Dorotini Kanzasa qaytarmaq üçün xəyal gücündən daha artıq şeylər lazım olacaq. Heç bilmirəm neynim!”

## 17. Hava şarının uçuşu

Doroti üç gün Ozdan bir xəbər almadı, həmin günlər qızın ən kədərli günləriydi, dostları xoşbəxt olsalar da, Dorotinin könlü şad deyildi. Bədheybət ağlına maraqlı fikirlər gəldiyini söyləyirdi, ancaq bu fikirləri dilə gətirə bilmirdi, çünki bu düşüncələri özündən başqa heç kim başa düşə bilməzdi. Dəmir Odunçu yeriyərkən ürəyinin köks qəfəsi içərisində hərəkət

etdiyini hiss edə bilirdi, Dorotiyə bu ürəyin ətdən və sümükdən olduğu vaxtlardakından daha həssas olduğunu söyləmişdi. Aslan dünyada heç kimdən qorxmadığını bildirmişdi və böyük bir insan ordusu ya da Kalidaslarla döyüşə hazır olduğunu söyləmişdi. Hamı sevinirdi, Dorotidən başqa. O, Kanzasa qayıtmaq istəyirdi, xala və dayısından ötrü elə darıxmışdı ki...

Dördüncü gün, nəhayət Oz onu çağıranda Doroti çox sevindi Taxt Otağına girəndə Oz gülümsər bir ifadəylə dedi:

- Otur, balacığaz, deyəsən səni buradan çıxarmanın yolunu tapmışam.

- Və Kanzasa qayıtmağımın da yolunu tapmısız?

- Bunu deyə bilmərəm, axı bilmirəm, Kanzas hardadır. Ancaq ilkin görəcəyimiz iş səhranı keçməkdir, ondan sonra evini tapmaq çətin olmayacaq.

- Səhranı necə keçməliyəm? – Doroti intizarla soruşdu.

- İndi sənə nə düşündüyümü söyləyəcəm, - dedi balaca adam; - yadındadırsa buraya bir hava şarında gəldiyimi sənə demişdim. Sənin evini də bura qasırğa atıb, buna görə də zənnimcə, buralardan ancaq hava yolu ilə qaçmaq olar. Mən qasırğa yarada bilmərəm, amma bu məsələ üzərində çox düşündüm, sanıram hava şarı düzəldə bilərəm.

- Necə? – Doroti soruşdu.

- Hava şarı yapışqanla yapışdırılmış ipək parçadan hazırlanır, içinə qaz doldurulur. Sarayımda ipək istədiyin qədər var, ona görə də şar düzəltmək çətin olmaz. Ancaq burada şarı havaya qaldırmaqdan ötrü qaz tapmaq çətindir, qaz olmasa şar havaya qalxmaz.

- Şar uşmayacaqsa, onun nə xeyri?

- Düzdür, - Oz razılaşdı. - Başqa üsul da var, şarı isti hava ilə doldurmaq olar. İsti hava qaz qədər yararlı deyil, çünki isti hava soyusa, şar səhrada düşə bilər və biz məhv olarıq.

- Biz? – deyə Doroti qışqırdı, - siz mənimlə uçursuz?

- Əlbəttə, - Oz cavab verdi, - daha yalançı olmaq istəmirəm. Saraydan çıxsam, insanlar mənim sehirbaz olmadığımı başa düşərlər və onları aldatdığım üçün çox hirslənərlər. Buna görə də mən bütün günümü qapalı yaşayıram və artıq bu məni yaman yorub. Yaxşısı budur səninlə birlikdə Kanzasa gedim, yenə bir sirkdə işləməyə başlayım.

- Birlikdə uçmağı mən də istəyərəm, - Doroti sevindi.

- Minnətdaram, - Oz cavab verdi. – İndi mənə ipək parçanı tikməkdə kömək et ki hava şarımızı düzəldə bilək.

Doroti iynə-sap götürüb Ozun kəsdiyi ipək parçaları səliqəylə tikdi. Öncə açıq yaşıl, sonra tünd yaşıl, ən axırda zümrüd rəngli parçaları biri-birinə tikirdi, çünki Oz hava şarının yaşılın müxtəlif tonlarında olmasını istəyirdi. Üç gün-üç gecə onlar yaşıl ipək parçalarını tikib, işi tamamladılar, nəticədə iri bir torba alındı.

Oz parçanın tərs üzünə yapışqan sürtüb hava keçirməz hala gətirəndən sonra hava şarının hazır olduğunu bildirdi.

- Ancaq içinə minə biləcəyimiz bir səbət də olmalıdır, - Oz dedi və yaşıl saqqallı əsgəri böyük bir zənbilin dalınca göndərdi. Oz zənbili iplərlə şarın altına bağladı. Hər şey hazır olanda, Oz Zümrüd Şəhərinin sakinlərinə elan etdi ki, buludlarda yaşayan sehirbaz qardaşının yanına gedir. Bu xəbər bir göz qırpımında bütün şəhərə yayıldı, camaat Ozun göyə uçmasını seyr etmək üçün meydana axışdı.

Sehirbazın əmriylə hava şarını sarayın qarşısındakı meydana gətirdilər. Dəmir Odunçu çoxlu odun yarıb nəhəng tonqal qaladı. İsti hava şarın düz içinə dolub şarı köpürdürdü. Artıq hər şey uçuşa hazırdı.

Oz zənbilə qalxıb toplaşanlara ucadan dedi:

- Mən qonaq gedirəm, indi sizin hökmdarınız Bədheybətdir, mənə itaət etdiyiniz kimi ona itaət edin, sözünə qulaq asın.

İsti hava soyuq havadan daha yüngül olduğu üçün şar yuxarı qalxırdı, bağlandığı qalın ipləri az qalırdı qoparsın. Oz qışqırdı:

- Tez ol, Doroti, min! Yoxsa şar uçur!

- Mən Totonu tapa bilmirəm! - Doroti fəryad etdi. O, balaca itsiz qayıtmaq istəmirdi. Toto pişiyin dalınca qaçıb gözdən itmişdi. Nəhayət, Doroti Totonu tapıb bağrına basdı və şara tərəf qaçdı.

Şara bir neçə addım qalmışdı. Oz əllərini irəli uzatdı ki, Dorotiyə kömək etsin, amma bu an iplərdən biri qırıldı və şar Dorotisiz yuxarı qalxmağa başladı.

- Dayanın! Mən də uçmaq istəyirəm! – Doroti var gücüylə qışqırdı.

- Mümkün deyil! – Oz da qışqıraraq cavab verdi. – Əlvida, Doroti! Hamıya əlvida!

Sakinlər də: "Əlvida, Oz!" qışqırdılar, bütün gözlər sehirbazın içində durduğu və getdikcə yuxarı qalxan səbətə dikilmişdi.

Daha heç kim bir də Böyük Sehirbaz Ozu görmədi, yəqin o, Omahaya sağ-salamat çata bilmişdi. Zümrüd Şəhərinin sakinləri müdrik hökmdarlarını sevgiylə xatırlayır və deyirdilər:

- Oz həmişə dostumuz olub, bizimçün gözəl Zümrüd Şəhərini tikib, çıxıb gedəndə öz əvəzinə Ağıllı Bədheybəti hökmdar təyin edib.

Uzun müddət Qeyri-adi Sehirbazın arxasınca göz yaşı axıtdılar.

## 18. Cənuba səyahət

Doroti bütün ümidlərinin puç olduğunu anlayıb hönkürdü. Artıq Kanzasa qayıda bilməyəcəkdi. Amma sonra qız oturub fikirləşdi və hava şarıyla təhlükəli səyahətə uçmadığına sevindi. Lakin hər halda, dostlar Ozu itirdiklərinə görə çox kədərlənirdilər.

Dəmir Odunçu Dorotiyə dedi:

- Mənə belə gözəl ürək vermiş adama qarşı laqeyd olsam, nankor olaram. Ürəyimdən ağlamaq keçir, ancaq ağlasam pas tutacağımdan qorxuram. Sən mənim göz yaşlarımı silərsən?

- Məmmuniyyətlə, - Doroti dedi və bir dəsmal gətirdi.

Dəmir Odunçu bir neçə dəqiqə hönkür-hönkür ağladı və qız onun göz yaşlarını dəsmalla quruladı. Doyunca ağlayandan sonra Dəmir Odunçu qıza təşəkkür edib gümüş yağqabıdakı yağla hər tərəfini yağladı.

İndi Zümrüd Şəhərinin hökmdarı Bədheybət idi, sehirbaz olmasa da insanlar onunla fəxr edirdilər. Çünki, - deyirdilər, - dünyada samanla doldurulmuş bir adam tərəfindən idarə edilən başqa bir şəhər yoxdur. Və sakinlər tamamilə haqlıydı.

Hava şarının Ozla birlikdə uçub getməsindən sonrakı gün dostlar Taxt Otağına toplaşıb nə edəcəklərini götür-qoy etməyə başladılar. Bədheybət mərmər taxtda əyləşmişdi, o biriləri isə sayğılı bir şəkildə onun yaxınlığında dayanmışdılar.

- Deyə bilmərik ki, bəxtimiz gətirməyib, - şəhərin yeni sahibi dedi, - saray və Zümrüd Şəhəri bizimdir, nə istəsək, edə bilərik. Bir müddət əvvəl tarladakı çubuqda qalıb qarğaları qovduğumu xatırlayıram, indisə gözəl şəhəri idarə edirəm. Taleyimdən çox razıyam

- Mən də, - Dəmir Odunçu dedi. – yeni ürəyimdən çox razıyam; və gerçəkdən də istədiyim təkcə bu idi.

- Mənə gəlincə, yer üzündəki bütün heyvanlar qədər, bəlkə də daha cəsarətli olduğumu bildiyimə görə çox xoşbəxtəm, - Aslan təvazökarlıqla söylədi.

- Doroti də Zümrüd Şəhərində yaşamaq istəsəydi, hamımız birlikdə xoşbəxt ola bilərdik, - Bədheybət dedi.

- Ancaq mən burda yaşamaq istəmirəm, - deyə bağırdı Doroti. Kanzasa gedib Em xala və Henri dayı ilə yaşamaq istəyirəm.

- Yaxşı, elə isə biz neyləyək? – Dəmir Odunçu fikrə getdi.

Bədheybət də fikir içində idi. O elə dərin fikrə getmişdi ki, başındakı iynələr və çivlər kənara çıxmağa başladı. Axırda dilləndi:

- Nəyə görə Uçan Meymunları çağırıb sənin səhranı keçmənə yardım etmələrini istəmirik?

- Bu heç mənim ağlıma gəlməmişdi! – Doroti sevincək qışqırdı. – Bu saat gedib Qızıl Papağı gətirim.

Doroti Papağı Taxt Otağına gətirdi, ovsunu oxudu və bir anda Uçan Meymunlar açıq pəncərədən içəri doluşmağa başladılar. Meymunların Başçısı qıza təzim edib soruşdu:

- Nə əmr edirsən? İkinci dəfədir bizi çağırırsan.

- İstəyirəm məni Kanzasa aparasız, - Doroti xahiş etdi.

Meymunların Başçısı başını buladı:

- Bu mümkün deyil. Biz bu ölkədə yaşayırıq və burdan kənara çıxa bilmərik. Kanzasda heç vaxt uçan meymun olmayıb, olmayacaq, çünki oralar bizim yerimiz deyil. Sənin bütün əmrlərini yerinə yetirərik, amma səhradan keçməyə ixtiyarımız yoxdur! Hələlik!

Bu sözlərlə Meymunların Başçısı pəncərədən uçub getdi, o biri meymunlar da onun dalınca uçdular.

Doroti peşman olmuşdu, az qalırdı ağlasın.

- İkinci arzumu əbəs yerə sərf etdim! Meymunlar mənə kömək etmədilər! – Doroti şikayətləndi.

- Hə..., bu çox pis oldu, - yumşaq ürəkli Dəmir Odunçu söylədi.

Bədheybət yenə də fikrə getdi. Fikirdən başı elə şişmişdi ki, Doroti partlayacağından qorxdu.

- Yaşıl saqqallı əsgəri çağıraq və ondan məsləhət alaq, - dedi.

Əsgəri çağırdılar, çəkinə-çəkinə qəbul zalına gəldi və dayandı, özünü narahat hiss edirdi, çünki heç vaxt burda olmamışdı. Bədheybət əsgərə dedi:

- Bu balaca qız Ölüm Səhrasından keçmək istəyir. Bunu necə edə bilər?

- Bilmirəm, - əsgər cavab verdi. – Bu vaxta qədər şəhərin heç bir sakini səhradan keçməyib, böyük Ozdan başqa.

- Yəni, mənə heç kim kömək edə bilməz? – Doroti həyəcanlandı.

- Qlinda kömək edə bilər...

- Qlinda kimdir? - Bədheybət soruşdu.

- Qlinda Cənub Pərisidir, pərilərin ən güclüsüdür, o, Kvodlinqlər ölkəsini idarə edir. Qlindanın sarayı səhrayla sərhəddir, bəlkə o bilər...

- Demək, Qlinda xeyirxah Pəridir? - Doroti soruşdu.

- Kvodlinqlər deyirlər ki, belədir. Eşitmişəm ki, çox gözəldir, əbədi cavanlığın sirrini bilir.

- Onun sarayına necə getmək olar? – Doroti əsgərdən soruşdu.

- Düz cənuba getmək lazımdır, - əsgər cavab verdi, - amma oralar yaman təhlükəlidir. Meşələr yırtıcılarla doludur, yol əcayib canlıların yaşadığı yerdən keçir, həmin canlılar heç kimi öz torpaqlarına buraxmır, buna görə Kvodlinqlər Zümrüd Şəhərinə gələ bilmirlər.

Əsgər gedəndən sonra Bədheybət dedi:

- Yol təhlükəli olsa da, Doroti Qlindanı tapmalı və kömək istəməlidir. Doroti Zümrüd Şəhərində qalsa, Kanzasa heç vaxt qayıda bilməz.

- Bu fikrə gəlməkdən ötrü, yəqin, başını cox işlətmisən, - Dəmir Odunçu ehtimal etdi.

- Əlbəttə, - dedi Bədheybət.

- Mən Dorotiylə gedəcəm, - Aslan söhbətə qoşuldu. Şəhərdə yaşamaq zəhləmi töküb, yenidən təbiətə, meşəyə qayıtmaq istəyirəm, axı mən meşə heyvanıyam. Həm də Dorotini yolda kimsə qorumalıdır.

- Düzdür, - Dəmir Odunçu razılaşdı. - Baltam bizə kömək edər. Mən də cənuba gedirəm.

- Nə vaxt yola düşürük? – Bədheybət soruşdu.

- Sən də gedirsən? – hamı çaşqınlıq içərisində soruşdu.

- Bəs necə? Doroti olmasaydı, beynim də olmazdı. Doroti məni qarğıdalı tarlasındakı çubuqdan çıxartdı, özüylə Zümrüd Şəhərinə apardı. Mən ona çox borcluyam və Kanzasa qayıdana qədər həmişə yanında olacam.

- Minnətdaram! – Doroti kövrəldi. – Siz necə də yaxşı dostlarsız! Mən tezliklə yola düşmək istəyirəm.

- Sabah gedərik, - Bədheybət qərara aldı, - gəlin, səfərə hazırlaşaq. Yol çox uzundur.

## 19. Savaşan ağaclar

Ertəsi gün Doroti yaşıl qızla öpüşüb sağollaşdı və dostlar hamısı onları qapıya qədər ötürən yaşıl saqqallı əsgərin əlini sıxıb ayrıldılar. Şəhər Qapılarının Keşikçisi yolçuları görüb tanıdı və çox təəccübləndi ki, onlar yenə harasa gedirlər. Keşikçi açarla eynəklərin qıfıllarını açıb, onları yaşıl qutuya qoydu və yoçulara xoş arzularını bildirdi.

- İndi siz bizim hökmdarımızsız, - Keşikçi Bədheybətə dedi; - buna görə də mümkün olduğu qədər tez qayıtmalısınız.

- Bacardığım qədər tez qayıdacam, arxayın ol, - Bədheybət söz verdi, - ancaq əvvəlcə Dorotinin evə qayıtmasına kömək etməliyəm.

Doroti mehriban Keşikçiylə son dəfə sağollaşarkən dedi:

- Sizin gözəl şəhərinizdə məni yaxşı qarşıladılr, hamı çox xeyirxah və mehribandır. Mən hamıya təşəkkürümü bildirirəm.

- Bizimlə həmişəlik qalsaydın, sevinərdik, - Keşikçi dedi, - ancaq Kanzasa qayıtmağı bu qədər istəyirsənsə, sənə arzu edirəm ki, ora tez çatasan. - Bu sözlərlə Keşikçi qapıları taybatay açdı, dostlar şəhərdən çıxdılar.

Onlar Cənub Diyarına üz tutdular. Günəş saçırdı, hamının kefi kök idi, gülürdülər. Doroti evə qayıdacağını xəyal edirdi, Bədheybətlə Dəmir Odunçu bu arzunun həyata yetməsi üçün əlindən gələni etməyə hazırdı. Aslan təmiz havanı fərəhlə ciyərlərinə çəkir, şən halda quyruğunu bulayırdı. Toto hürə-hürə kəpənəklərin dalınca qaçırdı.

Aslan dedi:

- Yox, şəhər həyatı mənlik deyil. Meşədən gedəndən sonra çox arıqlamışam və səbirsizliklə necə qoçaq olduğumu meşə heyvanlarına göstərmək istəyirəm.

Dostlar son dəfə Zümrüd Şəhərinə baxdılar. Burdan yalnız şəhərin damları və Oz sarayının günbəzi görünürdü.

- Hər halda, Oz o qədər də pis sehirbaz deyil, - sinəsində ürəyinin döyüntüsünü duyan Dəmir Odunçu dedi.

- Mənə  necə bir beyin verəcəyini bilirdi, özü də yaxşı beyin, - Bədheybət təsdiqlədi.

- Oz mənə verdiyi mərdlikdən özünə də bir az götürsəydi, heç nədən qorxmazdı., - Aslan əlavə etdi.

Doroti susmuşdu. Oz qıza verdiyi vədə əməl etməmişdi, amma var gücüylə buna çalışmışdı, odur ki, Doroti onu bağışlamışdı. Oz pis sehirbaz olsa da, pis adam deyildi.

Səfərin birinci günü dostlar əlvan güllü-çiçəkli yaşıl çəmənlikdən keçdilər. Bu çəmənliklər Zümrüd Şəhərini hər tərəfdən əhatə etmişdi. Yolçular otların üstündə, iri ulduzlarla dolu açıq səma altında gecələdilər, yaxşıca dincəldilər.

Səhər hamı yenə yola düşdü, gəlib qalın bir meşəyə çatdılar. Meşə çox böyük idi, hər iki tərəfdən üfüqə qədər uzandığına görə meşənin ətrafından dövrə vurub keçmək mümkün deyildi; bundan başqa, yollarını aza biləcəklərindən qorxduqlarına görə istiqamətlərini dəyişdirməyə də qorxurdular. Bu üzdən meşənin içərisinə girməkdən ötrü bir cığır axtarmağa başladılar.

İrəlidə gedən Bədheybət elə qollu-budaqlı böyük ağac gördü ki, onun altından rahat keçmək olardı. Bədheybət ağaca yaxınlaşanda, budaqlar aşağı endi, saman bədəni dövrəyə aldı. Bədheybət cınqırını çıxarmağa macal tapmamış, ağac onu geriyə, dostlarının yanına tulladı. Düzdür, Bədheybətə heç nə olmadı, lakin çox təəccübləndi. Doroti onu ayağa qaldıranda başı hələ də fırlanırdı.

- Baxın, oradan da keçmək olar! - Aslan ağacların arasını göstərdi.

- Qoy mən risq edim, - Bədheybət təklif etdi. – Axı yıxılmaqdan qorxmuram. – Bu sözlərlə o, ağacların arasına girdi, amma yenə də budaqlar onu kənara tolazladılar.

- Əcəb işdir! – Doroti çığırdı. – İndi biz neyləyək?

- Deyəsən, ağaclar bizə müharibə elan edir, - Aslan başa düşdü, – istəyirlər ki, geri çəkilək.

- Deyəsən mən baltamı işə salmalı olacam, - Dəmir Odunçu baltasını çiyninə atıb Bədheybəti kənara fırladan ağaca yaxınlaşdı. Budaqlardan biri Odunçuya tərəf uzananda, Dəmir Odunçu bir zərbəylə budağı dibindən qopartdı. Birdən ağacın bütün budaqları ağrıdan titrəməyə başlasalar da Odunçunun meşəyə girməsinə mane ola bilmədilər.

- Ardımca! – Odunçu qışqırdı, - Tez olun!

Yolçular Odunçunun dalınca qaçdılar. Təkçə Totonu kiçik bir budaq tutub zingildəyənə qədər silkələdi. Odunçu Totonu budaqlardan xilas etdi.

Meşədəki digər ağaclar özlərini yaxşı aparırdılar, heç kimə mane olmurdular. Dostlar başa düşdülər ki, ancaq meşənin kənarındakı ağaclar polis vəzifəsi daşıyaraq yad adamları içəri buraxmır.

Dostlar meşənin sərhəddinə qədər ağacların arasından asanlıqla keçdilər, gəlib çox hündür bir divara dirəndilər. Divar ağ çinidən tikilmiş olduğunu gördükləri zaman lap çaşıb qaldılar. Böşqab dibi kimi hamar olan bu divarlar çox yüksək idi.

- İndi nə edək? – Doroti soruşdu.

- Nərdivan düzəltmək lazımdır, - Dəmir Odunçu cavab verdi. – Biz divarı aşmalıyıq.

## 20. Çini ölkədə

Dəmir Odunçu meşədən tapdığı odunlardan bir nərdivan düzəldənə qədər Doroti uzanıb yatdı, çünki uzun yol gəldiklərinə görə çox yorulmuşdu. Aslan və Toto da qızın yanında yerlərini rahatladılar.

Dəmir Odunçunun işinə baxan Bədheybət fikirli halda dedi:

- Bu divarın nə üçün burada olduğunu və hansı maddədən düzəldiyini başa düşə bilmirəm.

- Divar haqqında əndişəyə qapılıb beynini yorma, - dedi Dəmir Odunçu; - indi nərdivan hazır olar, üstünə dırmaşıb divarın arxasında nələrin olduğunu görəcəyik.

Nərdivan tezliklə hazır oldu. Bir az kələ-kötür görünməsinə baxmayaraq, Dəmir Odunçu işlərinə yarayacağından əmindi. Bədheybət Dorotini, Aslanı və Totonu oyandırıb nərdivanın hazır olduğunu söylədi. Bədheybət nərdivanla qalxmağa başladı, ancaq yaman yöndəmsiz idi, Doroti onun dalınca qalxaraq, yıxılmasın deyə onu tutmalı oldu. Bədheybət divarın o biri tərəfini görə biləndə sevincək qışqırdı:

- Ay aman!

- Çıx görüm, - arxadan səsləndi Doroti.

Bədheybət divarın üstünə çıxıb oturduğu zaman Doroti divarın o biri tərəfini gördü və eynilə Bədheybət kimi o da qışqırdı:

- Ay aman!

Sonra Toto divarın başına qalxıb hürməyə başladı, Doroti ona acıqlandı ki, səs salmasın.

Sonra Aslan dırmaşdı nərdivana, ən axırda Dəmir Odunçu qalxdı; hər ikisi yuxarıya çatan kimi:

- Ay aman! - deyə qışqırdılar.

Hamı divarın üstündə əyləşmişdi, ətrafdakı qəribə mənzərəyə baxırdılar. Qarşıda nəhəng boşqaba oxşayan ağ yastı düzənlik vardı, ətrafa səpələnmiş əlvan rənglərlə boyanmış çini evlər görünürdü. Evlər balaca idi, Dorotinin qurşağına qədər. Evlərin yanında çini anbarlar, ətrafda çini hasarlar vardı. Çini çəmənlikdə çini qoyunlar, inəklər otlayırdı. Atlar, toyuqlar, donuzlar da çinidən idi.

Bu qəribə ölkənin ən əcayib canlıları isə adamlardı. Dostlar maraqla zəngin geyimli şahzadələrə, zolaqlı şalvar geymiş çobanlara baxırdılar. Zolaqlar çəhrayı, sarı, mavi rəngdəydi. Orda atlas geyimli, ləl-cəvahiratla bəzənmiş qızıl taclı krallar, qırmızıyanaq şişpapaqlı təlxəklər

vardı. Ən qəribəsi buydu ki adamlar da, onların geyimləri də çinidəndi və çini ölkənin camaatı əsil çırtdanlardı, onların ən uzun boylusu Dorotinin dizindən idi.

Əvvəlcə heç kim yolçulara fikir vermirdi. Təkcə yekəbaş bənövşəyi çinidən düzəldilmiş bir it divara yaxınlaşıb nazik səslə hürdü, sonra qaçıb uzaqlaşdı.

- Divardan necə düşək? - Doroti soruşdu.

Dəmir Odunçunun düzəltdiyi nərdivan o qədər ağır idi ki, onu qaldırmaq mümkün deyildi. Bədheybət yerə atıldı, dostları da əzilməsinlər deyə onun üstünə tullandılar. Əlbəttə, dostları çalışırdı ki, Bədheybətin başına yıxılmasınlar, axı onun başı iynə-sancaqla dolu idi. Hamı tullanandan sonra Bədheybətin yastılanmış bədənini yerdən qaldırdılar və yastıq kimi çırpıb əvvəlki görkəmə saldılar.

- Bu sirli ölkədən keçməliyik, - Doroti dedi, - gəlin, Cənuba doğru yolumuzu dəyişməyək.

Yolçular çini insanların yaşadığı torpaqlardan keçərək yollarına davam etdilər və ilk qarşılarına çıxan çini bir inəyi sağan çini sütçü qız oldu. Yolçular inəyə yaxınlaşanda, inək təpik atdı, vedrəni aşırtdı, çinidən olan sağıcı qız çini torpağa düşüb cingildədi.

Doroti inəyin ayağının sındığını, vedrənin parça-parça olduğunu və zavallı sağıcı qızın sol dirsəyinin çatladığını görüb heyrətə gəldi.

- Bir gör neylədiz! – deyə sağıcı qız hirslə qışqırdı; - İnəyimin ayağı qırılıb, gərək onu təmirçiyə aparım yapışdırsınlar. Niyə burda gəzib inəyimi qorxutdunuz?

- Bağışlayın, - Doroti peşmanlıqla dedi, - xahiş edirəm, hirslənməyin.

Ancaq gözəl sağıcı qız elə hirslənmişdi, cavab da vermədi. O, axsayan inəyini apardı, gedəndə də elə hey dönüb məzəmmətlə bu ziyankar dostlara baxır, çatlamış qolunu böyrünə sıxırdı.

Bu hadisə Dorotini çox məyus etmişdi. Yuxa ürəkli Dəmir Odunçunun da kefi pozulmuşdu:

- Gərək burada çox diqqətli olaq, yoxsa bu kiçik gözəl insanları elə qırıb tökərik, heç yapışdırmaq da olmaz.

Bir qədər sonra dostlar bəzənmiş bir şahzadə gördülər. Şahzadə təəccüb içində donub qalmışdı, sonra qaçıb xilas olmaq istədi. Doroti onun dalınca qaçdı, çini şahzadə var gücüylə qışqırdı:

- Məni tutma! Məni tutma!

Şahzadə elə qorxmuşdu ki, Doroti dayanıb ondan soruşdu:

- Niyə?

Şahzadə bir az da qaçıb dayandı və nəfəsini dərdi:

- Çünki qaçanda yıxılıb qırıla bilərəm.

- Sizi təmir etmək olmaz?

- Ah, olar; amma bilirsiniz təmirdən sonra belə gözəl olmayacam, - şahzadə başa saldı.

- Doğru deyirsiz, - Doroti onunla razılaşdı.

- Baxın, mister Coker gəlir, o bizim təlxəklərdən biridir, - şahzadə dedi. – O, baş-ayaq dayanmağı elə sevir ki... Dəfələrlə yıxılıb qırılıb, indi bədəni, yəqin, bir-birinə yapışdırılmış min parçadan ibarətdir. Onu yaraşıqlı adlandırmaq olmaz, indi özünüz görərsiz.

Həqiqətən, balaca şən təlxək dostlara yaxınlaşırdı. Onun əynində qırmızı-sarı-yaşıl geyim vardı, bütün bədəni çat-çat idi. Demək, təlxəyi dəfələrlə təmir edib yapışdırmışdılar.

Təlxək ovurdlarını şişirtdi, əllərini cibinə soxub başını yelləyərək dəcəl səslə qışqırdı:

- Mənim gözəl xanımım
Nədən sənin gözlərin
Bu zavallı Cokerin
Üst-başına zillənib
Çox əsəbi durmusuz
Elə bil mil udmusuz!

- Səsini kəs! – Şahzadə acıqlandı. - Görmürsən bunlar yad adamlardır, onlara hörmətlə yanaş.

- Hörmət əlaməti olaraq, tamaşaya başlayaq! – Təlxək qışqırıb başı üstə dayandı.

- Mister Cokerdən inciməyin, - şahzadə Dorotiyə dedi, - onu o qədər təmir ediblər ki, başı yaxşı işləmir, özünü axmaq yerinə qoyur.

- Ah, ondan heç incimərəm, - Doroti cavab verdi. – Amma sən özün elə gözəlsən, səni çox sevəcəyimi bilirəm. Səni Kanzasa aparıb Em xalanın ocağının üstündəki taxçada durmağı istəyərsənmi? Səni zəmbilimə qoyub apara bilərəm.

- Bu məni çox məyus edərdi, - çini şahzadə dedi, - öz ölkəmizdə biz rahat yaşayırıq, istədiyimiz qədər gəzirik, söhbət edirik. Ancaq buradan uzaqlaşanda oynaqlarımız bərkiyir, daşa dönürük, bəzək əşyası kimi hərəkətsiz oluruq. Əlbəttə, bizi dolablara, rəflərə qoyanda heç nə tələb etmirlər, amma öz ölkəmizdə daha xoşbəxt bir həyatımız var.

- Sənin xoşbəxtliyini əlindən almaq istəməzdim, - Doroti dedi; - Elə isə sağlıqla qal!

Yolçular ehtiyatla Çini ölkədən keçib getdilər. Balaca adamlar, heyvanlar yolçuların ayaqları altına düşməsinlər deyə qaçışırdılar. Bir saat ərzində dostlar çini ölkənin o biri ucuna çatıb başqa bir çini divarla qarşılaşdılar.

Bu divar o qədər də hündür deyildi, dostlar Aslanın belinə qalxıb rahatca divarın üstünə dırmaşdılar. Sonra Aslan özü arxa ayaqları üstə gərilərək divarın üstünə hoppandı; ancaq hoppananda quyruğu ilə çini bir kilsəni vurub dağıtdı.

- Nə pis oldu, - Doroti heyifsiləndi, - ancaq, düşünürəm ki, bu insanlara bir inəyin ayağını qırmaqdan və bir kilsəni uçurtmaqdan daha çox ziyan vura bilərdik. Burda hər şey nə qədər kövrəkdir!

- Həqiqətən elədir, - Bədheybət dedi, - yaxşı ki, mən samandanam, qırıla bilmərəm. Samanla dolu Bədheybət olmaq o qədər də pis deyilmiş...

## 21. Heyvanların şahı Aslan

Çini divardan enən yolçular, uzun, sıx otlar və bataqlıqlarla dolu olan bir yerə düşdülər. Burada irəliləmək çox çətin idi. Otlar elə qalın idi ki, yolu tapmaq olmurdu, tez-tez palçıqlı çuxurlara düşürdülər. Ancaq addımlarını ehtiyatla ataraq gəlib quru yola çata bildilər. Sevinməyə bir səbəb yox idi, çünki ətrafda daha vəhşi bir mənzərə vardı, kolların arasıyla uzun və yorucu yoldan sonra bir meşəyə çatdılar, burada ağaclar olduqca hündür idi, heç vaxt belə hündür ağac görməmişdilər. Sevinclə ətrafa baxan Aslan:

- Əcəb gözəldir! – dedi. - Ömrümdə buralardan gözəl yer görməmişəm!

- Mənə görə buralar çox vahiməlidir, - Bədheybət dedi.

- Yox, - Aslan etiraz etdi, - mən ömrümü burda keçirməyə razıyam! Bax, xəzəl necə yumşaqdır, ağaclara yapışan yosunlar görün necə yaşıldır! Əsil vəhşi heyvan belə meşədə yaşamağı arzulayar.

- Bəlkə meşədə vəhşi heyvanlar vardır, - Doroti dedi.

- Yəqin ki vardır, - Aslan cavab verdi; - amma mən hələ bircəciyini də görmürəm.

Yolçular qaranlıq düşənə qədər yürüdülər. Aslan, Doroti, Toto uzanıb yatdılar, Bədheybətlə Dəmir Odunçu isə həmişəki kimi, onların keşiyində durdular.

Səhər hamı yoluna davam etdi. Bir az getmişdilər ki, heyvan səsinə oxşayan qəribə uğulti eşidildi. Toto yavaşca zingildədi, amma ondan başqa heç kim qorxmurdu. Dostlar cığırla gedib bir talaya çatdılar, gördülər ki, burda xeyli heyvan var. Pələnglər, fillər, ayılar, canavarlar, tülkülər, meşənin digər sakinləri burdaydı. Əvvəlcə Dorotini vahimə basdı, lakin sonra Aslan başa saldı ki, yəqin, bir hadisə olub, ona görə heyvanlar məsləhət etmək üçün yığışıblar.

Aslan danışarkən bəzi heyvanlar onun burada olduğunu gördülər və qurbağa gölünə daş atılmış kimi, hər tərəfi səssizlik bürüdü. Pələnglərin ən böyüyü Aslana yaxınlaşıb baş əydi və dedi:

- Xoş gəlmisən, Ey Heyvanların Şahı! Düşməni öldürüb meşədə əmin-amanlıq yaratmaq üçün lap vaxtında gəlmisən.

- Nə hadisə baş verib? – Aslan soruşdu.

- Burda məskən salmış bir düşmən hamımızın həyatına təhlükə yaradıb, - Pələng izah etməyə başladı, - Fil boyda nəhəng bədəni, ağac kötükləri kimi ayaqları olan, nəhəng hörümçəyə bənzəyən qorxunc bir canlıdır. Səkkiz ayağı var və meşədə dolaşan bir heyvan görsə bu ayaqlardan birini uzadıb həmin heyvanı tutur və bir hörümçək bir milçəyi necə yeyirsə, həmin heyvanı basıb yeyir. Bu qorxunc canlı nə qədər ki sağdır bizim həyatımız təhlükədə olacaq, siz gələndə ona görə toplaşıb başımızın çarəsini axtarırdıq.

Aslan bir anlıq fikrə getdi. Sonra soruşdu:

- Bu meşədə başqa aslan varmı?

- Yoxdur; əvvəllər bir neçə dənə vardı, amma hörümçək onları hamısını yedi. Düzdür, həmin aslanlar sənin kimi böyük və qoçaq deyildi.

- Düşməninizi məhv etsəm, qarşımda baş əyib mənə Meşənin Şahı deyərsinizmi?

- Əlbəttə deyərik! - pələng cavab verdi; və bütün heyvanlar bir ağızdan bağırdılar: - Deyərik!

- Bu sizin böyük hörümçək hardadır indi? - Aslan soruşdu.

- Bax, ordakı palıd ağaclarının olduğu yerdə, - dedi pələng ön pəncəsini irəli uzadaraq.

- Siz dostlarımdan muğayat olun, - Aslan dedi, - mən indi hörümçəklə döyüşməyə gedirəm.

Aslan dostlarıyla sağollaşıb düşmənlə döyüşmək üçün məğrur addımlarla uzaqlaşdı.

Aslan onu tapanda böyük hörümçək yatırdı. Hörümçək elə iyrənc idi ki, Aslan üz-gözünü turşutdu. Pələng düz demişdi, hörümçəyin ayaqları uzun və qalın idi, bədəni kobud qara qıllarla örtülmüşdü, ağzı hər biri 30 santim olan uzun iti dişlərlə doluydu, amma böyük başı nəhəng bədənə tel kimi nazik boyunla birləşmişdi. Aslan başa düşdü ki, boyun hörümçəyin ən zəif yeridir, düşmən oyanmamış onu məhv etmək lazımdır. Aslan daha fikirləşmədən hörümçəyin belinə atılıb iti caynaqlı pəncəsiylə bir zərbədə hörümçəyin başını bədənindən ayırdı. Aşağıya tullandı, hörümçəyin ayaqları hərəkətsiz qalana qədər gözlədi, əcaib canlı artıq ölmüşdü.

Aslan heyvanların yanına qayıtdı, hamı nəfəsini qısıb intizarla onu gözləyirdi. Aslan qürur dolu səslə bildirdi:

- Daha heç nədən qorxmayın!

Heyvanlar Aslanın önündə baş əyib onu şah elan etdilər. Aslan, Dorotini Kanzasa yola salandan sonra meşəyə qayıdıb onlara şahlıq edəcəyinə söz verdi.

## 22. Kvodlinqlər ölkəsi

Yolçular meşənin içindən rahatlıqla keçib getdilər. Meşənin sonunda qarşılarına sıldırım qayalı bir təpə çıxdı.

- Bu təpəyə dırmaşmaq çox çətin olacaq, - dedi Bədheybət, - Ancaq nə olursa olsun biz bu təpəni aşmalıyıq.

Bu sözlərlə Bədheybət irəli addımladı, dostları da onun dalınca. Onlar iri qaya parçasına çatmışdılar ki, kimsə qaba bir səslə qışqırdı:

- Geri dönün!

- Kimsən sən? – Bədheybət soruşdu.

Qayanın üstündə bir baş göründü və həmin səs dedi:

- Bu bizim təpədir, və biz kimsənin buradan keçməsinə izin vermirik.

- Biz bu dağı hökmən aşmalıyıq, çünki Kvodlinqlər Ölkəsinə gedirik. – Bədheybət cavab verdi.

- Yox a, doğrudan? – deyə cavab verdi səs.

Qayanın arxasından yolçuların indiyə qədər gördükləri ilə müqayisədə ən qəribə bir adam çıxdı.

Bədəninə qırış-qırış, yoğun bir boyunla bağlı, yekə başlı, tamamilə yastı təpəsi olan dıbırçəllək bir adam idi. Qolları isə yoxdu, bunu görən Bədheybət bu qədər aciz bir canlının

onların təpəyə dırmaşmalarına əngəl ola bilməyəcəyini düşündüyünə görə heç qorxmamışdı. O əcaib canlıya üzünü tutub dedi:

- Nə qədər acınacaqlı olsa da sizin istəyinizi yerinə yetirə bilməyəcəyik, xoşunuza getsə də getməsə də biz bu təpəni aşıb keçəcəyik, - və cəsarətli addımlarla yoluna davam etdi.

Birdən canlının boynu uzandı, o bir göz qırpımında yastı təpəsiylə Bədheybətin qarnına elə vurdu ki, Bədheybət mayallaq aşıb təpədən aşağı yuvarlandı. Adamın boynu necə uzanmışdısa, eləcə də bir anda qısalıb yerinə qayıtdı, qas-qas gülərək dedi:

- Gördüyün kimi, təpəni aşmaq elə də asan deyil!

Onun sözləri qəhqəhə içində batdı və Doroti hər qayanın arxasında gizlənərək gözləyən yüzlərlə qolsuz çəkicbaş gördü. Bədheybətin başına gələnlərə gülmələri Aslanı yaman əsəbləşdirdi, güclü nərə çəkərək ildırım kimi təpəyə cumdu.

Yenə də boyunlarda biri uzanıb sanki bir top mərmisiymiş kimi Aslanı təpədən aşağıya yuvarlandırdı.

Doroti Bədheybətin yanına qaçıb ayağa qalxmağa kömək edərkən, şil-küt olmuş Aslan axsaya-axsaya onlara yaxınlaşıb hirslə dedi:

- Bu kəlləvuranlarla döyüşmənin heç bir mənası yoxdur; bunların öhdəsindən heç kim gələ bilməz.

- Yaxşı, onda bəs neyləyək? – qız soruşdu.

- Uçan Meymunları çağıraq, - Dəmir Odunçu təklif etdi, - onlar hələ bir arzunu yerinə yetirə bilər.

- Yaxşı, - Doroti razılaşdı.

Doroti Qızıl Papağı başına qoydu, ovsunu oxudu. Bir an içində Uçan Meymunlar dağın ətəyinə toplaşdı. Meymun Başçısı Dorotiyə təzim edib, nə istədiyini soruşdu. Doroti:

- Bizi bu dağdan keçirib Kvodlinqlər ölkəsinə aparın, - deyə xahiş etdi.

Meymun Başçısı əmr etdi, Uçan Meymunlar dostları Totoyla birgə havaya qaldırdı. Onlar dağın üstündən uçarkən, kəlləvuranlar çox hirslənir, var gücüylə dartınıb dostları vurmaq istəyirdilər.

Hamı gözəl Kvodlinqlər Ölkəsində endi. Meymun Başçısı Dorotiyə dedi:

- Biz sənin sonuncu arzunu yerinə yetirdik. Əlvida. Yolun açıq olsun.

- Əlvida. Kömək etdiyiniz üçün minnətdaram, - Doroti dedi.

Kvodlinqlər ölkəsində insanlar xoşbəxt və varlı yaşayırdılar. Yollar yaxşı döşənmişdi, tarlalarda buğda, qarğıdalı yetişirdi, şırıldayan çayların üstündən möhkəm körpülər salınmışdı. Çəpərlər, evlər, körpülər Gözvuranların ölkəsində sarıya və Çeynəçilərin ölkəsində maviyə boyanmış olduğu kimi burada da çəhrayı rəngdə idi. Şişman, balaca və yumşaq başlı Kvodlinqlər də yaşıl çəmənlər və sarı taxıl zəmilərinin arasında göz qamaşdıran çəhrayı rəngdə paltarlar geyinmişdilər.

Uçan Meymunlar səyyahları bir fermerin evinin yanına gətirmişdi. Doroti qapını döyəndə, yaraşıqlı bir qadın qapını açdı. Doroti yeməyə bir şey istədi, qadın yolçulara piroq, peçenye verdi, Totoya isə bir qab süd çatdı.

- Qlindanın qəsri çox uzaqdır? – Doroti soruşdu.

- Çox uzaqda deyil, - fermerin arvadı cavab verdi, - cənuba doğru gedin, tezliklə qarşınıza çıxacaqdır.

Xeyirxah qadına təşəkkür edən yolçular yeni qüvvəylə yola düşdülər. Onlar baxımlı tarlalardan, yaraşıqlı körpülərdən keçib gözəl bir qəsr görənə qədər yürüdülər. Qəsrin qapısında qızıl saplarla işlənmiş çəhrayı geyimli üç qız keşik çəkirdi. Dorotinin yaxınlaşdığını görəndə qızlardan biri dilləndi:

- Cənub Ölkəsinə niyə gəlmisiz?

- Buranın hökümdarı Xeyirxah Pərini görməyə görməyə gəlmişik, - deyə cavab verdi Doroti; - məni onun yanına apararsınızmı?

- Adınızı söyləyin, gedib Pəridən soruşum, qəbul etməyə razıdır, ya yox.

Adlarını söylədilər və əsgər qız qəsrə getdi. Bir azdan o qayıdıb dedi ki, Qlinda elə indicə dostları qəbul edəcək.

## 23. Qlinda Dorotinin arzusunu yerinə yetirir

Əvvəlcə yolçuları bir otağa apardılar, burada Doroti əl-üzünü yuyub saçlarını daradı, Aslan yalındakı tozu silkələdi, Bədheybət əlləriylə bədəninə vurub düzəltdi, Dəmir Odunçu oynaqlarını yağlayıb bədənini təmizlədi.

Sonra dostlar əsgər qızın dalınca düşüb böyük bir otağa gəldilər, orda yaqutlu taxtda Qlinda əyləşmişdi. Qlinda gənc və gözəldi. Onun qızılı rəngdə gözəl qıvrım saçları çiyinlərinə tökülmüşdü, ağ paltarı, Dorotiyə mehribanlıqla baxan mavi gözləri vardı.

- Övladım, sənə necə kömək edə bilərəm? – Qlinda Dorotidən soruşdu.

Doroti hər şeyi Pəriyə danışdı – qasırğanın evi Oz Ölkəsinə aparmasından, yeni dostlarını necə tapmasından və yolda başlarına gələn macəralardan...

- İndi ən böyük arzum, - deyə əlavə etdi, - Kanzasa qayıtmaqdır, bilirəm, Em Xala başıma pis bir iş gəldiyini düşünüb yas tutmağa başlamışdır; və bu il məhsul keçən ilkindən daha bol olmasa Henri Dayı buna yanında mən olmasam dözə bilməz.

Qlinda əyilib bu balaca yaraşıqlı qızın kədərlin üzündən öpdü:

- Heç kefini pozma, - dedi, - səni Kanzasa göndərmənin bir yolunu tapacağıma əminəm. Ancaq, - dedi, - əvəzində Qızıl Papağı mənə verməlisən.

- Əlbətdə verərəm! – Doroti sevindi, - onsuz da artıq mənə bir faydası qalmayıb, ancaq papaq sizdə olsa düz üç dəfə Uçan Meymunlarıçağıra bilərsiz.

Doroti Qızıl Papağı Qlindaya verdi. Qlinda Bədheybətdən soruşdu:

- Doroti gedəndən sonra neyləyəcəksən?

- Zümrüd Şəhərinə qayıdacam. Oz məni Şəhərin hökmdarı elan edib, sakinlər məni çox sevir. Amma bilmirəm, Kəlləvuranlar olan dağı necə keçəcəm.

- Qızıl Papağın köməyi ilə Uçan Meymunları çağırıb səni düz Zümrüd Şəhərinə göndərəcəm, - Qlinda dedi, - Qoy insanlar sənin kimi möhtəşəm hökmdardan məhrum olmasınlar.

- Məgər mən möhtəşəməm? – Bədheybət təəccübləndi.

- Qeyri-adisən, - Qlinda dedi.

Sonra Qlinda Dəmir Odunçudan soruşdu:

- Bəs sən Doroti getdikdən sonra nə edəcəksən?

Dəmir Odunçu baltasına dirsəklənib bir az fikrə getdi.

- Gözvuranlar məni çox sevmişdi, onlar istəyirdi ki, mən hökmdar olum, axı əvvəlki hökmdar – Qərbin Zalım Pərisi ölmüşdür. Mən Qərb Ölkəsinə düşə bilsəydim, Gözvuranların hökmdarı olardım.

- Bu Uçan Meymunlara mənim ikinci əmrim olacaq, - Qlinda dedi. - Meymunlar səni Qərb Ölkəsinə aparar. Əminəm ki, sən müdrik və ədalətli hökmdar olacaqsan.

Sonra Pəri pırpızyallı böyük Aslana baxıb soruşdu:

- Bəs sən, Doroti evinə qayıdandan sonra neyləyəcəksən?

- Kəlləvuranlar təpəsinin arxasında qalın bir meşə var, oranın heyvanları məni şah seçib. O meşəyə qayıda bilsəm çox bəxtəvər olardım...

- Uçan Meymunlar səni ora aparacaq, - Qlinda söz verdi. – Bununla da mənim Qızıl Papaq üzərindəki gücüm sona çatacaq, mən Papağı Uçan Meymunların Başçısına hədiyyə edəcəm, qoy azad olsunlar, daha heç kimə boyun əyib əmrlərini yerinə yetirməsinlər.

Dostlar sevincək halda Qlindaya təşəkkür etdilər. Doroti yüksək səslə dedi:

- Gözəl olduğunuz qədər də xeyirxahsınız! Ancaq mən Knzasa necə qayıdacağımı heç soyləmədiniz.

- Ayağındakı gümüş başmaqlar səni səhradan keçirər, əgər bu başmaqların sehrini əvvəldən bilsəydin, elə ilk gündən Em xalanın yanına qayıdardın.

- O zaman mənim əla beynim olmazdı! – Bədheybət qışqırdı. – Mən indiyənə qədər qarğıdalı tarlasında, çubuqda qalardım!

- Mənim duyğusal gözəl ürəyim olmazdı, - Dəmir Odunçu dedi, - meşədə qalıb elə hey pas atardım...

- Mən də ömrümün axırına qədər qorxaq qalardım və meşədəki heç bir heyvan mənim haqqımda yaxşı sözlər danışmazdı.

- Bütün bunlar doğrudur, dostlar, - Doroti razılaşdı, - çox sevinirəm ki, sizə kömək edə bilmişəm. İndi hamınızın arzusu həyata yetib, hərənizin idarə edəcəyi ölkəsi var, mən Kanzasa qayıda bilərəm, amma bunu necə edim?

- Gümüş başmaqların güclü təsiri var. - Qlinda izah etdi, - Onlar insanı Yer kürəsinin istənilən nöqtəsinə bir göz qırpımında aparır. Üç dəfə dabanları bir-birinə vurub başmaqlara əmr etsən, onlar səni aparar.

- Ayy, nə yaxşı, onda məni bu saat Kanzasa aparmasını istəyəcəyəm - Doroti sevindi.

Aslanın boynunu qucaqlayıb öpdü, pırpızyallı yekə başını tumarladı. Sonra Dəmir Odunçunu qucaqladı, Odunçu yaman kövrəldi, pas atmaqdan qorxmayaraq ağlamağa başladı. Ancaq Bədheybətin boyalı üzünü öpməkdənsə yumşaq, samanla dolu qarnını qucaqladı və sevgili dostlarından ayrıldığı üçün zırın-zırın ağlamağa başladı.

Xeyirxah Qlinda yaqut taxtından enib Doroti ilə görüşüb vidalaşdı. Doroti ona özü və dostlarıyla bu qədər yaxşı davrandığına görə təşəkkür etdi. Totonu qucağına götürüb bərk-bərk sarıldı, bir daha hamı ilə vidalaşdı, sonra üç dəfə dabanlarını bir-birinə vurub gümüş başmaqlara əmr etdi:

- Məni evə, Em xalanın yanına aparın!.

Həmin an Doroti havaya qalxdı və elə sürətlə uçdu ki, külək qulaqlarında vıyıldayırdı. Gümüş ayaqqabılar üç addım atdı və uçuş elə gözlənilməz bitdi ki, Doroti heç nə başa düşmədən yerdə bir neçə dəfə yumbalandı. Qız qalxıb oturdu və ətrafa baxıb:

- Aman allah! – dedi.

Demə, Doroti geniş Kanzas çölünün düz ortasında, təzə evin yanında oturmuşdu. Bu evi Henri dayı qasırğadan sonra tikmişdi. Dayı tövlədə, inəklərin yanında idi. Toto Dorotinin qucağından atılıb nəşə içərisində hürərək axurda inəkləri sağan Henri dayıya tərəf qaçdı.

Ayağa qalxan Doroti ayaqlarında təkcə corablarının olduğunu gördü. Gümüş ayaqqabılar uçuş zamanı havada ayaqlarından çıxmış və çöldə həmişəlik itmişdi.

## 24. Yenə evdə

Em xala elə evdən çıxıb kələmləri suvarmağa gedirdi ki, birdən Dorotinin ona tərəf qaçdığını gördü.

- Ay mənim canım! – deyə bağırdı, qızı qucağına alıb doyunca öpərək; - sən hardan gəldin belə?

- Oz ölkəsindən, - Doroti qürurla cavab verdi. – Toto da burdadır. Ah, xala, bir bilsən, evdə olmağıma nə qədər sevinirəm...

S o n